"Bişkek protokolu" nun imzalanmasında Rusiya tərəfdən vasitəçi kimi iştirak etmiş, Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində iştiraka qədər, cənub-qərbi Afrikada münaqişələrin yoluna qoyulmasında çalışmış V.N. Kazimirov özünün şəxsi internet saytına "Bişkek protokolu" və Atəşkəs haqqında razılaşma müqaviləsinin orjinalı ilə bərabər, müəllifi olduğu "Qarabağa sülh (nizamlamanın anatomiyası) " başlıqlı bir məqalə də qoyub. Bu məqalədəki fikirlər Rusiya prezidentinin səlahiyyətli nümayəndəsinin rəsmi mövqeyi olsa da, fikrimizcə, həmin yazıya tənqidi yanaşmaqla bir sıra həqiqətləri üzə çıxarmaq mümkündür.

Yazıda sənədin imzalanması ərəfəsi və sonra baş verən hadisələrin xronoloji ardıcıllıqla izahı "Bişkek protokolu"nun Azərbaycan üçün nə dərəcə xeyirli və ya zərəli olduğunu üzə çıxarmağa imkan verir. Fikrimizcə, bunun üçün əvvəl V. N. Kazimirovun şəxsi internet saytında "Bişkek protokolu", Atəşkəs haqqında razılaşma sənədinin rus dilində qoyulmuş orjinalı ilə tanış olub, onları təhlil etməyə ehtiyac var.

ДОКУМЕНТ №9
БИШКЕКСКИЙ ПРОТОКОЛ

Участники встречи, проведенной 4-5 мая 1994 года в городе Бишкеке по инициативе Межпарламентской Ассамблеи СНГ, парламента Кыргызской Республики, Федерального Собрания и Министерства иностранных дел Российской Федерации:

- выразили решимость всемерно способствовать прекращению вооруженного конфликта в Нагорном Карабахе и вокруг него, который не только наносит непоправимый урон азербайджанскому и армянскому народам, но и существенно затрагивает интересы других стран региона, серьезно осложняет международную обстановку;
- поддержав Заявление Совета глав государств СНГ от 15 апреля 1994 года, высказали готовность оказать полную поддержку усилиям глав и представителей исполнительной власти по прекращению вооруженного противоборства и ликвидации его последствий путем скорейшего заключения соответствующего соглашения;
- выступили за естественную активную роль Содружества и Межпарламентской Ассамблеи в прекращении конфликта, в реализации связанных с этим принципом, целей и конкретных решений ООН и СБСЕ


(прежде всего резолюций Совета Безопасности ООН 822, 853, 874, 884);
- призвали все противоборствующие стороны внять голосу разума: прекратить огонь в полночь с 8 на 9 мая с.г., опираясь на Протокол от 18 февраля 1994 г. (в том числе и в части размещения **наблюдателей**), и самой интенсивной работой в кратчайшие дни закрепить это путем подписания надежного, юридически обязывающего соглашения, предусматривающего механизм обеспечения невозобновления военных и враждебных действий, вывод войск с **занятых** территорий и возобновление функционирования коммуникаций, возвращение беженцев, продолжение переговорного процесса;
- согласились предложить парламентам государств-участников СНГ обсудить инициативу Председателя Совета Межпарламентской Ассамблеи В.Ф.Шумейко и Руководителя миротворческой группы Ассамблеи по Нагорному Карабаху М.Ш.Шеримкулова о создании миротворческих сил Содружества;
- считают целесообразным продолжать подобные встречи в интересах мирного решения вооруженного конфликта;
- выразили признательность народу и руководству Кыргызстана за создание превосходных условий работы, радушие и гостеприимство.

От имени делегаций:
(А.ДЖАЛИЛОВ)
Р.ГУЛИЕВ
Б.АРАРКЦЯН
К.БАБУРЯН
В.ШУМЕЙКО
М.ШЕРИМКУЛОВ
В.КАЗИМИРОВ
полномочный представитель Президента Российской Федерации, руководитель посреднической миссии России

М.КРОТОВ
руководитель Секретариата Совета Межпарламентской Ассамблеи
государств-участников СНГ
Бишкек, 5 мая 1994 года

Примечание: 8 мая 1994 г. в Баку при подписании Р.Гулиевым Бишкекского протокола в тот его экземпляр была включена следующая запись: «Подписано с условием, что в пятом абзаце настоящего текста в третьей строке сверху перед словом «наблюдателей» будет добавлено слово «международных» и в шестой строке сверху этого же абзаца слово «занятых» будет заменено на «захваченных». Выше в оригинальном тексте

выделены слова, к которым относятся эти поправки. Кроме того, предпринималась попытка дополнить тот экземпляр документа подписью Н.Бахманова, но в тот день его не нашли в Баку.


От имени делегаций

(подпись Р. Гулиева)

А.ДЖАЛИЛОВ

К.БАБУТЯН

Г.АРАРКЦЯН

М.ШЕРИМКУЛОВ

В.КАЗИМИРОВ

полномочный представитель Президента Российской Федерации, руководитель посреднической миссии России

М.КРОТОВ

руководитель Секретариата Совета Межпарламентской Ассамблеи государств-участников СНГ

Бишкек, 5 мая 1994 года

[9]

V. Kazmirovun öz rəsmi saytında yaydığı "Bişkek protokolu"na aid bu sənəd və şəkildən aydın olur ki, Protokolun Bişkek şəhərində 5 may 1994-cü il tarixdə imzalanan nüsxəsinə Azərbaycan tərəfindən başqa bütün tərəflər, o cümlədən, qondrma Dağlıq Qarabağ qurumunun nümayəndəsi də imza atıb.

Prezident H.Əliyev mayın 3-də NATO-nun Brüsseldə təşkil etdiyi "Sülh naminə tərəfdaşlıq" görüşündə iştirak etdiyindən Konstitusiyaya görə, onun ölkədə olmadığı müddətdə Milli Məclisin sədri prezidentin səlahiyyətlərini icra etməli idi. Bu səbəbdən də Azərbaycanı bu görüşdə Milli Məclisin sədri R. Quliyev deyil, onun müavini A.Cəlilov təmsil edib. O da qondrma Dağlıq Qarabağ qurumunun tərəf kimi iştirakına, mətndəki bir sıra terminlərə və Dağlıq Qarabağın Azərbaycan icmasının nümayəndəsinin iştirakına icazə verilməməsinə etiraz edib və sənədə imza atmaqdan imtina edərək Bakıya qayıdıb.

Rusiya prezidentinin səlahiyyətli nümayəndəsi V.N.Kazimirov tərəfindən Bakıya gətirilərək 8 may 1994-cü il tarixdə R.Quliyev tərəfindən imzalanan protokolun digər nüsxəsinin özü deyil, onun haqqında şərh 5 may nüsxəsinin axırına sonradan qeyd kimi əlavə olunub və yayımlanıb. Burda da əvvəlki illərdə olduğu kimi Azərbaycana qarşı Rusiyanın riyakarlığı bir daha özünü göstərir.

Azərbaycanın tələbi kimi protokolun 5 may nüxsəsində "müşahidəçilər" sözü qarşısına "beynəlxalq" sözü artırmaq, "tutulmuş" sözü əvəzinə "işğal olunmuş" sözü əlavə etmək əvəzinə, "müşahidəçilər" sözünün qarşısına heç nə əlavə etmədən, "tutulmuş" sözünü olduğu kimi saxlayaraq, sadəcə, əvvəlki mətndəki sözləri qara şriftlə verməklə kifayətlənmişdilər. Bundan böyük riyakarlıq isə Dağlıq Qarabağın Azərbaycan icmasının rəhbəri N.Bəhmənova qarşı edilmiş və sənədin axırına belə bir cümlə əlavə edilmişdir: "Mayın 8-də N. Bəhmənovun da sənədə imza atması ilə sənədin yekunlaşmasına cəhd edilsə də, həmin gün onu Bakıda tapmaq mümkün olmadı"

Bu qeyddə N. Bəhmənovun Dağlıq Qarabağın Azərbaycan icmasının rəhbəri olmasının qeyd olunmaması, fikrimizcə, Azərbaycana qarşı açıq düşmənçilikdən başqa bir şey deyildi. Çünki 30 ildən artıq yayımlanan bu sənədin qeyd hissəsində adı keçən N.Bəhmənovun hansı səlahiyyətə malik olmasını özümüzdən başqa digər ölkələrin vətəndaşlarının mütləq əksəriyyəti o zaman da, indi də bilmir.

"Bişkek protokolu"na istinad edən Azərbaycan Müdafiə Nazirinin 9 may, Ermənistan Müdafiə Nazirinin 10 may və qondarma qurumun "baş komandanının" 11 mayda imzalayıb, Rusiya Müdafiə Naziri və Xarici İşlər Nazirlərinə göndərdiyi Atəşkəs Haqqında Müqavilə 12 may 1994-cü ildə qüvvəyə minib.

ДОКУМЕН Т №10

Соглашение о прекращении огня с 12 мая 1994 г.

МИНОБОРОНЫ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
П.С.ГРАЧЁВУ
МИД РОССИЙСКОЙ ФЕДЕРАЦИИ
А.В.КОЗЫРЕВУ
В.Н.КАЗИМИРОВУ

Откликаясь на призыв к прекращению огня, изложенный в Бишкекском протоколе от 5 мая 1994 года, и опираясь на Протокол от 18 февраля 1994 года, противоборствующие Стороны согласились о следующем:

1. Обеспечить полное прекращение огня и военных действий с 00 часов 01 минуты 12 мая 1994 года. Соответствующие приказы о прекращении огня будут отданы и доведены до командиров воинских формирований, ответственных за их выполнение, не позднее 11 мая 1994 года.

   12 мая до 23.00 Стороны обменяются текстами своих приказов о прекращении огня с целью их возможного взаимного дополнения и в дальнейшем унификации основных положений аналогичных документов.
2. Просить министра обороны Российской Федерации о созыве в Москве не позднее 12 мая с.г. срочного совещания министров обороны Азербайджана, Армении и командующего армией

Нагорного Карабаха с целью согласования рубежей развода войск, других неотложных военно-технических вопросов и подготовки развёртывания передовой группы международных наблюдателей.

3. Настоящая договоренность будет использована для завершения в предстоящие 10 дней переговоров и заключения не позднее 22 мая с.г. Соглашения о прекращении вооруженного конфликта.
4. Настоящая договоренность вступит в силу сразу после того, как Посредник уведомит о том, что он получил от противоборствующих сил полностью идентичные документы, подписанные уполномоченными представителями.

Министр обороны Азербайджана **Министр обороны Армении**

Командующий армией Нагорного Карабаха

« » мая 1994 г.

Примечание: текст подписан соответственно М.И.Мамедовым в Баку 9 мая, С.А.Саркисяном в Ереване 10 мая, С.Бабаяном в Степанакерте 11 мая 1994 г.

[9]

Həmin müqavilənin 3-cü maddəsində qeyd olunurdu ki, bu müqavilə qarşıdakı 10 gün ərzində danışıqların başa çatdırılması, 22 maydan gec olmayaraq hərbi münaqişənin qutarması haqqında razılaşmanın əldə olunması üçün istifadə olunacaq. Göründüyü kimi, nəinki 10 gün ərzində, hətta Müzəffər Azərbaycan ordusunun 44 günlük qələbəsinə qədər heç bir razılaşma əldə olunmasına imkan verilməyib.

V.N.Kazimirovun "Qarabağa sülh (nizamlamanın anatomiyası)" mövzusunda yazdığı məqalənin təhlili isə "Bişkek prtokolu" ilə bağlı daha geniş məlumat əldə etməyə imkan verir.

Yazıda Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin memarı olan Rusiyanın guya bu qanlı münaqişənin tezliklə sülh yolu ilə başa çatmasını istəməsi xüsusi vurğulanır. Hətta bunun üçün MDB Parlamentlərarası assambleyasının 1992-ci ildə Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Qırğızıstan Parlamentinin sədri M.Ş.Şerimkulovun rəhbərliyi ilə qrup da yarandığı, həmin qrupun təşəbbüsü və Aland İnstitutunun təşkilatçılığı ilə 21-22 dekabr 1993-cü ildə Azərbaycan, Ermənistan və qondarma "Dağlıq Qarabağ" qurumu nümayəndələrinin millətlərarası münaqişənin tənzimlənməsində Aland adasının təcrübəsini öyrənmək üçün bu adaya səfərinin təşkil edildiyi qeyd olunub. O vaxt M.Ş. Şerimkulov Aland adasının əsas şəhəri olan Mariexamn şəhərində görüşün Qırğızıstanın paytaxtında davam etdirilməsi təşəbbüsünü irəli sürüb və buna görə də növbəti görüş Bişkekdə olub.

Məlumat üçün qeyd edək ki, beynəlxalq münasibətlərdə millətlərarası

regional münaqişələrin "sponsoru olan münaqişələr" və "sponsoru olmayan münaqişələr" adlanan iki forması mövcuddur. Finlandiya ərazisi olan Aland adasının əhalisinin çox hissəsi İsveç xalqının nümayəndələrindən ibarət olduğundan burda vaxtilə İcveçlə Finlandiya arasında müəyyən problem yaranıb. Lakin Dağlıq Qarabağ problemindən fərqli olaraq, Aland adasının problemi beynəlxalq münasibətlərdə "sponsoru olmayan", yəni kənar, üçüncü qüvvənin qızışdırıcı təsiri, müdaxiləsi olmayan münaqişə hesab olunurdu. Buna görə də Finlandiya ilə İsveç bu problemi qısa müddətə öz aralarında həll edə bildilər. Bunu bilə-bilə Azərbaycan-Ermənistan, Dağlıq Qarabağ münaqişəsinin sponsoru olan Rusiyanın bu dırnaqarası təşəbbüsü təəccüb doğurur və problemin həlli üçün heç nə vəd etmirdi. Rusiyanın bu dövrdə əsas məqsədi vəziyyəti daha da gərginləşdirmək və öz ordusunu yenidən Azərbaycana qaytarmaq idi. "Aland təcrübəsi"ni tərəflərə öyrətmək məqsədilə səfərin təşkili isə gözdən pərdə asmaq, imitasiya xarakteri daşıyırdı.

Fikrimizcə, Azərbaycan tərəfi Dağlıq Qarabağ münaqişəsinin həlli üçün heç bir əhəmiyyət daşımayan bu səfərdən ümumən imtina etməliydi. Əgər bunu etməyə imkan yox idisə, heç olmasa bu səfəri təşkil edənlərə iki Respublika nümayəndələri ilə yanaşı qondarma "Dağlıq Qarabağ" qurumu nümayəndələrinin iştirakına etiraz etməliydi. Bunu da edə bilmirdisə, Dağlıq Qarabağın Azərbaycan icmasının da iştirakına nail olmalı idi. Bu mümkün olmadıqda, ümumiyyətlə, bu səfərdən və buna oxşar səfərlərdən imtina etməliydi. Bütün bunlar baş verdiyindən bu amil əhalinin haqlı olaraq narahatlığı və etirazına səbəb olmuşdu.

Alanddan sonra 1994-cü ilin mayın 4-5 də Bişkekdə keçirilən ikinci görüşdə tərəflər V.N.Kazimirovun Moskvada hazırladığı, sonradan "Bişkek protokolu" adlanan sənədi müzakirə etdilər. Azərbaycan tərəfi ilə qondarma Dağlıq Qarabağ qurumu arasında iki gün ərzində aparılan müzakirələrdə saatlarla mübahisələr baş verdi və buna görə də görüş iştirakçıları üçün nəzərdə tutulmuş "İssi-Kul" gölündə gəzinti və digər mədəni-istirahət tədbirləri təxirə salındı.

A.Cəlilov qondarma Dağlıq Qarabağ qurumunun bu görüşdə tərəf kimi iştirakına etiraz edərək, onlarla yanaşı Dağlıq Qarabağın Azərbaycan icmasının rəhbəri N. Bəhmənovun da iştirakını tələb etmişdi. Əks tərəf isə N.Bəhmənovun nə vaxtsa Şuşanın İcra Başçısı olmasını, heç bir seçkili qurumu, parlament və ya bələdiyyəni təmsil etmədiyini bəhanə gətirərək, onun iştirakına etiraz etmişdilər.

"Bişekek protokolu"nu hazırlayan Rusiya tərəfinin əsas məqsədi Böyük Vətən Müharibəsində faşizm üzərində qələbənin ildönümü, yəni 9 maya qədər, 8 maydan 9 maya keçən gecə atəşkəsə nail olmaq idi.

Azərbaycan tərəfi atəşkəsin əldə olunması, işğalçı qoşunların ərazimizdən çıxarılması, qərb ölkələrinin də daxil olduğu beynəxalq sülməramlıların regiona yerləşdirilməsi və məcburi köçkünlərin öz evlərinə qayıtmasını təklif edirdi. Rusiya və erməni tərəfi isə Dağlıq Qarabağ qondarma qurumunun tərəf kimi tanınmasını, atəşkəsin əldə olunmasını və Rusiyanın rəhbərlik etdiyi MDB ölkələri sülhməramlılarının yerləşdirilməsi fikrini irəli sürürdü. Azərbaycanın irəli sürdüyü "Münaqişə regionun digər ölkələrinin maraqlarına uyğun gəlir" fikrini digər

iştirakçılar qəbul etmirdilər.

Rusiya və erməni tərəfi 5 mayda A.Cəlilovun sənədə imza atmaqdan imtina etməsini Prezident H.Əliyevin mayın 4-də NATO-nun Bürüsseldəki toplantısında "Sülh naminə tərəfdaşlıq" sazişinə imza atması, yəni Azərbaycanın qərbə inteqrasiyaya meyl etməsiylə əlaqələndirirdilər.

Bundan başqa, V.N.Kazimirov qeyd edir ki, protokola R.Quliyev imza atandan sonra N.Bəhmənov tapılmadığına görə sənədi Moskvaya onun imzası olmadan aparıb. Bir də vurğulayır ki, Azərbaycan tərəfinin etdiyi düzəlişlərə yalnız onların xüsusi rəyi kimi baxmaq lazımdır, Bişkekdə protokola imza atanların hamısı üçün isə tekst əvvəlki kimi, yəni onlar imza atdıqları vaxt necə idisə, elə də qalır. Burdan belə çıxır ki, rus və erməni tərəfi Azərbaycanın etdiyi düzəlişləri qəbul etməyib.

V.N.Kazimirov məqaləsində daha sonra yazır ki, 10 və 12 mayda Azərbaycanın müxalif siyasi partiyaları bəyanatla çıxış edərək, protokola etiraz edir, sənədə imza atan parlament sədrini xəyanətdə ittiham edərək bildirirlər ki, R.Quliyevin K.Baburyanla yanaşı sənədə imza atması gələcəkdə qondarma Dağlıq Qarabağ qurumunun beynəlxalq aləmdə tanınmasına gətirib çıxara bilər.

R.Quliyev mayın 18-də Milli Məclisin iclasını açaraq bildirdi ki, protokolun heç bir hüquqi qüvvəsi yoxdur, yalnız məsləhətverici bir sənəddir. Onu imzalamaq üçün parlamentin razılıq verməsi tələb olunmur və ratifikasiyasına da ehtiyac yoxdur.

Ermənistanda və Dağlıq Qarabağda əksəriyyət "Bişkek protokolu"nu Dağlıq Qarabağ qondarma qurumunun münaqişə tərəfi kimi tanınması kimi qəbul edirdi. A.Quqasyan "Ermənistan Respublikası" qəzetində bu sənədi tarixi sənəd, B.Ararksyan erməni tərəfi üçün nailiyyət adlandırmışdı. Sonuncusu mətbuat konfransında qeyd edirdi ki, Azərbaycandan başqa protokola imza atanların hamısı, o cümlədən, Rusiya tərəfi də Dağlıq Qarabağ qondarma qurumunu de-fakto tanınmışdır.

Rusiya tərəfi protokoldan 20 gün əvvəl, 1994-cü il aprelin 15-də Moskvada Rusiyanın təşəbbüsü ilə MDB dövlət başçılarının Dağlıq Qarabağ probleminin tənzimlənməsi üçün atəşkəsin əldə olunması ilə bağlı imzaladığı sənədin "Bişkek protokolu"nda daha çox hüquqi qüvvəyə malik olduğunu iddia edir, bu sənədin "Bişekek protokolu"nun imzalanması üçün əsas olduğunu bildirirdi [8]

Lakin Rusiya tərəfi yaddan çıxarırdı ki, 15 apreldə imzalanmış sənəddə Dağlıq Qarabağ qondarma qurumu təmsil olunmamış, Bişkekdə isə ilk dəfə olaraq tərəf kimi protokola imza atmışdı. Rusiya tərəfi bundan sonra da məsələnin mahiyyətini ört-basdır etmək üçün Bişkek görüşünü parlament üzvlərinin Aland görüşünün davamı kimi təqdim edərək, öz riyakarlığını davam etdirirdi.

Nəzərə almaq lazımdır ki, bütün bunlar Rusiyanın qərb ölkələri ilə münasibətlərinin indikindən fərqli olaraq normal olduğu, demokratik, qərb yönümlü partiyaların və qeyri-hökümət təşkilatlarının fəaliyyət göstərdiyi, Rusiya ərazisində SSRİ-nin süqutunda mühüm rol oynamış proseslərə rəhbərlik etmiş, demokrat hesab olunan prezident B.Yeltsinin hakimiyyəti dövründə baş verirdi.

Lakin belə gərgin bir vaxtda Azərbaycan böyük bir uğura imza atmasına düşmən olan qüvvələr, o cümlədən Rusiya mane ola bilmədi. 1994-cü il sentyabrın 20-də Bakının "Gülüstan" sarayında ADNŞ ilə ABŞ, Böyük Britaniya, Norveç, Rusiya, Türkiyə, Səudiyyə Ərəbistanı, Yunanıstanın iri neft şirkətləri daxil olan konsersum (sonralar bu konsersuma Yaponiya şirkəti də qoşuldu) arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlədilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi haqqında 30 illik saziş imzalandı. [1, s.306]

Sazişin imzalanması ərəfəsi Rusiyanın mövqeyi ilə bağlı dövlət müşaviri Vəfa Quluzadə deyirdi: "O zaman heç kəs düşünmürdü ki, sentyabrın 20-də kontraktlar imzalanacaq. Rusiyanın Azərbaycanda kəşfiyyatı çox güclü idi. Amma kəşfiyyat da dəqiq deyə bilmədi ki, bu neft kontraktları imzalanacaq, ya yox. Bu da bizim böyük uğurumuz oldu. Çünki onlar bunu bilsəydilər, özlərinə məxsus müxtəlif metodlarla prosesi dağıdardılar. Mənim yadımdadır, neft müqavilələri imzalanan zaman Vladimir Kazimirov da dəvət olunmuşdu. Kazimirovu həmin tədbirdə mən müşayiət edirdim. Nahar yeməyi zamanı gördüm Kazimirov narahatdır. Neft kontraktlarının imzalanması onun üçün böyük ağrı olmuşdu. Mən də zarafatla ona bir böyük stəkan araq süzüb rahat olmasını dedim. O da üzünü turşudub birdən-birə bu arağı başına çəkdi. Kefi çox pis idi.

Rusiya Yeltsin dövründə bərbad vəziyyətdə idi. Ölkədə anarxiya hökm sürürdü. Rusiya təyyarələri uçmurdu. Çünki yanacağın hamısını parçalayıb satırdılar. Bəlkə də başqa zaman olsaydı, Moskva nəsə edərdi, amma xoşbəxtlikdən onların vəziyyəti ağır idi. Ona görə də heç nə edə bilmədilər.

Onda müxtəlif şayiələr gəzirdi ki, dövlət çevrilişi cəhdləri olacaq. Onlarda panika olurdu və həmin anda dörd-beşi birdən-birə mənim kabinetimə gəlirdi. Mən də deyirdim ki, narahat olmayın" [4, 20 sentyabr 2014;7]

1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" imzalandıqdan sonra bir sıra xarici və yerli qüvvələr Azərbaycana qarşı yeni təxribatlara əl atdılar. Heydər Əliyev ABŞ-da olarkən sentyabrın 29-da parlament sədrinin müavini Afiyəddin Cəlilovun və Prezident yanında Xüsusi İdarənin rəisi Şəmsi Rəhimovun qətlə yetirilməsi dövlət çevrilişinə hazırlıq planının tərkib hissəsi idi. Həmin vaxt Nyu-Yorkda BMT-nin 49-cu sessiyasında iştirak edən H.Əliyev hadisə ilə əlaqədar bəyanat verərək, bu terror aktını son vaxtlar Azərbaycanın müstəqilliyinə qarşı yönəlmiş cəhdlərin yeni dalğası kimi xarakterizə etdi.

Oktyabrın 2-də Heydər Əliyev Bakıya qayıdanda respublikada hadisələr kritik həddə çatmışdı. Xətai rayonunun prokuroru Mahir Cavadovun qardaşı Rövşən Cavadovun komandanlığı altında olan Xüsusi Təyinatlı Polis Dəstəsinin bir qrup silahlısı ilə Respublika Prokurorluğuna basqın etməsi vəziyyəti daha da gərginləşdirmişdi.

1994-cü il oktyabrın 4-də bəzi xarici dövlətlərin təhriki və maliyyə dəstəyi və o vaxtkı baş nazir Surət Hüseynovun rəhbərliyi ilə ölkədə dövlət çevrilişinə cəhd göstərildi. Vəziyyətin son dərəcə təhlükəli məcraya yönəldiyini görən Heydər Əliyev

televiziya ilə xalqa müraciət etdi, əhalini Azərbaycan dövlətçiliyini qorumağa çağırdı...

Oktyabrın 4-də Heydər Əliyev dünyanın bütün dövlətlərinə, hökumətlərinə və beynəlxalq təşkilatlara müraciət edərək, birbaşa xaricdən yönəldilən qüvvələrin silahlı qiyam yolu ilə dövlət çevrilişinə cəhd göstərdiklərini bəyan etdi, onları ölkənin müstəqillik və suverenliyini qorumaq, zorakılıq və irticanın qalib gəlməsinə yol verməmək naminə bütün imkanlardan istifadə etməyə çağırdı [3, 08 dekabr 2022]

1994-cü ilin 4 oktyabrında baş verən hadisələrdə Xüsusi Təyinatlı Polis Dəstəsi (XTPD) əvvəl Respublika Prokurorluğuna hücum edib, Baş prokurora təzyiq göstəsələr də, sonradan keçirilən mitinqdə Prezidenti müdafiə etdiklərini bildirdilər.

Ölkədəki sosial-iqtisadi vəziyyətin ağırlaşması digər amillərlə yanaşı Rusiyanın Azərbaycana qarşı yeritdiyi siyasətlə də bağlı idi. Rusiya Federasiyası hökumətinin 1994-cü il dekabrın 21-də Azərbaycanla sərhədləri birtərəfli qaydada bağlaması vəziyyəti daha da gərginləşdirdi.

Rusiya 1994-cü ilin axırlarından Azərbaycana dəmir, şose və dəniz yollarını bağlamaq kimi ciddi iqtisadi sanksiyalar tətbiq edərək, Ermənistana 1994-1996-cı illərdə - atəşkəs şəraitində ümumi dəyəri 1 milyard dollardan çox olan 84 ədəd T-72 markalı tank, 50 ədəd piyadalar üçün RDM-2 döyüş maşını, 8 ədəd R-17 uzaqmənzilli raket kompleksi, "OCA" zenit kompleksi üçün 40 raket, 349 raketlə birlikdə 27 ədəd "Kruq" raket-zenit kompleksi, 40 ədəd "İqla" səyyar raket kompleksi, 18 ədəd reaktiv "Qrad" qurğusu, 1000-ə qədər "Strela-2" və "Strela-3" raketləri, külli miqdarda başqa silah və sursat verdi. Ermənistanda öz hərbi bazalarını yerləşdirib daim modernləşdirərək Rusiya-İran-Ermənistan strateji əməkdaşlıq xətti yaratdı [1,s.278]

İran İslam Respublikası isə 1995-ci ilin ortalarından bir sıra mühüm məhsulların Azərbaycana ixracına qadağan qoyaraq, Respublikanı Rusiya ilə birlikdə demək olar ki, blokadaya saldı [1,s.302]

Rusiya Federasiyası hökumətinin Azərbaycanla əlaqələrin kəsilməsi haqqında qərarı Azərbaycana külli miqdarda iqtisadi zərər vurmaqla yanaşı, Respublikada əhalinin onsuz da son dərəcə ağır sosial-iqtisadi vəziyyətini daha da pisləşdirməyə və bunun birbaşa nəticəsi olaraq, kövrək olan ictimai-siyasi sabitliyin pozulmasına xidmət edir. Bütün bunlar və Rusiyanın bəzi rəsmi dövlət nümayəndələrinin Azərbaycana qarşı ciddi təxribatların hazırlanması haqqındakı çıxışları Respublikanın siyasi qüvvələrindən sayıqlıq nümayiş etdirməyi və müvafiq əks tədbirlər görülməsini tələb edirdi. Azərbaycanın siyasi qüvvələri bu sınaqdan da alnı açıq- üzü ağ çıxaraq, dövlətin iqtisadiyyatının və ordunun daha da güclənməsinə nail oldular. Bu da sonrakı dövrdə Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpasında mühüm rol oynadı.

Ədəbiyyat

1. Azərbaycan tarixi. Yeddi cilddə. VII cild (1941-2002-ci illər) Bakı, Elm, 2008. 608 səh. + 48 səh. illüstrasiya.
2. “Yeni Müsavat” qəzeti
3. https://azertag.az/xeber/xalqa_bagislanmis_omurden_anlar_1994_cu_ilin_oktyabri-2401154 AZƏRTAC 08.12.2022
4. https://axar.az/news/gundem/29899.html, Axar.az 2014.09.20
5. https://modern.az/ news/51273/, 1 Fevral 2014,
6. https://xezernews.az/ index.php?c=news&id=23443, 12.05.2017
7. Гулузаде В. Среди врагов и друзей. Статьи, интервью, выступления. Баку 2002, 231 с.
8. http://vn.kazimirov.ru/x013.htm
9. http://www.vn.kazimirov.ru/doc9.htm

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.02.2025
Məqalənin çapa qəbul olunma tarixi: 14.02.2025

UOT: 9.327
Aqil ƏHMƏDOV
Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu
tarix üzrə fəlsəfə doktoru, dosent
agilahma@gmail.com
https://orcid.org/0000-0002-9212-5147
DOI: doi.org/10.61226/12.2.2023/20251.8

ƏHALİNİN MÜTƏRƏDDİD MİQRASİYASININ NƏZƏRİ ASPEKTLƏRİ

Xülasə: Dövlətlərin daxili və xarici siyasətində, milli təhlükəsizliyinin qorunmasında miqrasiya kimi həssas və qlobal proseslər mühüm rol oynayır. Bu səbəbdən, məqalə müasir beynəlxalq münasibətlər tarixində zəif öyrənilən, əhalinin "mütərəddid", yaxud "rəqqas" formalı miqrasiyasının nəzəri aspektlərinə və praktik əhəmiyyətinə həsr olunmuşdur. Bu məqsədlə yerli və xarici mütəxəssislərin əsərlərinə müraciət olunaraq, faktoloji materiallar əsasında qeyd olunan miqrasiya növünün ümumi mənzərəsi təhlil edilmişdir. Elmi-tədqiqat işində miqrantların yaxın məntəqələr arasında müntəzəm hərəkətliliyi və şəhər aqlomerasiyasında, eləcə də qəsəbə və kəndlərdə proseslərin davam etdiyi göstərilmişdir. Mövcud sahədə regional və beynəlxalq təcrübənin öyrənilməsi, tətbiq olunmasının əhəmiyyəti, sosial-iqtisadi faydaları geniş şərh olunmuşdur. Xüsusilə inkişaf etmiş bəzi Qərbi Avropa dövlətlərinin adları çəkilərək, onların "rəqqas" miqrasiya sahəsində əldə etdikləri uğurlara diqqət yetirilmişdir. Tədqiq olunan miqrasiya forması ilə yanaşı, digər 12 miqrasiya növünün adları qeyd olunaraq araşdırmada elmi-nəzəri əhəmiyyəti əsaslandırılmışdır. Həmçinin qısada olsa, Azərbaycan Respublikasının miqrasiya siyasəti sahəsində qazandığı mütərəqqi təcrübəyə toxunulmuşdur.

Açar sözlər: miqrasiya, tarix, regional, beynəlxalq, miqrant, dövlətlər, sosial, siyasət

Agil AHMADOV

THEORETICAL ASPECTS OF THE PENDULUM MIGRATION OF THE POPULATION

Abstract: Sensitive and global processes such as migration play an important role in the domestic and foreign policy of States and in protecting their national security. In this regard, the article is devoted to the theoretical aspects and practical significance of the little-studied in the history of modern international relations, the pendulum migration of the population. To this end, referring to the works of domestic and foreign specialists, the general picture of the noted type of migration was analyzed on the basis of factual materials. The research work shows the regular

mobility of migrants between nearby settlements and the processes in the urban agglomeration, as well as in towns and villages. The study of regional and international experience in the current field, the significance of its application, and the socio-economic benefits have been widely commented on. In particular, some of the most developed Western European states were named, and attention was paid to their achievements in the field of pendulum migration. Along with the studied form of migration, the names of 12 more types of migrations are noted, the scientific and theoretical significance of which is substantiated in the study. The progressive experience gained by the Republic of Azerbaijan in the field of migration policy was also briefly touched upon.

Keywords: migration, history, regional, international, migrant, state, social, policy

Агиль АХМЕДОВ

ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ МАЯТНИКОВОЙ МИГРАЦИИ НАСЕЛЕНИЯ

Абстракт: Важную роль во внутренней и внешней политике государств, в защите их национальной безопасности играют такие деликатные и глобальные процессы, как миграция. В связи с этим статья посвящена теоретическим аспектам и практическому значению малоизученной в истории современных международных отношений, маятниковой миграции населения. С этой целью, обратившись к трудам отечественных и зарубежных специалистов, на основе фактологических материалов была проанализирована общая картина отмеченного вида миграции. В научно-исследовательской работе показана регулярная мобильность мигрантов между близлежащими населенными пунктами и протекание процессов в городской агломерации, а также в поселках и деревнях. Изучение регионального и международного опыта в текущей области, значение его применения, социально-экономические выгоды широко комментировались. В частности, были названы некоторые из наиболее развитых западноевропейских государств, уделено внимание их достижениям в области маятниковой миграции. Наряду с изучаемой формой миграции, отмечены названия еще 12 видов миграций, научно-теоретическая значимость, которых обоснована в исследовании. Также в кратком изложении был, затронут прогрессивный опыт, приобретенный Азербайджанской Республикой в области миграционной политики.

Ключевые слова: миграция, история, региональная, международная, мигрант, государства, социальная, политика

Giriş. Mühacirət, digər adıyla miqrasiyalar XXI əsr insanının həyatında mühüm rol oynayan hərəkətlilik kimi populyarlığını artırmağa davam edir. Bu baxımdan, beynəlxalq və regional olmaqla, qloballaşan dünyada miqrasiyanın, nəzəri

aspektləri və praktik (sosial-iqtisadi) əhəmiyyəti aktual olaraq qalır. Bir sıra forma və növləri tədqiqatçılar tərəfindən araşdırılan bu prosesdə məcazi mənada işlənən – "mütərəddid", digər adıyla "rəqqas formalı" miqrasiya insanların müntəzəm qarşılaşdığı və sıxlıqla müşahidə olunan hərəkətlilik kimi diqqət çəkir.

Ərəb dilində tərəddüd edən mənasında işlənən – "mütərəddid" miqrasiya və bu prosesdə iştirak edən miqrantların müntəzəm hərəkətliliyi sanki yekdil qərar verəməkdə çətinlik çəkən şəxs kimi gedib, yenidən geri qayıdan insana bənzədilir. İngilis dilində – "pendulum migration", rus dilində isə «маятниковая миграция» adlanır və eyni konteksdə istifadə olunur. Burada söhbət yaxın məntəqələr arasında, hər gün miqrantların evdən çıxıb işə getməsi və geri qayıtması, nəticə etibarilə bunun intensiv xarakter alması ilə izah olunur. Yəni, davamlı gediş və gəlişlər "tərəddüd edənlə" yanaşı, həmçinin "rəqs edən" insana da bənzədilmişdir.

Miqrasiyanın mövcud növü müasir beynəlxalq münasibətlər tarixində, eləcə də regional və dövlətdaxili sosial-iqtisadi, siyasi proseslərdə zəif tədqiq olunan istiqamətlərdən biri olub, müasir insanın həyatında az əhəmiyyət daşımır. Qeyd olunan miqrasiya növünə yaxın – sinonim təşkil edən digər formalar – "qərarsız", "get-gəl", "kəfkirli" miqrasiyalar da eyni mahiyyət kəsb edir və gündəlik gediş və gəlişlərlə müşühidə olunur. Göründüyü kimi, göstərilən terminlər "mütərddid", yəni "rəqqas" miqrasiyanın qeyd olunan sinonimlərini əhatə edir. Burada "kəfkirli", saat kəfkirinə bənzədilir və davamlı hərəkətdədir, gündəlik işə gediş və geri dönüşü simvolizə edir. Ümumilikdə "mütərəddid" miqrasiya növü yaxın sərhədlər arasında da baş verməkdədir. Hər gün işə gediş və geri qayıdış uzun müddətli olsa da, bəzi hallarda həftəlik də baş verə bilər.

Hər gün yenilənən, innovativ xarakter daşıyan qlobal prosesdə, qeyd olunan miqrasiya növü bununla məhdudlaşmır. Həmçinin, miqrasiya proseslərində – regional və beynəlxalq hərəkətlilik müşühidə olunur. Bu hərəkətlilik və sıxlığı tədqiq etmək, ölçmək üçün digər miqrasiya formalarını da nəzərdən keçirmək tədqiqat işinin elmi-nəzəri, eləcə də praktik əhəmiyyətinin dəyərləndirilməsində faydalı ola bilər.

Bu məqsədlə, miqrasiya növlərinin aşağıdakı kimi sistemləşdirilməsi geniş yayılmışdır:

- daxili;
- xarici;
- bir istiqamətli (geri dönməyi nəzərdə tutmayan);
- daimi yaşayış yerinə emiqrasiya;
- müvəqqəti (qayıdışı nəzərdə tutan);
- uzunmüddətli (6 aydan çox müddətdə davam edən);
- mövsümi;
- köçərilik və ziyarət məqsədli;
- epizodik;
- tranzit (sərhədyanı);
- məcburi (obyektdən asılı olmayan səbəblərdən baş verən miqrasiya);

- əks istiqamətli, dönüş məqsədli miqrasiya (özünün və ya dövlətin təşəbbüsü ilə dönüşü nəzərdə tutan miqrasiya növü) [2, s. 14-15]. Dünyanın dördbir tərəfində müşahidə olunan miqrasiya müasir dövrdə miqyasını genişləndirmiş, nəzəri və praktik aspektlərinin öyrənilməsi onun növlərinin meydana çıxmasını şərtləndirmişdir. Yuxarıda sadalanan miqrasiya növləri tədqiqat obyektinə çevrilən hazırki mövzu kimi, praktikada geniş yayılmış və əmək miqrasiyasına qoşulmuş miqrantların bütün hallarda proseslərdə uzun və qısa müddətli yaxından iştirakı, daimi gediş və qayıdışı nəzərdə tutan "mütərəddid", "rəqqas" miqrasiyanın baş verdiyini təsdiq edir. Haqqında tədqiqat apardığımız miqrasiyanın dövlətlərin daxili siyasətində daha çox rast gəlindiyini göstərməklə, sosial-iqtisadi və milli təhlükəsizlik kimi məsələlər də mövcud şəraitdə elmi diskussiyaya yol açır. Miqrasiyaların çeşidliliyi onların xarakterini üzə çıxarır və nisbətən böyük şəhərlərdə və ya qəsəbələrdə fərqli təzahür etdiyini əks etdirir.

Mövzu ilə bağlı tarixi, sosioloji, siyasi, iqtisadi, hüquqi araşdırmalara XX əsrin ortalarından daha çox müraciət olunmağa başlanmış, əsasən sovet dövründə məsələyə elmi-nəzəri yanaşma tələb edən tədqiqatlar yerinə yetirilmişdir. Tədqiqatın tarixşünaslığına nəzər salaraq, mövzuya yaxın araşdırma aparan alimlərin gəldikləri qənaətlər və elmi nəticələr "mütərəddid", "rəqqas" miqrasiya proseslərinin göstərilən nəzəri aspektlərinin və praktik əhəmiyyətinin aydınlaşması baxımından mühüm rola malikdir.

"Mütərəddid" əhali miqrasiyasının öyrənilməsinə həsr olunmuş ilk əsərlər sovet dövründə 1960-cı illərin ikinci yarısı, 1970-ci illərin əvvəllərində ortaya çıxmışdır. Beləliklə, "mütərəddid" miqrasiyanın iqtisadi və demoqrafik aspektləri A.G.Vişnevski, M.V.Kurman, V.N.Lixoded, İ.M.Taborisskayanın əsərlərində öz əksini tapmışdır. Nəqliyyat və məskunlaşmanın qarşılıqlı təsirindəki rolu G.A.Goltz və İ.G.Hasdan tərəfindən göstərilmişdir. "Mütərəddid" yaxud "rəqqas miqrasiya"nın coğrafi aspektləri, SSRİ-nin şəhər məskunlaşma sisteminin formalaşması prosesləri B.S.Xorev və A.X.Markso tərəfindən araşdırılmışdır [25, s. 57]. Göründüyü kimi yaxın tarixdə mövzu ilə bağlı yerinə yetirilən tədqiqatlar yaşadığımız müasir dövrdə də aktuallığını qorumuş, mövcud sahəyə maraq azalmamışdır. Burada azərbaycanlı alimlərdən Ş.Muradov, M.Sərdarov, F.Abdullayev, E.Nəsibov, A.Aslanova, türk tədqiqatçılardan S.Çağlayan, E.Dağaşan, K.Kolbaşı, eləcədə ingilis dilli gənc tədqiqatçılardan H.Haas, Y.Voloshyna və digərlərinin əsərlərində "mütərəddid", "rəqqas" miqrasiya ilə bağlı qeydlərə rast gəlinir.

Aparılan tədqiqatlarda tarixi, coğrafi, sosial, iqtisadi, demoqrafik, şəhər məskunlaşması və nəqliyyat aspektləri əsas alınmışdır. Sovet məkanında, ardınca postsovet və müstəqil dövlətlər birliyi dövründə, həmçinin regional və beynəlxlaq səviyyədə "mütərəddid" miqrasiya istiqamətində aparılan tədqiqatlar mövcud miqrasiya növü ilə bağlı yeni məlumatların və tədqiqatların yaranmasına müsbət təsir göstərir. Tarixi, sosial-iqtisadi və demoqrafik aspektlərin öyrənilməsi bizə imkan verir ki, "mütərəddid" miqrasiya daha yaxşı anlaşılsın, mövcud kontekstdə müxtəlif sahələri tədqiq edən alimlərin fikirlərinin elmi diskussiya üçün faydalı olması

müəyyən olunsun.

1. Mütərəddid miqrasiyanın məntəqələrarası hərəkətliliyi

1.1 Problemlər və təhlil: "Mütərəddid" miqrasiyanın məntəqələrarası hərəkətliliyinin və ya gediş-gəlişlər zamanı əhali sıxlığının ölçülməsi müntəzəm baş verən prosesdə yarana biləcək problemlərin, həmçinin mövzu ilə bağlı digər məsələlərin təhlilinin vacib olduğunu göstərir. Burada nəzəri aspektlər və praktik əhəmiyyətin şəhər, qəsəbə, kənd, yaxud sərhədlərarası hərəkətlilikdə fərqli şəkildə təzahür etdiyi məlum olur. Belə olduğu təqdirdə, miqrasiya proseslərində demoqrafik faktor, yəni əhalinin say tərkibinin nəzərə alınması tədqiqata işıq tutur.

Miqrasiya demoqrafik inkişafın ən vacib amilidir. Müasir dünyada kəmiyyət və keyfiyyət parametrlərində, habelə miqrasiya axınlarının istiqamətindəki vektorlarda dəyişikliklər, onların yeni növlərinin meydana çıxması (elmi kadrların, korporativ menecerlərin miqrasiyası) müşahidə olunur [22, s. 206]. Demoqrafiya və miqrasiya bir-birilə vəhdət təşkil edir. Əhalinin sıxlığı ilə müşahidə olunan gediş və gəlişlər daxili miqrasiya proseslərində "mütərəddid", yəni "rəqqas" miqrasiyanın müsbət inkişaf tendensiyası kimi tədqiqatçıların diqqətindən yayınmır. Burada həm kəmiyyət var, həm də keyfiyyət. Keyfiyyət isə birincidən hər zaman öndə gəlməklə miqrasiya növlərinin meydana çıxmasına kömək edir. Əhalinin say tərkibinin öyrənilməsi paralel olraq iş yerləri arasında intensiv hal alan hərəkətin sürətini müəyyənləşdirir.

"Mütərəddid" əmək miqrasiyası əhalinin bir bölgədən digərinə gündəlik gediş-gəlişini təmsil etməklə, hazırda meqapolislərin – ona bitişik ərazi ilə birlikdə böyük şəhərlərin iqtisadiyyatında mühüm rol oynayır ki, bu da mövcud tədqiqatın aktuallığını göstərir [28, s. 99]. Dünyanın bütün şəhərlərində, xüsusilə böyük paytaxtlarda "mütərəddid" miqrasiya yaşanır. Şəhərlərə bitişik ərzazi və qəsəbələrdə də nisbətən zəif proseslər davam edir və bu hal hər gün gediş və gəlişlərlə, izdihamla müşahidə olunur.

Tədqiqat işində təklif olunan yanaşmanın əsası, bütövlükdə əmək ehtiyatlarının hərəkətliliyi və xüsusilə "rəqqas" miqrasiyanın üç əsas amil ilə müəyyən edildiyi fərziyyəsidir: işçilərin gəlir səviyyəsi (əmək haqqı); yaşayış dəyəri; yaşayış və iş yerləri arasında səyahət xərcləri [29, s. 151]. Hər üç amil – "mütərəddid", yəni "rəqqas" miqrasiyanın sürətlənməsində mühüm rol oynayan detallardır. Burada hərəkətliliyin gündəlik və qısa məsafələr arasında baş verməsi prosesin məsuliyyətini və infrastruktur əhəmiyyətini artırır. Əməkçi miqrantların gəlir səviyyəsinin ölçülməsi, həyatına verilən dəyər və səyahət xərclərinin hesablanması kimi sosial-iqtisadi faktorlar əslində dövlətlərin iqtisadi siyasətində yer alan əsas məqamlardan biri kimi ölkələrə görə dəyişir və hər dəfə yeni tədqiqatların aparılmasını zəruri edir.

Məlum olduğu kimi, miqrasiya müxtəlif elmlər tərəfindən qəbul olunur. Onun yalnız iqtisadi səbəblərlə deyil, həm də insanlara xas olan tələbat, maraq və səylərlə də sıx bağlı olduğu aşkar olunur [8, s. 6]. Müxtəlif səbəblər, insanların miqrasiya proseslərinə qatılaraq, həyat şəraitinin yaxşılaşmasına xidmət etməklə, sosial təminatının yüksəlməsinə əlverişli şərait yaradır. Mövcud miqrasiyanın elmi-nəzəri əsaslarının işlənib hazırlanması bu baxımdan diqqət çəkir. İnsanların gündəlik

rastlaşdıqları əmək miqrasiyası Azərbaycan tarixşünaslığında az müraciət olunan "mütərəddid" yaxud "rəqqas" formalı miqrasiyanın öyrənilməsini zəruri edir. Hər gün yüz minlərlə insanın yaxından iştirak etdiyi həmin miqrasiya növü miqrant hüquqlarının müdafiəsi və dövlətlərin sosial-iqtisadi siyasətinin miqrasiya proseslərinə müsbət təsirini və inkişaf dinamikasının tədqiqini aktuallaşdırır.

1.2 Prosesdə şəhər, qəsəbələrin iştirakı və infrastruktur vasitələr: Prosesdə əsasən böyük şəhərlər, qəsəbələr və ya kəndlərin iştirakı nəqliyyat vasitələrinin hərəkəti ilə birbaşa bağlıdır. Bu onu göstərir ki, "rəqqas" miqrasiya həyat tərzi kimi miqrantların sosial-iqtisadi təminatının qarantına çevrilmişdir. Şəhər və qəsəbələr arasında hərəkətliliyin ölçülməsində "məntəqələrarası məsafələr"lə yanaşı digər məsələlər – böyük sənaye şəhərlərinin, qəsəbə və kəndlərin yaxınlığı, infrastrukturun əlverişli olub olmaması, iqlim şəraiti, hətta miqrantların aldıqları məvacib ümui prosesə müsbət yaxud mənfi təsir göstərən amillərdir.

Miqrasiya, sözün geniş mənasında, həm ölkə daxilində, həm də xaricində insanların hər hansı bir hərəkəti ilə əlaqələndirilir. Bu konsepsiyanın daha dar mənasında – "mütərəddid", "rəqqas" miqrasiya böyük şəhərlərin şəhər zonalarına yaxşı məlumdur. Bu tip miqrasiya insanların bir yaşayış məntəqəsindən digərinə, bir qayda olaraq, iş və ya təhsil almaq və geri qayıtmaq üçün müntəzəm hərəkətdir. Bu məcburi proses şəhər və qəsəbə arasındakı fərqin hər zamankından daha çox hiss olunduğu vaxt, urbanizasiya dövründə inkişaf edir. Son illərdə nəqliyyat infrastrukturunun inkişafı və avtomobilizasiya "rəqqas" miqrasiyanın sürətlə genişlənməsinə kömək edir [23, s. 186]. Ölkənin daxilində olduğu kimi xaricində müşühidə olunan sosial-iqtisadi proseslərdə "rəqqas" miqrasiyanın daha çox meqapolislərdə hiss olunması iş yerlərinin həmin məkanlarda daha geniş yayılması ilə izah olunur. Burada böyük qəsəbələr də miqrantları özünə cəlb edir. Müntəzəm hərəkətlilik özü ilə yanaşı problemlər də gətirə bilər. Bunların başında dayanan başlıca amil nəqliyyat vasitələrindən istifadə ilə bağlıdır. İctimai və özəl nəqliyyat sisteminin mövcud miqrasiya proseslərində yaxından iştirakı problemin tədqiq olunmasında az əhəmiyyət daşımır. Məcburi və ya insanların qazanc üçün məcbur olduqları gediş və gəlişlər böyük şəhərlərdə iqtisadi inkişafın göstəricisi kimi mövzuya marağı bir qədər də artırır.

Daxili miqrasiya prosesi dedikdə, insanların eyni ölkənin hüdudları daxilində bir ərazidən digər əraziyə köçməsi başa düşülür. Bu miqrasiyanın kənd (kənd-şəhər), şəhər (şəhər-kənd), şəhərlərarası (şəhər-şəhər) və kəndlərarası (kənd-kənd) istiqamətlərini fərqləndirirlər [6, s. 9]. Bu baxımdan, ölkə sərhədləri daxilində müşahidə olunan "rəqqas" miqrasiyanın geniş sosial imkanları var. Kənd və şəhər, yaxud kənd və qəsəbə arasında baş verən "mütərəddid" miqrasiya populyarlıq və demoqrafik baxımdan fərqli yanaşmalar tələb edir. Bu, xarici, beynəlxalq miqrasiya amilinə nisbətlə daha geniş yayılmış və daha əlçatan proses kimi insanların həyatında vacib yer tutur. Xarici miqrasiyada insanlar ölkə sərhədlərini aşaraq hər gün yeni problemlərlə qarşılaşa bilər, tərəddüd edən insana bənzər bu miqrasiya növü maddi baxımdan yüksək gəlirlərin əldə olunmasına müsbət təsir göstərmək iqtidarındadır.

Hər bir şəhər, şəhərətrafı yaşayış məntəqələri ilə əhatə olunmuşdur, onların arasında daimi qarşılıqlı rabitə mövcuddur. Bu qarşılıqlı əlaqənin vacib amillərindən biri insanların yaşayış məntəqələri arasında hərəkət etməsidir. Bu hərəkətlər həm mərkəzdənqaçma, həm də mərkəzəqaçma aspektlərinə malikdir [16, s. 22]. Miqrantın yaşayış yeri ilə iş yeri arasında məsafənin ölçülməsi şəhər aqlomerasiyasında vacib rol oynayır. Adətən mərkəzə üz tutmağa meyilli olan iş axtaranlar hər iki hal ilə qarşılaşmış olurlar. Burada nəqliyyat vasitələrinin əl çatan olması, ictimai və özəl nəqliyyatın fəaliyyəti də müntəzəm miqrasiya proseslərinə təsir edən mühüm amillərdən biridir.

Hal-hazırda şəhərlərin böyüməsi prosesi və onsuzda geniş olan meqapolislərin inkişafı müşahidə olunur. Bu səbəbdən, şəhər aqlomerasiyasının formalaşması və inkişafına təsir göstərən amillərdən biri "rəqqas" miqrasiyanın populyarlaşması ilə bağlıdır [20, s. 25]. Bəzən insanlar fərqində olmadan "rəqqas" miqrasiya proseslərinə qoşulur, haqqında bilgiləri olmasa da qazanclarından məmnun qaldıqları halda hərəkətliliyi artırmış olurlar, beləliklə də "qərarsız qalan" insana bənzər gedişgəlişlər sürətlənmiş olur. Proses şəhərlərin hər gün böyüməsi, dolub boşalması, şəhər aqlomerasiyasının inkişafı və tədricən formalaşması ilə nəticələnir.

Yaşayış məntəqələri arasında qarşılıqlı əlaqələrin yüksək intensivliyi, xarici sərhədləri və daxili quruluşu, buna görə də sosial məkanın birliyi ilə xarakterizə olunan məskunlaşma forması kimi şəhər aqlomerasiyalarının tədqiqi, bir qayda olaraq, yaşayış məntəqələrinin aqlomerasiyaya daxil olma meyarlarının müəyyənləşdirilməsi probleminə təsir göstərir [21, s. 205]. "Rəqqas" yaxud "mütərəddid" miqrasiya proseslərində həssas məqamlardan biri yaşayış məntəqələri arasında mövcud olan məsafələrin ölçülməsi və intensivliyi ilə bağlıdır. Bu səbəbdən şəhər məskunlaşmasında şəhər aqlomerasiyasının formalaşma imkanlarının nəzərdən keçirilməsi tədqiqat işində diqqət yetirilən vacib detallardan biridir. Bütün hallarda insan və nəqliyyat axınları, hərəkətliliyin sıxlaşması məsələyə müsbət və mənfi çalarlar qatmış olur.

2. Təcrübələr və nəzəriyyələr

2.1 Regional və beynəlxalq təcrübənin öyrənilməsi: Ümumilikdə mövcud sahədə regional və beynəlxalq təcrübələrin öyrənilməsi miqrasiya idarəçiliyinin tənzimlənməsi, qanunvericiliyin təkmilləşməsi baxımından zəruridir. Həmin sahədə əsasən iqtisadi və demokratik tərəqqi yolu keçmiş dövlətlərin miqrasiya siyasəti, daxildə proseslərin nizamlanmasında əldə olunan müsbət nəticələr pozitiv nümunə təşkil edə bilər. Konkret olaraq – Almaniya, İsveçrə, Norveç və digər Qərbi Avropa dövlətlərinin innovativ miqrasiya idarəçiliyi sahəsində qazandığı mütərəqqi təcrübə miqrasiyanın "mütərəddid", "rəqqas" formasının tənzimlənməsində inkişaf etmiş miqrasiya qanunvericiliklərinə diqqət yetirilməsini vacib edir.

Miqrasiya proseslərinin tənzimlənməsində beynəlxalq təcrübənin öyrənilməsi və ondan istifadə olunması ölkə daxilində miqrasiya qaydalarının beynəlxalq standartlara uyğun təkmilləşdirilməsini, iki və çoxtərəfli əsaslarda beynəlxalq müqavilələrin bağlanmasını, digər ölkələrlə qarşılıqlı şəkildə miqrasiya siyasətinin

uzlaşdırılmasını şərtləndirir [5, s. 185]. Miqrasiya beynəlxalq hərəkətlilik və bundan irəli gələn qlobal proses olduğu üçün beynəlxalq nəzəri aspektlərinin öyrənilməsi, həmçinin mübadiləsi illər ötdükcə daha da aktuallaşır. Burada beynəlxalq təcrübə əsasən inkişaf etmiş dövlətlərin gündəlik, sosial-siyasi həyatında və ya qanunvericilik əsasında öyrənilməsinin nə qədər vacib olduğunu göstərir. Qarşılıqlı təcrübə proqramlarının işlənib hazırlanması, müqavilələrin bağlanması miqrasiya sahəsində əməkdaşlıq üçün yeni üfüqlər açmış olur. Bu baxımdan, "mütərəddid" miqrasiya sahəsində əməkdaşlıq əlqələrinin yaradılması mövzunun həyatın bütün sahələrdə diqqət mərkəzində olduğunu deməyə əsas verir. Təhlükəsiz və innovativ miqrasiya idarəçiliyinə nail olmaq üçün diplomatik münasibətlərdə miqrasiyanın istənilən sahəsi ilə bağlı uzlaşma əldə etmək olar. Bu, "mütərəddid", "rəqqas" miqrasiya proseslərinin idarə olunmasında da mümkündür.

Beynəlxalq miqrasiyanın əsasında iqtisadi, milli-mədəni və sosial amillər durur. İqtisadi amillər dedikdə, daha yüksək əməkhaqqı, həyat şəraiti, yaşayış səviyyəsi və s. nəzərdə tutulur [1, s. 21]. "Rəqqas" miqrasiya növündə sosial-iqtisadi amillər daxili proseslərdə olduğu kimi beynəlxalq aləmdə də diqqət çəkən mühüm məqamlardan biridir. Xarici təcrübənin öyrənilməsi və idarəçiliyi sahəsində həyata keçirilən əməkdaşlıq əlaqələri, imzalanan sənədlər dialoq və müzakirələr zamanı yeni yolların yaranması, eləcə də dövlətlərarası münasibətlərin tənzimlənməsi kimi vacib məqamlarda üzə çıxır.

Beynəlxalq statistikada mövsümi miqrantlara "qısamüddətli immiqrantlar və emiqrantlar", "miqrant-mövsümi işçi" və s. terminləri uyğundur. Mütərəddid (kəfkirli) miqrasiya (məkik, sərhədyanı) – bir ölkədən digərinə və əksinə gündəlik, nadir hallarda həftəlik gedib-gəlməni əks etdirir [4, s. 178]. Miqrasiya ilə bağlı beynəlxalq statistik göstəricilər, immiqrant və emiqrantların proseslərdə iştirakı mövsümi və daimi olmaqla müxtəlif mərhələlər şəklində izah oluna bilər. Həmçinin, az təsadüf olunan həftəlik əmək miqrasiyaları sosial sferanın genişlənməsində az əhəmiyyət daşımır. Burada mütərəddid miqrasiyanın eynisi olan "kəfkirli" miqrasiya tədqiqatlarda az rast gəlinən məqamlardandır.

Qloballaşma şəraitində miqrasiyanın miqyasında əhəmiyyətli artım olmuşdur və nəticədə miqrasiya proseslərinin yeni formaları yaranmışdır. İqtisadi amillərin miqrasiya axınlarını əvvəlcədən müəyyən etməsinə baxmayaraq, qloballaşma şəraitində miqrasiyanın sosial amillərinin əhəmiyyəti artır. Qlobal miqrasiyalar müasir dünya dövlətlərinin sosial-iqtisadi və demoqrafik inkişafında mühüm amilə çevrilmişdir [9, s. 140]. XXI əsrdə hələdə davam etməkdə olna qlobal dəyişikliklərin miqrasiyalara təsiri qaçılmazdır. Bir sıra səbəblərdən, genişlənən və getdikcə intensivləşən əmək miqrasiyasının və onun tərkib hissəsi olan "rəqqas" miqrasiyanın gətirdiyi sosial-iqtisadi üstünlüklər onu deməyə əsas verir ki, həmin proses gündəlik olduğu üçün daha çox müzakirələrə səbəb yaradır. Beynəlxalq və regional təşkilatların qloballaşma və miqrasiya potensialının yüksəlməsi ilə bağlı məsələlərə birmənalı yanaşmaması isə mövcud sahədə fikir ayrılıqlarının yaranmasına səbəb yaratmaqla, paralel olaraq sosial üstünlüyünün əsas alındığını bəyan edir.

Yeni minilliyin başlanğıcında beynəlxalq inkişaf agentlikləri və hökumətlər inkişafı təşviq etmək üçün kasıb ölkələrdə miqrasiya və pul köçürmələri potensialını kəşf etdilər [15, s. 8]. Miqrasiya və pul köçürmələri beynəlxalq, həmçinin regional səviyyədə aparılan tədqiqatlarda ön sıralarda gəlir. Pul köçürmələrinə təşviq, onlayn qaydaların tətbiq olunması əmək miqrasiyasının genişlənməsinə müsbət təsir göstərir. Burada miqrasiyanın "rəqqas" formasının iştirakı məsələsi də ciddi əhəmiyyət daşıyır. Həm daxildə bölgələr arasında, həm də xaricdə ölkələr arasında baş tutan valyuta mübadiləsi bu baxımdan miqrasiyaların bütün növlərində populyarlıq qazanır.

Beynəlxalq əmək miqrasiyasının artması ilə sosial müavinətlərin köçürülməsinin mümkünlüyü məsələsi bütün dünyada getdikcə daha çox əhəmiyyət kəsb edir və BMT-nin Davamlı İnkişaf Məqsədləri arasında performans göstəricilərindən biri olaraq tanınır [13, s. 525]. Əmək miqrasiyası və əməkçi miqrantlar məsələsinə beynəlxalq təşkilatların hesabatlarında geniş yer verirlir. Burada BMT ilk sırada gəlir və ona bağlı olaraq fəaliyyət göstərən beynəlxalq, regional miqrasiya qurumları müntəzəm miqrasiya prosesi, gediş-gəlişli gündəlik işlərdə çalışan insanların sosial müavinətlərinin köçürülməsi kimi problemləri də gündəmə gətirməyə davam edirlər.

2.2 Prosesdə miqrasiya-miqrant münasibətləri: Miqrasiya-miqrant münasibətləri tədqiqatın yerinə yetirilməsində əsas aspektlərdən biri kimi "mütərəddid" miqrasiya proseslərinin nəzəri təhlilinin əhəmiyyətinə diqqət çəkir.

Bu baxımdan, qeyd olunan – "miqrasiya və miqrant münasibətləri" mürəkkəb və başa düşülməsi çətin, açıq bir reallıqdır. Bununla birlikdə, müasir dövrdə baş verən qloballaşma fenomeni bu qarşılıqlı münasibətlərə də təsir edir və onları daha da inkişaf etdirir. Sözügedən mürəkkəb quruluş miqrasiya tədqiqatları üçün ən böyük maneədir. Bu məqam həm də dəqiq analiz əldə etmək üçün, təhlil edilməsi lazım olan miqrasiya ilə miqrantlar arasında fərq qoyaraq tədqiqatları özəlləşdirməkdir [11, s. 68]. Miqrasiya və bu proseslərdə iştirak edən miqrantların istər xarici ölkələrdə, istərsə də daxildə bölgələrarası "rəqqas" miqrasiyada iştirakı müsbət dəyərləndirilir. Lakin, burada problemlərin yaranması və onların həlli yollarının tapılması kimi məsələlər, tarixi və sosioloji aspektdən yanaşılan mövzunun müasir dünyada daha aktual səsləndiyini əks etdirir. Mövcud miqrasiya proseslərində iştirak edən miqrantların hüquqlarının qorunması ümumi qaydalara daxil olmaqla insan üzərində məsuliyyət yaratmış olur. Miqrasiya yarandığı gündən mürəkkəb quruluş kimi tanınmış və xüsusilə onun "rəqqas" formasının öyrənilməsinin əhəmiyyətini artırmışdır.

Miqrasiya sosial varlığın bir çox aspektlərinə birbaşa təsir etdiyi kimi, bu da öz mürəkkəb dinamikasını inkişaf etdirən bir prosesdir. Beləliklə, miqrasiya tədqiqatları mahiyyət etibarilə fənlərarası xarakter daşıyır. Sosiologiya, ədəbiyyat, siyasi elm, tarix, iqtisadiyyat, coğrafiya, demoqrafiya, psixologiya və hüquq kimi elmlər miqrasiya ilə əlaqəli sahələrdir [12, s. 738]. Geniş mənada miqrasiya demək olar ki, əksər elm sahələrini əhatə etməklə miqrasiya-miqrant münasibətlərinin müzakirəsinə

yol açır. Lakin tarixi keçmişdə, yaxud yaxın tarixdə baş verən miqrasiya prosesləri və onun "rəqqas" formasının öyrənilməsi konkret sahəyə aid olmaqla məsələyə individual yanaşma tələb etmək iqtidarındadır. İnsan sosial və tarixi bilgiləri mənimsəmiş varlıq olaraq, davamlı yer dəyişir, yüksək təmin olunmuş həyat uğrunda mübarizə aparır. Miqyasından asılı olmayaraq insanlar müntəzəm miqrasiya etməyə meyillidirlər. Bu, ölkənin daxilində olduğu kimi, xaricində də müşahidə olunur və miqrasiya-miqrant münasibətlərinin öyrənilməsində rol oynayır.

Məlumdur ki, əhali içərisində baş verən demoqrafik proselərin və miqrasiyanın kortəbii şəkil alması böyük problemlərlə (aclıq, "demoqrafik partlayış" və i.a.) müşayiət olunur. Bunların idarə edilə bilməsi, demoqrafik proseslərin tənzimlənməsi, müvafiq əhali siyasətinin hazırlanmasının əhəmiyyətini daha da artırır [3, s. 3-4]. Əhalinin sıxlığı ilə müşühidə olunan və demoqrafik baxımdan tənzimlənməsində fasilələr yaranan, yaxud idarə olunması məhdudlaşan miqrasiya proseslərində həyata keçirilən siyasət düzgün qurulmalıdır. Qeyd olunan məsələ, miqrasiya-miqrant münasibətlərilə birbaşa bağlı olub analitik təhlil tələb edən mühüm amildir. Belə olduğu halda, neqativ halların tez bir zamanda aradan qaldırılmasına, aclıq və demoqrafik aşınma kimi ciddi problemlərin tənzimlənməsinə nail olmaq mümkündür.

Qərarsız (gəl-get) miqrasiya insanların gündəlik və ya həftəlik olaraq hərəkət etdikləri və yaşayış məntəqələrinə (müxtəlif yaşayış məntəqələri arasında) getdikləri və qayıtdıqları proseslərə aiddir. Şəhər və kənd əhalisinin əksəriyyətini əhatə edən bu miqrasiya forması da son yarım əsrdə olduqca sıxlaşmışdır. BMT-nin statistik qaydalarına görə, yeni gəldikləri yerdə 6 aydan çox yaşayan insanlar miqrant olaraq qəbul edilirlər. Tədqiqatçıların əksəriyyətinin görüşünə görə, turistlərin, tətilə çıxanların, ziyarət edənlərin və digər məqsədli səfərlərin miqrasiyaya daxil edilməsi mübahisəlidir. Çünki bu vəziyyətdə söhbət daimi yaşayış yerinin dəyişdirilməsindən getmir. "Gəl-get" miqrasiyası həm də ölkə iqtisadiyyatının ən müxtəlif peşələri, ixtisasları və əmək ehtiyatları hesabına tələbatın ödənilməsi arasında tarazlığın təmin edilməsində mühüm rol oynayır [10, s. 25]. Adları çəkilən sahələr miqrasiya-miqrant əlaqələrinin qurulması və inkişafı baxımından fayda verə biləcək nəzəri aspektlərin müəyyən olunmasına əhəmiyyətli təsir göstərir. Bu səbəbdən, əmək miqrasiyasnda "rəqqas" növünün geniş imkanları və prosesin gündəlik, müntəzəm və hərəkətli şəkildə baş verməsi, şəhər və kəndlərdə sıxlaşma probleminin həllinə diqqət çəkir. Burada müxtəlif kateqoriyadan olan insanların iştirakı tədqiqatın maraq dairəsini bir qədər də artırmış olur. Onların arasında yuxarıda qeyd olunan kəsimlərin miqrant hesab olunması kimi məsələlər isə fərqli tədqiqatın mövzusu kimi qarşımıza çıxır. Son illər "mütərəddid", "qərarsız", digər adıyla "rəqqas" miqrasiya növünün araşdırılması zamanı yaşayış məntəqələri arasında sıxlığın artmasına gətirib çıxaran bəzi məqamlar tədqiqatçıların diqqətindən yayınmamışdır. Bu isə öz növbəsində miqrasiya-miqrant münasibətlərinin tənzimlənməsində mürəkəb vəziyyətin hər an yarana biləcəyindən xəbər verir. Əhali sayının yüksəlməsi, nəticədə demoqrafik inkişafın genişlənməsi, sözü gedən miqrasiya proseslərində təmsil olunanların

azalmasına yox, əksinə çoxalmasına şərait yaratmışdır. İqtisadi inkişafın gətirdiyi müsbət məqamlardan biri kimi, "rəqqas" miqrasiya proseslərində insanların iştirak səviyyəsi də xeyli artmışdır.

Qeyd etmək lazımdır ki, miqrasiya prosesinin, xüsusilə daxili miqrasiyanın tədqiq edilməsinə dair ümumi qəbul edilmiş vahid metodoloji üsul yoxdur. Burada müxtəlif metodlardan – beynəlxalq təcrübədə metodologiyanın hazırlanmasında insanların hərəkətliliyi, ev təsərrüfatları, kommunal xidmətlərə dair göstəricilər (işıq, qaz, su abonentləri və s.), nəqliyyat vasitələrində istifadə olunan kart, talon və s.dən istifadə olunur [7, s. 209]. Demək olar ki, ictimai elmlər sahəsində tədqiqat üsulları vahid metodologiyaya əsaslanmır. Bizim tədqiq etdiyimiz mövzu daha çox beynəlxalq münasibətlər tarixi və sosiologiya yönümlü olduğu üçün, burada yaxın tarixdə baş verən miqrasiya prosesləri, dövlətlərin miqrasiya siyasəti, miqrasiyaların sosial-iqtisadi, nəzəri aspektlərinin ölçülməsi kimi məsələlər ön plana çıxır.

Sadalanan məqamlar miqrasiya-miqrant münasibətlərinə də təsirsiz ötüşmür. Elmi-nəzəri metod, həyata keçirilən tədqiqatın əsas qayəsi olub, müasir dövrdə miqrasiyanın "rəqqas" formasının araşdırılmasının əhəmiyyət kəsb etdiyini deməyə əsas verir. Belə olduğu təqdirdə, miqrasiya-miqrant münasibətlərinin müsbət inkişaf dinamikası müəyyənləşmiş olur. Dövlət müstəqilliyinin bərpasından ötən 30 ildən yuxarı vaxt ərzində Azərbaycanda formalaşan miqrasiya qanunvericiliyi mövcud sahədə həyata keçirilən siyasətin düzgün qurulduğunu əks etdirir və problemə elmi-analitik yanaşmanın zəruri olduğunu təsdiq edir. Hərəkətlilik, infrastruktur şəraitin üstünlüyü, xərclər və s. sosial məsələlər "rəqqas" miqrasiya növünün regionda geniş əks səda tapdığını göstərir və qeyd olunan münasibətləri tənzimləyir.

Daxili miqrasiya hərəkətləri müasir Azərbaycan Respublikasının siyasi və sosial həyatına təsir edən ən mühüm amillərdən biridir. [14, s. 467]. Azərbaycan dövlətinin miqrasiya sahəsində əldə etdiyi müsbət nümunələr daxili miqrasiya proseslərinin yüksələn xətlə inkişafı ilə bağlıdır. Təkmilləşməkdə olan və mütərəqqi təcrübəni əsaslandıran miqrasiya qanunvericiliyi emiqrasiya və immiqrasiyaların, eləcə də paytaxt Bakıda "rəqqas" miqrasiyanın sosial və ictimai-siyasi həyata pozitiv təsir göstərdiyini əks etdirir. Miqrasiya Azərbaycanda 44 günlük Vətən müharibəsindən sonra yeni tərəqqi fazasına keçid almış, mövcud sahədə beynəlxalq əməkdaşlıq əlaqələri genişlənmişdir. Nəticədə miqrasiya-miqrant münasibətləri pozitiv inkişaf yolu tutmuş və milli təcrübə xarici ölkələrin diqqətini çəkmişdir.

Yaşayış yerindən kənarda, gündəlik yaşayış yerinə qayıtmaqla məşğul olmağı əhatə edən "mütərəddid" gündəlik əmək miqrasiyası, şəhərdə işləyən şəhərətrafı sakinlər, rayon mərkəzlərində əmək fəaliyyəti ilə məşğul olan kənd sakinləri və s. üçün ən xarakterikdir [17, s. 153]. Bu faktor miqrasiya-miqrant münasibətlərinin öyrənilməsində nəzəri əhəmiyyət kəsb edir. Şəhərətrafı, qəsəbə və kəndlərdən hər gün eyni qısa məsafələrdə işə gələn və geri qayıdan miqrantların hərəkəti, bəzi hallarda sıxlığın bəlli saatlarda tıxaclara səbəb yaradacaq qədər yüksəlməsi, artıq həyatın bir parçası, həyat tərzi kimi qiymətləndirilə bilər. Bu xarakterik hərəkətlilik insanların sosiallaşmasına müsbət təsir göstərir və mövcud münasibətlərin

möhkəmlənməsinə gətirib çıxarır.

Xarici mənbələrdə cazibə modeli "mütərəddid" miqrasiyasının qiymətləndirilməsi metodlarından biri hesab olunur, burada parametrlər iki yaşayış məntəqəsi arasındakı məsafə, onlarda yaşayan əhalinin sayı və bu yaşayış məntəqələrinin iqtisadiyyatındakı əmək haqqının miqdarıdır [19, s. 632-633]. Burada cazibə modeli dedikdə, insanların bəlli miqdarda, diqqət çəkəcək maaşla təminatının cazib görünməsi, eləcə də qısa məsafədə gediş-gəlişlərin adi hal alması ilə izah oluna bilər. Həmin metod miqrasiya-miqrant münasibətlərinə pozitiv təsir göstərmək, insanlara seçim etmək imkanı verməklə, davamlı diqqət çəkir və təmin olunmuş həyat uğrunda mübarizədə "mütərəddid" və ya "rəqqas" miqrasiya növünün sosial faydalı olduğunu göstərir.

Vətəndaşların əmək fəaliyyəti ilə əlaqəli yaşayış məntəqələri arasında müntəzəm hərəkəti ("mütərəddid" əmək miqrasiyası) yerli və regional əmək bazarlarında əmək ehtiyatlarının yenidən bölüşdürülməsinə səbəb olur. Əmək miqrasiyası mürəkkəb bir sosial-iqtisadi prosesdir, öyrənilməsi fənlərarası yanaşma tələb edir [18, s. 86]. Əmək ehtiyatlarının bölünməsi məsələsi miqrantlar arasında bir rəqabər mühiti formalaşdırır. Buna isə "mütərəddid" miqrasiya formasında tez-tez rast gəlinir. Belə olduğu təqdirdə, əmək miqrasiyası həm mürəkkəb həm də anlaşılması mümkün olan proses kimi sosial əhəmiyyətini hər gün bir qədər də artırmış olur. Şərh olunan istiqamətlər heç şübhəsiz ki, miqrasiya-miqrant münasibətlərində öz əksini tapır.

Tələb və təklif nəzəriyyəsi, əsasən əmək haqqı fərqliliyinin təsiri ilə vasitəçilik nəzəriyyəsi miqrasiyanın öyrənilməsində klassik bir ənənədir. Klassik yanaşma, artan iqtisadiyyatda "mütərəddid" əmək miqrasiyasının, ümumiyyətlə daxili miqrasiya kimi, işçi qüvvəsinə tələb və təklifdəki coğrafi fərqlərdən qaynaqlandığını göstərir [24, s. 41]. Burada coğrafi fərqlər müxtəlif cür təzahür edir. Əslində problemə klassik məntiqlə yanaşma əmək haqqı fərqliliyindən irəli gələn vasitəçilik nəzəriyyəsinin öyrənilməsini zəruri edir. Həmçinin, artan iqtisadi tələblər və sosial dəyişikliklər "rəqqas" miqrasiyanın gündəlik miqrant həyatında başlıca rol oynadığını göstərir. Bu isə təhlili gərəkən miqrasiya-miqrant münasibətlərinin tənzimlənməsi yollarını üzə çıxarır.

"Mütərəddid" əmək miqrantları işçilərin olduqca həssas bir kateqoriyasıdır, çünki hərəkətlərinin xüsusiyyətləri ilə əlaqədar onlara xüsusi zəmanət və əmək hüquqlarının qorunmasını təmin edə biləcək xüsusi normativ hüquqi aktlar yoxdur [26, s. 53]. Gündəlik qazanc əldə etmək üçün hər gün eyni yolla məsafə qət edərək geri qayıtmaq miqrantları həssas davranmağa sövq edir. Həmin məqam tədqiq olunan miqrasiya-miqrant münasibətlərində daha tez nəzərə çarpır. Bu, diqqətin cəmləşməsi baxımından insanın nə istədiyini bilməsi, eləcə də bu yolda yarana biləcək sosial problemlərin həlli yollarının tapılması kimi anlaşıla bilər. "Rəqqas" miqrasiya ilə bağlı hüquqi baxımdan konkret qanunların olmaması, prosesdə iştirak edən miqrantların sosial müdafiəsinin təmin olunmaması kimi dəyişik tendensiyaları da bərabərində gətirmiş olur. Həmçinin, belə həssas kateqoriyaya daxil olan insanların

psixoloji dəstəklərinin məhdud olması da onların həssaslığını bir qədər qabarıq göstərir. Nəticədə hər iki tərəf – miqrasiya və miqrant münasibətləri zəifləmiş olur.

Nəticə. Miqrasiya proseslərinin intensiv hal aldığı XXI əsr mövcud sahədə reallıqların gətirdiyi bəzi məsələlərin təhlilini vacib etmişdir. Regional, beynəlxalq və dövlətlərin sərhədləri daxilində baş verən miqrasiya və onun nəticələri müsbət, həmçinin mənfi tendensiyalarla müşühidə olunur. Tədqiq olunan mövzu isə miqrasiyanın sadəcə bir probleminin araşdırılmasına, əhalinin "mütərəddid", yəni "rəqqas" formalı miqrasiyada iştirakı və faktoloji materiallar əsasında analitik analizinin aparılmasına həsr olunmuşdur.

Bir qədər də dəqiq ifadə etsək, tədqiqat işi "rəqqas" əmək miqrasiyasından bəhs edir. Bununla yanaşı əhalinin bir hissəsinin – digər adıyla "mütərəddid" əmək miqrantlarının iş və yaşayış yerləri arasında, bir-birindən xeyli məsafədə və müxtəlif təsərrüfat subyektlərində (bölgələr, şəhərlər, qəsəbələr, obyektlər və s.) gündəlik servis hərəkəti kimi başa düşülür [27, s. 63]. Məsafələrin uzun və qısa oluşu bu prosesdə iştirak edən miqrantların hərəkətliliyinin müəyyən olunmasında böyük rola malikdir. Bu, özünü qazanılan əmək haqlarında da göstərməklə əhalinin "mütərəddid" miqrasiyada yaxından iştirakına manea yaratmır. Əksinə dünyanın hər yerində, hər gün yüzminlərlə insan məntəqələrarası məsafələrlə işə gedir və geri qayıdır, aktiv miqrasiya proseslərinə təkan verirlər. Miqrantların hərəkətində böyük şəhərlərin, bölgə, qəsəbə və kəndlərin coğrafi göstəriciləri, nəqliyyat vasitələrinin rahat və problemsiz irəliləməsi və s. məsələlər sonda mövzu ilə bağlı nəticəyə gəlməyə əsas verir.

Bu baxımdan, tədqiqatçılar "rəqqas" formasına bənzər miqrasiyanı bütövlükdə "ərazi-əhali hərəkəti fenomeni" kimi şərh edirlər, sabit xarakter daşıyır və miqrantların yaşayış yerinin dəyişilməsi ilə əlaqəli deyil [30, s. 58]. Elm və texnologiyaların sürətlə genişləndiyi XXI əsrdə, təməlində tarixi proseslər dayanan sosial-iqtisadi faktorlar miqrasiyanın "mütərəddid", "rəqqas" formasının intensiv hal aldığını göstərir. Mövcud miqrasiyanın təhlilində ilk anlaşılan məsələ – ərazi, əhali və hərəkət məhfumlarıdır. Həmin prosesi canlı tutan hər gün baş verən hərəkətlilik və dinamik xarakter daşımasıdır. Bu səbəbdən, təbii şəraitdə baş verən reallıq sabit şəkildə öz varlığını davam etdirir. Gediş-gəlişlər sırasında əhalinin sıxlığı isə aydan-aya dəyişir, gəlirlərin azalması və ya yüksəlməsi ilə nəticələnir.

Həyatın bütün sahələrində çatışmazlıqlar olduğu kimi belə həssas mövzuda da miqrantlar gündəlik problemlərlə qarşılaşmalı olurlar. Lakin "mütərəddid" miqrasiya ilə bağlı qanunların olmamaması, əksinə ümumilikdə miqrasiya qanunvericiliyinin inkişaf etdirilməsi Azərbaycan daxil olmaqla sosial-iqtisadi, hüquqi-demokratik tərəqqi yolu tutmuş dövlətlərin miqrasiya siyasətinin təkmilləşməsinə manea yaratmır. Həmin miqrasiya formasının inkişafında əməkçi miqrantlar kütləvi hərəkət etdiyi üçün, nizamlanmasında da maraqlı olub, prosesin axarının sabit qalmasına cəhd etməli və milli təhlükəsizliyə fərd olaraq öz dəstəklərini ifadə etməlidirlər. Əslində milli təhlükəsizliyin qorunması hər birimizin vətəndaş olaraq konstitusion öhdəliklərimizdən biridir.

Məqalə boyu təhlil olunan müsbət məqamları, tədqiqat işinin elmi yeniliyini və nəticəsini aşağıdakı kimi konkret müddəalarla göstərmək olar:

❖ XXI əsrdə sərhədləri aşan miqrasiya və onun inkişaf dinamikasında əhəmiyyət daşıyan nəzəri aspektlər əhalinin "mütərəddid" miqrasıyada iştirak edərək həyat uğrunda mübarizəsinin davam etdiyini əks etdirir;

❖ Miqrasiya proseslərinin inkişafı, müsbət və mənfi çalarları ilə bağlı aparılan araşdırmalar müasir dövrdə hərəkətliliyin yüksəlməsindən xəbər verir;

❖ Bu səbəbdən, miqrasiyanın bütün forma və növləri problemin araşdırılmasının aktual olduğunu təsdiq edir;

❖ "Mütərəddid" yaxud "rəqqas" miqrasiyanın insan həyatında oynadığı rol, nəzəri aspektlərinin təhlili və praktik əhəmiyyətinin üzə çıxarılması, mövzunun gələcək prioritetlərinin müəyyən olunmasında mühüm yer tutur;

❖ Regional, beynəlxalq və dövlətlərin sərhədləri daxilində hər gün baş verən "rəqqas" miqrasiya müsbət inkişafa səbəb yaratmaqla yanaşı, özü ilə bərabər bəzi problemlər də gətirir;

❖ Belə olduğu təqdirdə coğrafi, hərəkətlilik, sıxlıq, nəqliyyat və infrastruktur kimi məsələlərin nizamlanması mövcud miqrasiya prosesinin sürətlənməsinə gətirib çıxarar;

❖ Müasir beynəlxlaq münasibətlər tarixində miqrasiyanın əhəmiyyətli parçası kimi qarşımıza çıxan "mütərəddid", "rəqqas" miqrasiya tədqiqatçıların üzərində az çalışdığı mövzulardan biri kimi populyarlığını davam etdirir;

❖ Prosesdə şəhər, qəsəbə və kəndlərin iştirakı, nəqliyyat vasitələrinin dəyərləndirilməsi – hərəkətliliyin və məntəqələrarası məsafələrin öçülməsinin tədqiqatda bir metod olduğunu əks etdirir;

❖ Digər adlarıya – "qərarsız", "get-gəl", "kəfkirli" olub eyni mahiyyət daşıyan mövcud miqrasiya tədqiqatçıların diqqətini çəkir və gələcəkdə yeni əsərlərin yazılacağını göstərir;

❖ Yerli və xarici tədqiqatçıların əsərlərində mövzu ilə bağlı və ya mövzuya yaxın məsələlər tədqiqat obyektinə çevrilən miqrasiya növünün müasir çağırışlar etdiyini bəyan edir;

❖ Mövzu ilə bağlı Azərbaycan Respublikasının miqrasiya siyasətində müşahidə olunan mütərəqqi idarəçilik sistemi, bu baxımdan tədqiqata işıq tutan məqamlardan biridir;

❖ Bununla yanaşı, qonşu ölkələrin mövcud sahədə – xüsusilə miqrasiya idarəçiliyində innovativ nəticələr qazanan Qərbi Avropanın öndə gələn dövlətlərinin müsbət nəticələri tədqiqatın nəzəri aspektlərinin təhlilində vacib əhəmiyyət daşıyır.

Ədəbiyyat

1. Abdullayev, F.N. XXI əsrin geosiyasətində yeni paradiqma: Miqrasiya (mahiyyəti, çağırışlar, təhdidlər). – Bakı: Elm, – 2016, – 416 s.
2. Aslanova, A.F. Azərbaycanda miqrasiya proseslərinin iqtisadi-demoqrafik aspektləri / iqt. üzrə fəls. dok. diss. / – Bakı, 2017, – 148 s.

3. Həsənova, L.L. Azərbaycan əhalisi XX yüzilliyin ikinci yarısında (sovet siyahıyaalmaları əsasında). – Bakı: BDU, – 2003, – 302 s.
4. İzahlı statistika terminləri lüğəti / redaktor-əlaqələndirici A.H.Mansurov. – Bakı: Səda nəşriyyatı, – 2010, – 720 s.
5. Quliyeva, S.Z. Azərbaycanda miqrasiyanın səbəb və istiqamətləri (XIX-XX əsrlər) // – Bakı: Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, – 2010, № 2, – s. 181-187.
6. Qəribova, E. Rüstəmova, R. Azərbaycanda daxili miqrasiya və urbanizasiyanın sosial aspektləri. Analitik hesabat // – Bakı: "Azərbaycan barometri", – Fevral 2020, № 2(6),– 72 s.
7. Qəribova, E. Azərbaycanda urbanizasiya və daxili miqrasiya prosesinin kəsişməsinin sosial və demoqrafik mənzərəsi // – Bakı: "Sosial tədqiqatlar", – 2021, Elmi analitik jurnal, № 1, – s. 209-220.
8. "Sovetlər dönəmində miqrasiya problemi təhlükəli, yasaq məsələ sayılıb". Hüquqi İslahatlara Yardım Mərkəzinin rəhbəri Fətəli Abdullayev: "Bəşər tarixi "Böyük insan köçü" kimi tanınan hadisələrlə zəngindir" // "525-ci qəzet". – 2009, 15 aprel. – s. 6.
9. Yaqubova, N. Miqrasiya prosesləri qloballaşma şəraitində // – Bakı: "Sivilizasiya" jurnalı, – 2014, № 1, – s. 135-145.
10. Abdulayev, F.N. Modern dönemde uluslararası göç ve göç politikası. – İstanbul: Karmen Matbaacılık, – 2015, – 246 s.
11. Çağlayan, S. Göç kuramları, göç ve göçmen ilişkisi // – Muğla Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi (İLKE), – Güz 2006, Sayı 17, – s. 67-91.
12. Dağaşan, E., Aydın S. Geçmişten günümüze göç / editör O.Köse. – Samsun: İlkadım, – 2017, – 1456 s.
13. Kolbaşı, K.M. Ulusötesi hayatlar: Hollandada yaşayan türk vatandaşlarının sosyal güvenligi // – Türkiyat Araştırmaları Enstitüsü Dergisi. TAED-72, – 2021, – s. 523-539.
14. Yusifsoy, A. Özsüer, E. Azerbaycan'da İç Göçe Maruz Kalmış İnsanların Geri Dönüş Motivasyonunun Değerlendirilmesi // – VAKANÜVİS Uluslararası Tarih Araştırmaları Dergisi, – Bahar 2022, Yıl 7, Sayı 1, – s. 467-510.
15. Haas, H. The Migration and Development Pendulum: A Critical View on Research and Policy // – International Migration, – 2012,Vol. 50 (3), – p. 8-25.
16. Voloshyna, Y. Theoretical and methodical bases of pendulum migrations and analysis of the sources of intra-regional flows of population movements (for example, transcarpathion region, Ukraine) // – International Journal VALLIS AUREA, – December 2015, Volume 1, № 2. Croatia, – p. 21-31.
17. Акишина, М.Л., Фанненштиль А.А. Формирование балансов трудовых ресурсов сельской местности в условиях роста маятниковой трудовой миграции // – Вестник Алтайского государственного аграрного университета, – 2013, № 11 (109), – с. 152-156.

18. Бугаев, М.А. Маятниковые миграции на рынке труда Санкт-Петербурга и Ленинградской области // – Вестник Санкт-Петербургского Университета, – 2015, Сер. 5, Вып. 4., – с. 86-116.
19. Бедрина, Е.Б. Козлова, О.А., Ишуков А. А. Методические вопросы оценки маятниковой миграции населения // – Ars Administrandi (Искусство управления), – 2018. Том 10, № 4, – с. 631-648.
20. Дорофеева, Л.А. Касьянова, Е.А. Маятниковая миграция населения в Красноярской городской агломерации (на примере населенных пунктов Емельяновского района) // – Известия Иркутского государственного университета, – 2017, Серия Науки о Земле. Т. 20, – с. 25-42.
21. Дьячкова, П.А. Мосиенко, Н.Л. Анализ маятниковых миграций в городской агломерации: социо-логические опросы и большие данные // – Мир экономики и управления, – 2021, Т. 21, № 4, – с. 205-228.
22. Забродская, Н.Г. Хацкевич, Г.А. Петриковец, Т.А. Маятниковая миграция и развитие белорусских агломераций // – Бизнес. Инновации. Экономика – 2021, № 5, – с. 205-214.
23. Комарова, А.Д. Маятниковые миграции населения и стратегия устойчивого развития периферийных пригородных районов г. Хабаровска // – Инновации и инвестиции, – 2022, № 1, – с. 186-195.
24. Мальцева, Е.С. Региональный рынок труда и проблема маятниковой трудовой миграции // – Вестник Череповецкого государственного университета, – 2012, № 3, Т. 1, – с. 41-44.
25. Михалев, Н.А. Маятниковая миграция в городах РСФСР по данным Всесоюзной переписи населения 1970 г.: размеры, потоки, структура // – Вестник Томского государственного университета. История, – 2022, № 80, – с. 56-65.
26. Соколова, А.А. Масштабы маятниковой трудовой миграции в регионах России // – Проблемы развития территории, – 2023, Т. 27, № 4, – с. 52-70.
27. Шитова, Ю.Ю. Маятниковая трудовая миграция в Московской области: методический и прикладной анализ // – Экономический журнал ВШЭ, – 2006, № 1, – с. 63-79.
28. Шитова, Ю.Ю. Влияние рынка жилья на маятниковую трудовую миграцию в Московской агломерации //– ЭНСР, – 2009 № 4 (47), – с. 99-107.
29. Шитова, Ю.Ю., Шитова, Ю.А. Анализ долгосрочной динамики факторов, определяющих маятниковую трудовую миграцию в Подмосковье // – Труд и занятость, – 2016, № 4 (157), – с. 151-162.
30. Шкарет, А.А. Социологический подход к изучению состояния маятниковой миграции на территории города Белгорода и соседних районов // – Научный результат. Технологии бизнеса и сервиса, – 2020, Т. 6, № 3, – с. 57-68.

Məqalənin redaksiyaya daxilolma tarixi: 01.01.2025
Məqalənin çapa qəbul olunma tarixi: 10.01.2025

UOT: 39
Əfqan QASIMZADƏ
Daxili İşlər Nazirliyinin Polis Akademiyası,
polis polkovnik-leytenantı, tarix üzrə fəlsəfə doktoru
efqan.qasimov@mail.ru
DOI: doi.org/10.61226/12.2.2023/20251.9

QƏBƏLƏNİN XI-XIII ƏSRLƏRƏ AİD MEHTƏRƏ TİPLİ ŞİRSİZ SAXSI QABLARI VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

Xülasə: Məqalədə Qəbələnin XI-XIII əsrlərə aid şirsiz keramikası içərisində ayrıca qrup kimi fərqləndirilən mehtərə tipli qablardan bəhs edilir. Giriş hissədə Azərbaycanda saxsı qabların meydana gəlməsi, əhalinin tələbatı və istehsalın daha rahat başa gəlməsinə əsasən keramika istehsalının tədricən inkişaf etməsi, saxsı məmulatının şirsiz və şirli qablar olmaqla iki qrupa ayrılması göstərilmişdir. Əsas hissədə Qədim Qəbələ şəhər yerinin Qala ərazisindən aşkar edilmiş mehtərə tipli qab nümunələri ətraflı təhlil edilmiş, eyni zamanda bu tip qabların forma və təyinatı barədə mütəxəssislərin fikirlərinə də istinad edilmişdir. Nümunələr təqdim edilərkən onların forması, naxışlanması və qabların ölçülərinin verilməsi diqqət mərkəzində saxlanılmışdır. Nəticə hissədə isə nümunələrin təhlili və öyrənilməsinə əsasən XI-XIII əsrlərdə Qəbələdə mehtərə tipli qabların hazırlanma texnologiyasının, xüsusilə qabların üzərinin naxışlanmasının daha da təkmilləşməsi qənaətinə gəlinmişdir.

Açar sözlər: Azərbaycan, Qəbələ, Qala ərazisi, saxsı qablar, mehtərə tipli qablar, istehsal texnologiyası.

Afgan GASIMZADE

MEHTERA-TYPE UNGLAZED POTTERY VESSELS OF GABALA OF THE 11TH-13TH CENTURIES AND THEIR CHARACTERISTICS

Abstract: The article discusses mehtera-type vessels, which are distinguished as a separate group among the unglazed ceramics of Gabala of the 11th-13th centuries. The introductory part shows the emergence of pottery vessels in Azerbaijan, the gradual development of ceramic production based on the demand of the population and the more affordable cost of production, and the division of pottery into two groups: unglazed and glazed vessels. The main part analyzes in detail the samples of mehtera-type vessels discovered in the Gala area of the ancient Gabala city, and also refers to the opinions of experts on the shape and purpose of this type of vessels. While presenting the samples, their shape, patterning and dimensions of the vessels were kept in the center of attention. In the conclusion, based on the analysis and study of the samples, it was concluded that the technology of making

mehtera-type vessels in Gabala, especially the patterning on the vessels, was further improved in the 11th-13th centuries.

Keywords: Azerbaijan, Gabala, Gala area, pottery, flask-type vessels, production technology.

Афган ГАСЫМЗАДЕ

НЕГЛАЗУРОВАННЫЕ КЕРАМИЧЕСКИЕ СОСУДЫ ТИПА МЕХТЕРА ИЗ ГАБАЛЫ, ОТНОСЯЩИЕСЯ К XI-XIII ВВ. И ИХ ХАРАКТЕРИСТИКИ

Абстракт: В статье рассматриваются сосуды типа мехтер, которые выделяются в отдельную группу среди неполивной керамики Габалы XI–XIII вв. Во введении показано возникновение гончарного дела в Азербайджане, постепенное развитие керамического производства, основанное на спросе населения и более доступной стоимости продукции, а также разделение гончарных изделий на две группы: неполивную и поливную керамику. В основной части подробно анализируются образцы сосудов типа мехтер, обнаруженные в местности Гала древнего города Габала, а также приводятся мнения специалистов о форме и назначении этого типа сосудов. При предъявлении образцов обращалось внимание на их форму, рисунок и размеры. В заключении на основе анализа и изучения образцов сделан вывод о том, что технология изготовления сосудов типа мехтер, особенно узорчатость сосудов, получила дальнейшее совершенствование в Габале в XI-XIII вв.

Ключевые слова: Азербайджан, Габала, местность Гала, гончарное дело, сосуды типа мехтеры, технология производства.

Giriş. Məlumdur ki, Azərbaycanda saxsı qabların istehsalına hələ Neolit dövründən etibarən başlanılmışdır. Bu dövrdə "Neolit inqilabı" adlandırılan və cəmiyyətin inkişafında bir sıra mühüm dəyişiklikləri özündə ehtiva edən yeniliklərdən biri də saxsı qabların istehsalı idi. Hansı ki, istehsalı və istifadəsi daha rahat və əlverişli olduğuna görə uzun bir tarixi dövr ərzində məişətdə istifadə olunan qablar məhz keramikadan ibarət olmuşdur. Tarixi inkişaf prosesində dulusçuluq daha da inkişaf etmiş, insanların tələbatına görə bu qabların məişətdə rolu daha da artmış, forması və naxışlanması etibarilə daha mükəmməl saxsı qablar hazırlanmışdır.

Saxsı qabların istehsalı üçün başlıca şərt gil ehtiyatının olmasıdır. Qəbələ və ətraf ərazilərdə gil ehtiyatlarının bol olması keramika istehsalını şərtləndirən əsas səbəblərdən biridir. Ümumiyyətlə, hazırlanma texnikasına görə orta əsrlər dövrünün saxsı məmulatı şirsiz və şirli saxsı qablar olmaqla iki qrupa ayrılır [1, s.123]. Şirsiz saxsı qabların hazırlanma prosesi gilin tədarük edilməsindən başlayaraq qabların bişirilmə prosesinə qədər bir neçə mərhələdən keçir. Təsadüfi deyildir ki, Qəbələdə aparılan arxeoloji tədqiqatlar zamanı dulus kürələrinə aid nümunələr də aşkar edilmişdir. İstehsal prosesinin hər bir mərhələsi özünəməxsus səciyyəvi

xüsusiyyətlərə malik olmaqla, ustadan xüsusi diqqət tələb edir. Usta tərəfindən saxsı qabların hazırlanması zamanı müəyyən qaydalara riayət edilməli idi ki, bu da istehsal texnologiyasının özünəməxsus şərtlərindən biridir. Professor Qafar Cəbiyev qeyd edir ki, yerli ustalarla aparılmış söhbətlərə əsasən məlum olur ki, dulusçuluq mövsümi xarakter daşıyan sənət sahəsidir. Belə ki, yazdan etibarən başlayan mövsüm payızın ortalarında başa çatır. Hazırlıq dövründə isə gil qabları hazırlamaq və bişirmək üçün emalatxana və kürələr sahmana salınır [4, s.27].

Göründüyü kimi keramika istehsalı ilə məşğul olan ustalar dövrün istehsal texnikası və texnologiyasını bilməklə yanaşı, eyni zamanda saxsı qabların istehsalını da müvafiq mövsümdə həyata keçirməlidirlər. Qabların hazırlanması üçün mövsümə gəldikdə isə şübhəsiz ilin soyuq fəsli qabların hazırlanması üçün əlverişsiz bir dövrdür. Soyuq aylarda, xüsusilə qış fəslində saxsı qabların hazırlanması onların donmasına, nəticədə isə çatlamasına və qırılmasına səbəb ola bilər.

Qeyd olunan anoloji əlamətlər şirli saxsı qablar üçün də xarakterikdir. Lakin, şirsiz saxsı qablardan fərqli olaraq şirli qabların hazırlanması, o cümlədən onların səthinin şirlənməsi, müxtəlif təsvirlərlə naxışlanması da dulusçu ustalardan xüsusi bacarıq və səriştə tələb edir.

Mətn. Məlumdur ki, Qəbələdə ilk arxeoloji tədqiqatlara başlanılmasından bir əsrə yaxın müddət keçir. Qədim Qəbələ şəhər yerində müxtəlif illərdə görkəmli arxeoloqlar Qara Əhmədov, Saleh Qazıyev, İlyas Babayev, Qafar Cəbiyev, Firidun Qədirov və digərləri tərəfindən arxeoloji qazıntılar aparılmışdır. Hal-hazırda da professor Qafar Cəbiyevin rəhbərliyi ilə şəhərin Qala ərazisində arxeoloji tədqiqatlar davam etdirilməkdədir. Tədqiqatlar zamanı Qala ərazisindən istər şirsiz, istərsə də şirli keramika və inşaat keramikasına aid çoxlu sayda nümunələr aşkar olunaraq öyrənilmişdir.

Nümunələrin təhlili bir daha onu göstərir ki, XI-XIII əsrlərdə Qəbələdə digər sahələrlə yanaşı, sənətkarlıq daha da inkişaf etmişdir. Hansı ki, bu dövrü eyni zamanda nəinki şirsiz saxsı qabların istehsalında, bütövlükdə keramika istehsalında intibah dövrü kimi də səciyyələndirmək olar. Belə ki, bəhs olunan xronoloji çərçivəyə aid şirsiz saxsı qablar həm çoxçeşidli olması, həm də ilk orta əsrlərə nisbətən daha mükəmməl hazırlanması və naxışlanması ilə diqqəti cəlb edir.

Arxeoloji qazıntılar zamanı Qədim Qəbələ şəhər yerinin Qala ərazisindən aşkar olunmuş müxtəlif çeşidli şirsiz saxsı qabların bir qrupunu da mehtərə tipli qablar təşkil edir. Nümunələrə keçməzdən əvvəl mehtərə tipli qabların istehsalına başlanılması, forması və təyinatı ilə bağlı mütəxəssislərin fikirlərinə nəzər salaq.

Xatırladaq ki, bu qabların istehsalı hələ antik dövrdən başlayaraq tədricən genişlənmişdir. Təsadüfi deyildir ki, arxeoloq Fazil Osmanovun Ağsu ərazisində apardığı arxeoloji tədqiqatlar zamanı mehtərələrə aid xeyli nümunələr aşkar edilmiş və arxeoloq həmin qabları əsərlərində matralar deyə qeyd etmişdir. F.Osmanov həmçinin, qəbir abidələri və yaşayış yerlərindən müəyyən edilmiş şirsiz saxsı qabları təsnif edərkən matraları da xüsusi bir qrup kimi fərqləndirmişdir.

Belə ki, su tutumu 2-3 litrə qədər olan bu qablardan kənd təsərrüfatının

müxtəlif sahələri ilə məşğul olan insanlar içməli su götürmək üçün istifadə etmişlər ki, bu da qabların həm istifadəsi, həm də daşınmasının daha rahat olmasının göstəricilərindən biridir. Arxeoloq Fazil Osmanov matra tipli qabların yerə qoyulduqda üfüqi vəziyyətdə dayandığını, bunun da onları qayışa bağlayıb gəzdirmək məqsədi daşıdığını, eyni zamanda iri həcmli matra nümunələrinin də müəyyən edildiyini və matralara əsasən qəbir abidələrində rast gəlindiyini göstərir [9, s.75, 84-85].

Professor Qafar Cəbiyev bu tip qablara aid çoxlu sayda naxışlı nümunələrin tapıldığını, Qəbələnin basma naxışlı mehtərələrindən xüsusilə, XIV əsrin ortalarınadək istifadə olunduğunu, son orta əsrlərə aid mehtərə tipli qabları isə üzərindəki naxışlarına əsasən iki qrupa ayırmışdır ki, bunlar da cızma və basma naxışlı mehtərələrdən ibarətdir. Q.Cəbiyevin qənaətinə görə XII-XIII əsrlərdən başlayaraq bu tip qabların istehsalının artması monqol təsiri ilə əlaqədar olub. Köçəri maldarların arana-yaylağa gedərkən səfər qabları olan mehtərələrə ehtiyacın daha çox olması, eyni zamanda Orta Asiya ərazisində də mehtərələrə bənzər qabların geniş istifadə ənənəsinin də olması bu barədə düşünməyə əsas verir [3, s.73-75]. Arxeoloq eyni zamanda qabların üzərinin ornamentlərlə bəzədilməsi nöqteyi-nəzərindən süfrəyə şərab, yaxud şirələrin qoyulmasında da bu tip qablardan istifadə olunması ehtimalını da istisna etmir [2, s.247].

Professor Arif Mustafayev isə səfər məqsədi güdən diskvari matraları kəmərbəstə və yük matrası olmaqla iki yerə ayırmış, eyni zamanda bu tip qablara antik dövrün saxsı məmulatı arasında rast gəlinməsini, onların bəzilərinin qısa lüləyə malik olmasını, matraların meydana gəlməsində isə Azərbaycanda hərb sanətinin inkişafının da mühüm rol oynadığını vurğulamışdır [8, s.93]. Göründüyü kimi professor A.Mustafayev matraları iki qrupa ayırmışdır ki, bu da əsas etibarilə onların həcmi və daşınması nöqteyi-nəzərindən fərqləndirilmişdir.

Tədqiqatçı Kamil Fərhadoğlu isə Köhnə Bakı ərazisindən XII-XV əsrlərə aid zəngin basma naxışlı mehtərələrin aşkar olunduğunu, küplərdən fərqli olaraq mehtərələrin xarici qabarıq hissəsini naxışlamaq üçün qəliblərin kiçik diametrli olduğunu göstərir [6, s.220].

Qeyd edək ki, antik dövrdə qəbirlərə inventar olaraq saxsı qablar qoyulurdusa, artıq inkişaf etmiş orta əsrlər dövründə bu hallar müşahidə edilməmişdir. Belə ki, mehtərə tipli qabların orta əsrlərdə artıq yaşayış yerlərindən aşkara çıxarılması bunu deməyə əsas verir. XI-XIII əsrlərə aid Qəbələ şəhər yerinin Qala ərazisindən aşkar olunmuş mehtərələr bunun bariz nümunəsidir.

İnkişaf etmiş orta əsrlər dövründə, xüsusilə XI-XIII əsrlərdə Qəbələnin digər şirsiz saxsı məmulatında olduğu kimi mehtərə tipli qabların da hazırlanma texnika və texnologiyası daha da təkmilləşmiş və qabların üzəri daha mükəmməl naxışlanmışdır. Qəbələ şəhər yerinin Qala ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş və inkişaf etmiş orta əsrlər dövrünə aid olan mehtərə tipli qab nümunələri bu tip qabların həm forması, həm də naxışlanması barədə aydın təsəvvür yaradır. Nümunələr içərisində həm üfüqi, həm də dik vəziyyətdə olan nümunələr

vardır. Qabların üzərinə isə basma və cızma naxışlar işlənmişdir.

Odur ki, Qəbələnin XI-XIII əsrlər dövrünə aid mehtərə tipli qabları barədə ətraflı məlumat vermək üçün Qala ərazisində aparılan arxeoloji tədqiqatlar zamanı aşkar olunmuş bir neçə nümunəni təqdim etməyi məqsədəuyğun hesab edirik.



Şəkil 1

Təqdim olunan mehtərə tipli qab nümunəsi (Şəkil 1) Qəbələ şəhər yerinin Qala ərazisində 2011-2012-ci illərin arxeoloji tədqiqatları zamanı aşkar olunmuş və XI-XII əsrlərə aiddir. Açıq sarımtıl rəngdə olan qabın hündürlüyü 16 sm, diametri isə 10 sm təşkil edir [7, s.250]. Göründüyü kimi bu mehtərə tipli qab yastı oturacaqlı olmaqla, oturacaqdan başlayaraq ağız hissəyə doğru tədricən enlənən yumru gövdəyə, lüləyə və iki qulpa malikdir. Qabın lülək hissəsi qırılmış vəziyyətdə aşkar olunsa da, lakin lüləyin yeri aydın seçilir. Lülək qulpların qarşı tərəfində olmaqla mərkəz hissədə yerləşir.

Qeyd edək ki, mehtərə tipli qablar üçün ümumi xarakterik forma oxşarlığı olsa da, lakin bəzən nümunələrin içərisində həm qulp hissəsi, həm də lülək hissəsi fərqlənən qablara da rast gəlinmişdir. Şəkil 2-də təqdim olunan nümunəni buna misal göstərmək olar. Qala ərazisindən aşkar olunan bu nümunə XI-XII əsrlərə aid olmaqla nisbətən böyük ölçüyə malikdir.



Şəkil 2

Qabın oturacağının diametri 12 sm, ağzının diametri və hündürlüyü isə 19 sm-dir [7, s.248]. Boğaz hissəyə bir-birinin altında yerləşməklə qabın çevrəsi boyu bir neçə cızıq çəkilmiş, qabın ağız hissəsi kənarlara doğru qatlanmış, qulp isə Şəkil 1-də təqdim olunan nümunədən fərqli olaraq oval formalıdır.

Qala ərazisində müəyyən edilmiş digər bir mehtərə tipli şirsiz qab nümunəsi dövr etibarilə XIII əsrə aiddir (Şəkil 3). Boğaz hissəyə qalın xətlərlə qabın çevrəsi boyu iki ədəd cızıq çəkilib. Ölçülərə gəldikdə isə qabın oturacağının diametri 8,5 sm, hündürlüyü və ağzının diametri isə 16 sm təşkil edir [7, s.291].



Şəkil 3

Qab ağız, qulp və lülək hissəsi qırılmış vəziyyətdə aşkar olunsa da, lakin mövcud formaya əsasən onu təyin etmək mümkündür. Nümunə yastı oturacaqlı olmaqla, enli gövdəyə və qulaqvari formalı qulpa malikdir.



Şəkil 4

XI-XIII əsrlərə aid olan nümunələri Qəbələnin son orta əsrlər dövrünə aid olan mehtərə tipli qabları ilə müqayisə etdikdə görürük ki, qabların formasında anoloji oxşarlıq izlənilir. Təqdim olunan nümunə (Şəkil 4) XIV əsrə aiddir və Qala ərazisində müəyyən edilib. Qabın ölçülərinə gəldikdə, hündürlüyü 20 sm, oturacağının diametri isə 9,5 sm-dir. [7, s. 308]. Qab yastı oturacaqlı olmaqla yuxarı hissəsinə iki ədəd qulp qoyulmuş, qulpların qarşı tərəfində, orta hissədə olmaqla nisbətən uzun lüləyi vardır. Əvvəlki nümunələrdə olduğu kimi gövdənin yuxarı hissəsində qabın çevrəsi boyu cızıqqlar çəkilmiş, qabın forması və qulpu oxşar olmaqla sadə görünüşə malikdir.

Nümunədən də göründüyü kimi Qəbələnin son orta əsrlər dövrünə aid olan mehtərə tipli qabları da oxşar formaya malikdir. Bu da dulusçu ustaların həmin qabları hazırlayarkən anoloji istehsal texnologiyasını davam etdirdiklərini göstərir. Xatırladaq ki, professor Qafar Cəbiyev Qəbələnin XIV-XVII əsrlərə aid materialları əsasında "Azərbaycanın son orta əsrlər saxsı məmulatı"nı ətraflı tədqiq etmiş, digər saxsı qablarla yanaşı, mehtətə tipli qabların da əsas səciyyəvi xüsusiyyətlərini qeyd etməyi diqqətdən kənarda qoymamışdır. Arxeoloq 1981-ci ildə Qəbələ qazıntılarından müəyyən edilmiş mehtərə tipli qablardan birinin hündürlüyü və gövdəsinin böyük diametrinin19 sm təşkil etdiyini göstərir ki, bu da qabların forması ilə yanaşı, ölçüsünə görə də oxşar olduqlarının bariz nümunəsidir [3, s.73].

Qəbələnin XI-XIII əsrlərə aid mehtərə tipli qabları özündən əvvəlki və sonrakı dövrün nümunələrindən daha cəlbedici və səliqəli basma naxışlarla işlənilməsi ilə seçilir. Qala ərazisində son illərdə aparılmış arxeoloji qazıntılar zamanı zəngin basma naxışlarla işlənmiş nümunələr də müəyyən edilmişdir.



Şəkil 5

Şəkil 4-də təqdim edilmiş mehtərə tipli qab nümunəsi əvvəlki nümunələrdən fərqli olaraq naxışlanması ilə diqqəti cəlb edir. Bu nümunə də Qala ərazisində aparılan arxeoloji qazıntılar zamanı aşkar edilib və XI-XII əsrlərə aiddir. Nümunənin hündürlüyü 18 sm, oturacağının diametri 8 sm, ağzının diametri isə 5 sm-dir [7, s.249]. Qab hazırlanma formasına əsasən üfüqi vəziyyətdə dayanır, yan tərəfdə olmaqla iki ədəd qulpa malikdir. Nümunənin gövdə hissəsi səliqəli naxışlanması ilə seçilir. Belə ki, qabın gövdəsinə hər iki qulpun arasında və mərkəzdə olmaqla düymə şəkilli basma naxış işlənmiş, eyni zamanda həm naxışın üzərinə, həm də ətrafına cızma xətlərlə yarpaq şəkilli gülə oxşayan naxışlar əlavə edilmiş, basma naxışın ətrafına nisbətən kənar hissədə olmaqla dairəvi formalı cızıqlar çəkilmişdir. Boğaz hissə isə nisbətən dar olmaqla qabın ağzına doğru tədricən enlənir, ağız hissə kənarlara doğru nisbətən qatlanmış formadadır ki, bu da suyun qabdan daha asan və itkisiz tökülməsini asanlaşdırmaqla yanaşı, qaba fərqli, daha cəlbedici bir forma vermiş olur.

Qeyd edək ki, Qəbələnin XI-XIII əsrlərə aid basma naxışlı mehtərə tipli qabları ilə Bakının eyni dövrə aid olan mehtərələri arasında oxşarlıq aydın müşahidə

edilir. Xatırladaq ki, 1964-cü ildə Qız qalasının yaxınlığında yerləşən ibadətgahdan basma naxışlı mehtərə nümunəsi aşkar edilmişdir. Tədqiqatçı Kamil Fərhadoğlu həmin qabın naxışlanmasını xarakterizə edərkən göstərir ki, mehtərə nümunəsinin üzərinə qəlib vasitəsilə vurulmuş diskinin naxışı 8 şöbəyə bölünməklə dairədən ibarətdir. Bununla yanaşı, 1971-ci ildə Köhnə Bakıdan aşkar edilmiş, iki qulpdan ibarət olan, xarici səthi yumru və qabarıq basma naxışlı mehtərə tipli qabı da buna misal göstərmək olar. Eyni zamanda daha səliqəli və mükəmməl işlənilmiş nəbati naxışlar arasında da oxşarlıq aydın müşahidə edilir [6, s.220]. Bakının bu tip qablarına vurulmuş basma naxışlar da qabın gövdə və ağız hissəsində olmaqla, gül, yarpaqşəkilli naxışlardan ibarətdir [1, s.264].

Xatırladaq ki, basma naxışlı mehtərələr Orta əsr Şəmkir şəhər yerindən də müəyyən edilib. Təsadüfi deyildir ki, professor Tarix Dostiyev Orta əsr Şəmkir şəhərinin şirsiz saxsı məmulatını təsnif edərkən su qabları içərisində matraları da fərqləndirmişdir. Müəllifin XII əsrə aid basma naxışlı, dörd ayağı olan və hissələri qəlibdə hazırlanaraq sonradan birləşdirilmiş matranın üzərinə gül və insan təsvirlərinin işlənilməsini göstərməsi onu deməyə əsas verir ki, orta əsrlərdə Şəmkirdə dulusçu ustalar nəinki matraların hazırlanmasında, eyni zamanda onların xarici səthinin daha mükəmməl naxışlanmasında da səriştəli olmuşlar. Matralara basma naxışlar vurulsa da, forma etibarilə, xüsusilə dörd ayaqlı olması onların fərqləndirici cəhətlərindən biridir [5, s.77].

Beləliklə, mütəxəssislər tərəfindən şirsiz saxsı qabların təsnifatı verilərkən mehtərə tipli qabların ayrıca bir qrup kimi fərqləndirilməsi onların özünəməxsus təyinatına, forma yetkinliyinə malik olmaqla digər şirsiz qablardan fərqləndiyini göstərir.

Nəticə. Təqdim olunan nümunələrin təhlilinə əsasən Qəbələnin XI-XIII əsrlərə aid mehtərə tipli şirsiz qabları haqqında aşağıdakı nəticələrə gəlirik:

- Digər şirsiz qablardan fərqli olaraq, XI-XIII əsrlərdə Qədim Qəbələ şəhər yerində mehtərə tipli qablar nisbətən az istehsal edilmişdir.
- Qəbələdə XI-XIII əsrlərdə şirsiz keramikanın digər növlərindən olduğu kimi mehtərə tipli qablardan da məişətdə istifadə olunmuş və digər orta əsr şəhərlərinə aid anoloji nümunələrlə müəyyən oxşarlıq da izlənilmişdir.
- Qablar narın gildən hazırlandığına görə onların səthi daha hamar və məsaməsiz olmaqla səliqəli işlənmişdir.
- Qulplar qulaqvari və oval formalıdır ki, bu da insanların səfər zamanı qabları özləri ilə götürməsinə yardımçı olur.
- Qabların boğaz və gövdəsinin yuxarı hissəsi enli və nazik xətlərdən ibarət cızıqlar çəkilməklə naxışlanmışdır. Eyni zamanda gövdə hissənin daha mükəmməl olmaqla cızma və basma naxışlar fonunda işlənilməsi halları da müşahidə edilmişdir.
- Arxeoloji qazıntılar zamanı həm cızma naxışlı, həm də basma naxışlı nümunələrin aşkar olunması Qəbələ ustalarının digər şirsiz qablarla

yanaşı, mehtərə tipli qabların da hazırlanmasında peşəkar olduqlarını göstərir.

Ədəbiyyat

1. Azərbaycan arxeologiyası: [6 cilddə]/Baş red: Rəhimova, M.; Red.hey. Babayev, İ., Cəfərov, Ə., Cəfərov, H., Dostiyev, T., Əliyev, V., Məmmədov, A., Müseyibli, N.–Bakı: Şərq-Qərb,–c. 6.–2008. –632 s.
2. Cəbiyev, Q.C. Azərbaycan arxeologiyasının əsasları/ Q.C.Cəbiyev.– Bakı: Elm və təhsil, –2018. –596 s.
3. Cəbiyev, Q.C. Azərbaycan keramikası/ Q.C.Cəbiyev.–Bakı, – 2003.– 236 s.
4. Cəbiyev, Q.C.Arxeologiya və romantika/ Q.C.Cəbiyev.–Bakı: Gənclik,–1990.– 128 s.
5.Dostiyev, T.M. Orta əsr Şəmkir şəhərinin keramikası: I hissə / T.M. Dostiyev.– Bakı, – 2020. –224 s.
6. Fərhadoğlu, K.F. Bakı. İçərişəhər / K.F.Fərhadoğlu. –Bakı: Ş-Q & Çinar-Çap, – 2006. – 256 s.
7. Qəbələ Arxeoloji Ekspedisiyası 2011-2012. Tapıntılar. –Bakı, – 2013.–348 s.
8.Mustafayev, A.M. Azərbaycanda sənətkarlıq (tarixi-etnoqrafik tədqiqat):/tarix elmləri doktoru dis./ –Bakı, 1993. – 406 s.
9.Osmanov, F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti (e.ə. IV-b.e. III əsrləri) / F.L. Osmanov.– Bakı:Elm,–1982.–157 s.

Məqalənin redaksiyaya daxilolma tarixi: 03.02.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 11.02.2025
Məqalənin çapa qəbul olunma tarixi: 28.02.2025

Turizm və qonaqpərvərlik tədqigatları. İl 14, Say 1, 2025, 137-148s.
Tourism and Hospitality Studies. Volume 14. Number 1, 2025, p. 137-148.

UOT: 94(479.24)
Rəşad QASIMOV
Daxili İşlər Nazirliyinin Polis Akademiyası,
polis polkovnik-leytenantı, tarix üzrə fəlsəfə doktoru
rqasimov1981@gmail.com
https://orcid.org/0009-0001-0102-5782
DOI: doi.org/10.61226/12.2.2023/20251.10

APREL İŞĞALININ OSMANLI MƏTBUATINDA ƏKSİ

Xülasə: Məqalədə 1920-ci ilin aprel ayında Sovet Rusiyasının Azərbaycan Xalq Cümhuriyyətinə qarşı həyata keçirdiyi kobud hərbi müdaxilənin səbəb və nəticələri, həmçinin bu işğal aktına qonşu dövlətlərin münasibəti, habelə bolşeviklərin Azərbaycan xalqına qarşı apardıqları terror siyasəti dövrün Osmanlı mətbuatı materialları əsasında tədqiq edilmişdir. Osmanlı mətbu orqanlarında aprel işğalının müxtəlif aspektlərini əks etdirən məlumatlar dövrün müxtəlif mənbələri, habelə tarixşünaslıq materialları və memuar ədəbiyyatı ilə paralel şəkildə araşdırılmış, mətbuat materiallarının tarixi həqiqətə uyğunluğu məsələsi xüsusi olaraq diqqət mərkəzində saxlanılmışdır.

Araşdırma zamanı müəyyən edilmişdir ki, Osmanlı mətbuatında aprel işğalı ilə bağlı verilmiş məlumatlar bu təcavüz aktının xarakterini, səbəblərini və Azərbaycan milli dövlətçiliyi üçün doğurduğu nəticələri obyektiv şəkildə əks etdirir. Məqalədə həmçinin, Osmanlı mətbuatında verilmiş məlumatların tarixşünaslıq və mənbəşünaslıq baxımından daşıdığı elmi əhəmiyyət də vurğulanmışdır.

Açar sözlər: Azərbaycan Xalq Cümhuriyyəti, aprel işğalı, bolşeviklər, Osmanlı mətbuatı.

Rashad QASIMOV

THE REFLECTION OF THE APRIL OCCUPATION IN THE OTTOMAN PRESS

Abstract: This article examines the causes and consequences of the brutal military intervention of Soviet Russia against the Azerbaijan Democratic Republic in April 1920, the reaction of neighboring states to this act of occupation, and the policy of terror carried out by the Bolsheviks against the Azerbaijani people, based on materials from the Ottoman press of that time. Information reflecting various aspects of the April occupation in Ottoman print media was studied in parallel with various sources from that period, as well as historiographical materials and memoir literature. Particular attention was paid to the issue of the press materials' conformity to historical reality.

The study established that the information published in the Ottoman press

about the events of the April occupation objectively reflects the nature of this aggression, its causes, and its consequences for Azerbaijani statehood. The article also highlights the scientific significance of these materials from the perspectives of historiography and source studies.

Keywords: Azerbaijan Democratic Republic, the April occupation, Bolsheviks, the Ottoman Press

Рашад ГАСЫМОВ

ОТРАЖЕНИЕ АПРЕЛЬСКОЙ ОККУПАЦИИ В ОСМАНСКОЙ ПРЕССЕ

Абстракт: В данной статье исследуются причины и последствия грубой военной интервенции Советской России против Азербайджанской Демократической Республики в апреле 1920 года, отношение соседних государств к этому акту оккупации, а также политика террора, проводимая большевиками против азербайджанского народа, на основе материалов османской прессы того времени. Сведения отражающие различные аспекты апрельской оккупации в османских печатных изданиях исследовались параллельно с различными источниками того периода, а также историографическими материалами и мемуарной литературой. При этом особое внимание уделялось к вопросу соответствия материалов прессы исторической действительности.

В ходе исследования было установлено, что информация, опубликованная в османской прессе о событиях апрельской оккупации, объективно отражает характер этой агрессии, её причины и последствия для азербайджанской государственности. В статье также подчёркивается научное значение этих сведений с точки зрения историографии и источниковедения.

Ключевые слова: Азербайджанская Демократическая Республика, апрельская оккупация, большевики, османская пресса

Giriş. Sovet Rusiyası tərəfindən 1920-ci ilin aprelində Azərbaycan dövlətinə qarşı həyata keçirilmiş kobud hərbi müdaxilə Azərbaycan tarixində silinməz izlər buraxmış, müstəqil dövlətçiliyi aradan qaldırmaqla ölkənin sonrakı 70 il ərzində sosial-iqtisadi, siyasi və mədəni inkişaf istiqamətlərini müəyyən etmişdir. Bu baxımdan aprel işğalı, onun səbəblərinin və acı nəticələrinin araşdırılması günümüzdə də öz aktuallığını saxlayan problemlərdən biridir. Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı məsələsi çoxsaylı mənbələr elmi dövriyyəyə cəlb edilməklə Vətən və xarici tarixşünaslıqda dərindən araşdırılmış, əksər tarixçilər tərəfindən obyektiv şəkildə qiymətləndirilmişdir. Bununla yanaşı, aprel işğalının qonşu dövlətlərdə doğurduğu reaksiyanı, xarici ictimai rəyin bu məsələyə münasibətinin araşdırılması da olduqca mühüm elmi əhəmiyyət daşıyır. Bu baxımdan aprel işğalı ilə bağlı Osmanlı mətbuatının verdiyi məlumatlar Azərbaycan Xalq Cümhuriyyətinin süqutu prosesini və onun səbəblərini, Sovet Rusiyasının

Şimali Azərbaycanı işğal etdikdən sonra ölkənin tarixi taleyində baş vermiş dəyişiklikləri öyrənmək üçün elmi əhəmiyyətə malikdir.

1918-ci illərdə Cənubi Qafqazda, xüsusilə Şimali Azərbaycanda baş vermiş hərbi-siyasi hadisələrdə yaxından iştirak etmiş Osmanlı dövləti Birinci Dünya müharibəsində məğlub olduqdan sonra bölgənin hərbi-siyasi həyatında iştirakdan məhrum olsa da, Osmanlı mətbuatı öz məhdud imkanları daxilində Cənubi Qafqazda gedən hərbi-siyasi prosesləri dünya mətbuatı, dövrün siyasi xadimləri, habelə hadisə şahidlərinin verdiyi məlumatlar əsasında izləmiş, baş vermiş mühüm hadisələri öz səhifələrində əks etdirmişdir.

XI ordunun Azərbaycanı işğal etməsi. Osmanlı mətbuatı Sovet Rusiyasının təcavüzü nəticəsində Azərbaycan Xalq Cümhuriyyətinin süqutunu və ölkənin işğalını əsasən xarici mətbuat səhifələrində dərc edilmiş məqalələr və dövrün siyasi xadimlərinin məsələyə münasibəti əsasında işıqlandırmışdır. "İleri" qəzetinin fransız "Le Journal" dərgisində dərc olunmuş məqaləyə istinadən verdiyi məlumatda bolşeviklərin aprelin 27-də Bakıya qəflətən daxil olduqları göstərilir. Məlumatda qeyd edilir ki, Bu hadisə əhalidə heyrətlə yanaşı bir təşviş də yaratdı [6]. İşğal ərəfəsində mövcud olan ictimai-siyasi vəziyyət şərh edilərkən bolşeviklər tərəfindən ictimai rəyi sovetlərin lehinə çevirməyə hesablanmış və bir neçə aydan bəri apardılan təbliğat, Leninin buraya göndərdiyi emissarların mətbuat və digər vasitələrlə həyata keçirdikləri pozucu fəaliyyət də qeyd edilmişdir. Bu təbliğata paralel olaraq bolşevik zülmündən xilas olmuş şəxslərin söylədikləri həqiqətlərin heç kim tərəfindən qəbul edilməməsi faktı da oxucuların diqqətinə çatdırılır.

Faktlar göstərir ki, işğal ərəfəsindəki dövrdə AXC-nin daxili problemlərindən, xüsusilə torpaq islahatının keçirilməsinin yubadılmasından məharətlə istifadə edən bolşeviklər müxtəlif təxribatlar törədirdilər. Hələ 1919-cu ilin əvvəllərindən bolşeviklərin rəhbərliyi ilə kəndli çıxışları baş vermişdi. Bunlardan ən güclüsü olan Gəncədə baş vermiş çıxış 1919-cu ilin sentyabrında yatırılmışdı [12, s.32]. 1920-ci ilin fevralında təsis edilmiş Azərbaycan Kommunist Partiyasının əsas məqsədi isə ölkədə vəziyyəti gərginləşdirmək, təxribat yolu ilə bolşevikləri hakimiyyətə gətirmək idi.

"İleri" qəzetində dərc olunmuş bu məqalədə xalqın Bakıya daxil olan Qırmızı Orduya münasibəti də öz əksini tapmışdır. Məqalədə əhalinin Qırmızı Ordu əsgərlərini xilaskar kimi qarşıladıqlarını və onların bu hadisənin ölkəni cənginə almış milli və dini münaqişələrə son qoyacağını zənn etdikləri qeyd edilir. Lakin bunun ardınca göstərilir ki, "Fəqət bolşeviklərin Bakını işğal etmələrinin ertəsi günü bütün bu ümidlərin nə qədər olduğu boş olduğu anlaşıldı" [6]. Həmçinin bu məlumatda bolşeviklərin tərəfinə keçmiş fəhlələrin səhərdən axşamadək şəhəri gəzərək nümayişlər keçirməsi, onlara isə revolverlər qurşanmış qırmızıların rəhbərlik etdiyi də bildirilir.

Aprel işğalından sonra Azərbaycanın dövlət rəmzlərinin, eləcə də milli dövlətçiliyinin tədricən ləğv edilməsi prosesi də Osmanlı mətbuatının diqqətini cəlb etmişdir. "İleri" qəzetində dərc edilmiş bir məqalədə bu proses belə təsvir dilir: "

Azərbaycan Sovet hökumətinin yeni milli bayrağı qırmızı rəngli və ağ ulduzludur. Bakıda rəsmi dil ruscadır. Tədavülə 250.000 rublluq sovet əskinası buraxılmışdır" [1]. Bundan əlavə, Bakıda "Ermənistan Kommunisti" adı ilə bir qəzetin nəşrinə başlanılması və Ermənistan təmsilçisinin də Bakıda olması məlumatı da verilir.

Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı prosesini əks etdirən məlumatlar göstərir ki, Osmanlı mətbuatı bu hadisələri uzaqdan izləməsinə, habelə həmin dövrdə geniş yayılmış bolşevik təbliğatına baxmayaraq, hadisələrin əsil mahiyyətini düzgün anlaya və obyektiv şəkildə qiymətləndirə bilmişdir.

Region dövlətlərinin aprel işğalına münasibəti. Osmanlı mətbuatında yer almış yazılar Aprel istilasının region dövlətləri – Ermənistan və Gürcüstanda doğurduğu reaksiyaları öyrənmək baxımından mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Ermənistan xarici işlər naziri H.Ohancanyanın Azərbaycan SSR hökumətinin Ermənistan hökumətinə verdiyi 8 may 1920-ci il tarixli sülh təklifinə cavabı xeyli maraq doğurur. "Vakit" qəzetinin erməni mətbuatına istinadla dərc etdiyi yazıda bununla bağlı qeyd edilir: "Ermənistan hökumətinə qarşı edilən təcavüzlər Azərbaycanda baş vermiş inqilabın həqiqi mahiyyətini Ermənistan hökuməti və əhalisinə açıq şəkildə anlaşılmış olduğunu sizə bəyan etməyə bizi məcbur edir. Bu inqilab nəticəsində guya Müsavat partiyasına mənsub hökumətin yerinə sosialist bir hökumət iş başına keçmişdir. Özünə sosialist adı verən bu hökumətin ilk səhvi Qarabağ və Zəngəzurun erməni kəndlərini öz hökmü altına alması olmuşdur [2]. Bəyanatdan göründüyü kimi, Ermənistan hökumətini Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsi deyil, Ermənistanın Qarabağ və Zəngəzur bölgələrinə iddiaları və XI ordunun bu əraziləri nəzarətə götürməsi narahat edirdi. H.Ohancanyan Azərbaycan SSR hökumətinin erməni qoşunlarının Azərbaycan ərazilərindən geri çəkilmələrini tələb edən ultimatumunun (Azərbaycan SSR xalq xarici işlər komissarı M.D.Hüseynovun 1920-ci il 1 may tarixli teleqramı nəzərdə tutulur – R.Q.) AXC hökumətinin mövqeyi ilə heç bir fərqinin olmadığını göstərək qeyd edir ki, "Buna görə də Ermənistan Azərbaycanın yeni hökumətinin demokratik və sosialist hökuməti olaraq tanımaqda üzürlüdür" [2].

Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalına Gürcüstan hökuməti bir az fərqli, lakin yenə azərbaycanlıları günahkar çıxaracaq tərzdə münasibət bildirmişdir. Gürcüstanın dövlət başçısı N.Jordaniyanın bu münasibətlə 1920-ci il aprelin 30-da parlament qarşısında etdiyi və "Akşam" qəzetində dərc olunmuş çıxışının mətni bunu deməyə əsas verir. Sovet Rusiyasının Gürcüstan üçün getdikcə təhdidə çevrilməsini vurğulayan N.Jordaniya bolşeviklərin şimaldan Soçi, indi isə şərq – Azərbaycan istiqamətindən Gürcüstan hüdudlarına yaxınlaşmalarını böyük təhlükə kimi qiymətləndirir. Azərbaycanda bolşevik hakimiyyətinin qurulmasını isə N.Jordaniya bu şəkildə səciyyələndirir: "Bolşeviklik geri qalmış, demokratiyanı anlamamış millətlərə xas olan bir hərəkatdır. Azərbaycan buna misaldır. Burada hələ köhnə tayfa qanunları hökmrandır. Sonra başqa bir şey daha var: Bakı hökuməti (Azərbaycan SSR XKS nəzərdə tutulur – R.Q.) sabiq Azərbaycan hökumətini (AXC hökuməti nəzərdə tutulur – R.Q.) Türkiyənin bölüşdürüldüyü bir zamanda Antanta

dövlətləri ilə əlaqədə olmaqda günahlandırır və bunu açıqdan-açığa elan edir. Beləliklə, Bakı kommunistləri Antanta dövlətlərini Azərbaycanın düşməni müəyyən etmişlər" [10;11]. Fikrini davam etdirən N.Jordaniya XI ordunun Ermənistandan keçməklə guya Anadoluya köməyə gedəcəyinə dair bolşevik təbliğatının təsiri altında Müsavat partiyasını və bütövlükdə Azərbaycanı vaxtilə türkləri, indi isə bolşevikləri Qafqaza gətirməkdə ittiham etməkdən də çəkinmir. Təbii ki, Gürcüstanın dövlət başçısı bu mülahizəni irəli sürərkən məhz türklərin Qafqaza gəlməsini Azərbaycan xalqını fəlakətdən xilas etməsi, habelə XI ordunun təcavüzünə ən çox Müsavat partiyasının qarşı çıxması kimi faktları nəzərə almır. Hakimiyyətin bolşeviklərə təhvil verilməsi ilə bağlı Azərbaycan Parlamentinin 1920-ci aprelin 27-də keçirilmiş son iclasında Müsavat fraksiyasının rəhbəri M.Ə.Rəsulzadənin "... bizim razılığımızı soruşmadan sərhədlərimizi keçən qüvvələr (XI ordu nəzərdə tutulur – R.Q.) bizə dost deyil, düşməndir! Bu ultimatumun qəbul edilməsi hakimiyyəti dost maskası geyinmiş düşmənə vermək deməkdir!" [4, s.567] sözləri də AXC hakimiyyətinin və Müsavat partiyasının bolşeviklərlə bağlı sərt mövqeyini göstərir.

Bundan əlavə, Azərbaycan hökuməti 1920-ci ildə yaxınlaşan bolşevik təhlükəsinin ciddiyyətini dərk edərək Gürcüstan hökumətinə hələ 1919-cu ilin iyununda Azərbaycan və Gürcüstan arasında ağqvardiyaçı general Denikinlə mübarizə məqsədi ilə bağlanmış pakta əsasən zəruri tədbirlər görməyi təklif etmişdi. Lakin bu dövrdə Azərbaycanla hərbi ittifaq strategiyası Gürcüstanın mənafeyinə uyğun deyildi. Həmin dövrdə Gürcüstan nümayəndəsi Uraqadze Moskvada öz hökuməti adından Çiçerinlə (RSFSR xalq xarici işlər komissarı – R.Q.) Gürcüstanın Sovet Rusiyası tərəfindən tanınması barədə danışıqlar aparırdı [4, s.562-563]. Bütün bu faktlar Azərbaycanın bolşevikləri Qafqaza gətirməsi barədə irəli sürülən ittihamları alt-üst edir.

XI ordunun "Bakı yürüşünü" asanlaşdıran amillər. XI ordunun cüzi müqavimət istisna olmaqla Azərbaycan sərhədlərini belə asanlıqla keçərək Biləcəri stansiyasına gəlib çıxmasının səbəbləri də Osmanlı mətbuatında yer almışdır. Bunu Ermənistanın baş naziri A.Xatisyanın istefa verməzdən əvvəl Qafqazdakı ümumi vəziyyətlə bağlı erməni parlamenti qarşısında verdiyi və "Vakit" qəzetində dərc olunmuş bəyanatı da bir daha əyani şəkildə sübut edir. Xatisyan bəyanatında göstərir ki, aprelin 27-də Biləcəri stansiyasına daxil olan bolşeviklər Azərbaycan hökumətinə hakimiyyətin Hərbi İnqilab Komitəsinə təhvil verilməsi tələbi ilə ultimatum vermişlər. Nəticədə Bakı müqavimətsiz işğal olunmuşdur. Məlumatlı şəxs kimi Xatisyan Bakının müqavimətsiz işğal olunmasının səbəbini belə izah edir: "Bakının işğalından əvvəl bolşeviklərin Azərbaycan sərhədlərinə yaxınlaşdıqları, lakin Azərbaycan əsgəri Qarabağda məşğul olduğundan onlara qarşı müqavimət üçün Azərbaycanın kifayət qədər qüvvəyə malik olmadığı və buna görə Azərbaycan əsgərini Qarabağdan çəkdiyi təqdirdə bir hücumun baş verməməsi üçün Ermənistan hökumətindən təminat istədiyi barədə mənə məlumat verildi" [7]. Xatisyan göstərir ki, guya bu məlumat ona veriləndə Azərbaycan əsgərləri artıq Yalamadan geri

çəkilmişdi.

Göründüyü kimi, erməni baş nazir Azərbaycan Ordusunun XI orduya müqavimət göstərə bilməməsinin səbəblərini düzgün izah edir. Məlumdur ki, 1920-ci ilin martında ermənilərin Qarabağ bölgəsində qiyam qaldırmaları və dinc Azərbaycan yaşayış məntəqələri üçün təhlükə yaratmaları hökumətin Ordunun böyük qismini ölkənin qərbinə göndərmək məcburiyyətində qoymuşdu. Lakin bundan xəbərsiz olması məsələsi ilə bağlı Xatisyan yumşaq desək, riyakarlıq edir. Çünki Ermənistan hökuməti hələ 1920-ci ilin əvvəllərindən etibarən ermənilər Zəngəzur istiqamətindən Şuşa qəzasına doğru hərəkətə başlamışdılar. Ermənilərin Qarabağda fəallaşması qəti mövqe nümayiş etdirən Azərbaycanın əsas qüvvələrini buraya cəlb edəcəyi, bunun isə ölkənin şimal sərhədlərinin müdafiəsiz qalması və XI ordunun yürüşü üçün geniş imkanlar yaradacağı ehtimalını artırırdı. Bu fakta diqqət yetirən F.Əhmədova haqlı olaraq qeyd edir ki, "Ermənistan hökumətinin 1920-ci ildə Qarabağla bağlı fəal müdaxilə planları RSFSR xalq xarici işlər komissarı G.V.Çiçerinin Azərbaycan hökumətinə göndərdiyi notalarla eyni vaxta təsadüf edirdi" [8]. Beləliklə, ermənilərin 1920-ci ilin marında Qarabağda qaldırdıqları qiyam birbaşa XI ordunun "Bakı yürüşü" ilə bağlı idi. Heç təsadüfi deyildi ki, 1920-ci ilin əvvəllərində erməni sosial-demokratlar Pirumov və Zaxaryan Moskvada "ərazi güzəştləri müqabilində Azərbaycan Respublikası hökumətini devirmək işində öz hökumətlərinin təklifini" bildirmişdilər [9]. Beləliklə, faktlardan da göründüyü kimi, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalını asanlaşdıran "Qarabağ qiyamı" Ermənistan hökumətinin Sovet Rusiyası ilə qarşılıqlı razılığı və iştirakı ilə törədilmişdi.

Azərbaycanda aprel çevrilişindən sonra Ermənistanın bolşeviklərə münasibəti də bu iki qüvvə arasında müəyyən bir sazişin olduğunu göstərir. Bu baxımdan Ermənistanın Azərbaycanda yeni təşkil edilmiş XKS-ni tanıması olduqca səciyyəvidir. Xatisyan Azərbaycan XKS-nin Ermənistan tərəfindən rəsmi hökumət kimi tanınmasını bu şəkildə ifadə etmişdir: "Dövlət hüququ baxımından bir inqilabdan sonra bir hökumət nəzdindəki nümayəndə geri çağırılmazsa, bu hal yeni təşkil olunan hökumətin o nümayəndənin təmsil olunduğu hökumət tərəfindən tanınmış olduğuna dəlalət edir. Buna uyğun olaraq Bakıdakı nümayəndəmizə fəaliyyətinə davam etməsi üçün lazımi təlimatı verdik" [7].

Erməni baş naziri Xatisyanın çıxışı Ermənistanın RSFSR hökumətinə münasibətini aydınlaşdırmaq baxımından da mühüm əhəmiyyət daşıyır. Çıxışında bolşevik Rusiyası ilə əlaqələrə də toxunan Xatisyan Rusiyadakı vətəndaş müharibəsinə münasibətdə Ermənistanın bitərəf mövqe tutduğunu vurğulayaraq bolşeviklərin fəaliyyətinin erməni hökuməti və ictimai rəyi tərəfindən Ermənistanın istiqlalına qarşı bir bəla kimi qiymətləndirildiyini qeyd etmişdir. Hətta Ermənistanda fəaliyyət göstərən bir neçə bolşevik təbliğatçısının ölkə hüdudlarından çıxarıldığını da qeyd edən baş nazir vurğulayırdı ki, "bununla yanaşı, bolşeviklərin Rusiyada real qüvvə təşkil etdiklərini unutmamaq lazımdır. Hətta Avropa da bu qənaətə gəlmişdir" [7].

Osmanlı mətbuatında aprel işğalı ilə bağlı öz əksini tapmış mühüm məqamlardan birini XI ordunun Azərbaycanı işğal etməsini pərdələmək məqsədilə türk faktorundan – guya bolşeviklərin Azərbaycan və Ermənistandan keçməklə Antanta dövlətlərinə qarşı mübarizə aparan kamalçılara köməyə getməsini irəli sürən təbliğata aydınlıq gətirilməsi təşkil edir. Məlumdur ki, aprel işğalı ərəfəsində milli qurtuluş savaşı aparan Türkiyə Antantanın düşməni olan Sovet Rusiyasının hərbi-siyasi və maliyyə yardımını əldə etməyə çalışırdı. Bu məsələdə istər kamalçılar, istərsə də Azərbaycanda olan türk zabitləri eyni fikirdə olub qərbmeyilli AXC hökumətini Anadoluya sovet yardımının göndərilməsində başlıca maneə hesab edirdilər. Buna görə də T.Svyaxotovskinin qeyd etdiyi kimi, "Azərbaycandakı türkiyəli zabitlər Bakıda rejimin dəyişməsini səbirsizliklə gözləyirdilər, çünki onlar inanırdılar ki, Sovet Azərbaycanı bolşevik Rusiyasını kamalçı Türkiyəyə yaxınlaşdıracaqdı" [19, s.177]. Bu dövrdə türk vətənpərvərlərinin nəzərində qərbmeyilli hökumətin idarə etdiyi Azərbaycan Britaniyanın siyasi aləti və Türkiyəni dost Rusiyadan ayıran baryer kimi qiymətləndirilməsini Qurtuluş savaşının görkəmli nümayəndələrindən biri olan Kazım Qarabəkirin hətta AXC hökumətini Antantanın oyuncağı olan Damad Fərid paşa hökuməti ilə eyniləşdirirməsi faktı da sübut edir [13, s.503-504]. Beləliklə, göstərilən dövrdə türklərin Sovet Rusiyasının yardımına ehtiyac duymaları və bu yardımın əsasən Azərbaycan vasitəsilə gerçəkləşdirilməsinin mümkün olması bolşeviklərin bu istiqamətdə geniş təbliğat kampaniyası aparmaları üçün münbit zəmin yaratmışdı. Bu təbliğat həm türk, həm də Azərbaycan ictimai rəyini bolşevik qüvvələrinin Azərbaycana yeridilməsinin zəruriliyinə inandırmaq, eyni zamanda milli Azərbaycan hökumətini nüfuzdan salmaq kimi məqsədlər güdürdü.

Osmanlı mətbuatında dərc olunmuş yazıların araşdırılması göstərir ki, bolşeviklərin Azərbaycandan keçərək Anadoluya köməyə getmələri ilə bağlı apardıqları təbliğat türk ictimaiyyətinin mühüm bir qismini inandıra, Azərbaycan hökumətinə qarşı mənfi rəy formalaşdıra bilmişdi. "İleri" qəzetinin 1920-ci il 27 iyul tarixli 909-cu sayında dərc olunmuş yazı Azərbaycan əleyhinə daşnak və bolşeviklərin apardıqları bu təbliğatın ifşa edilməsi baxımından olduqca səciyyəvidir. Qəzet əvvəlcə erməni "Aravod" qəzetinə istinadən XI ordunun Qarabağı ələ keçirdikdən sonra Zəngəzura hücum etməsi barədə verdiyi məlumatı nəzərə çatdırır. Həmin məlumatdan belə aydın olur ki, guya öz müstəqilliyinin təhlükə altında olmasını bəhanə edən Azərbaycan Zəngəzur marşrutu vasitəsilə Mustafa Kamalla birləşmək üçün Qarabağ və Zəngəzura hərbi müdaxilə etmiş və sarsıdıcı məğlubiyyətə uğramışdır. Bundan sonra isə Qırmızı rus ordusu gəlmişdir [14]. Bu məlumat həmin dövrdə geniş şəkildə aparılan daşnak və bolşevik təbliğatını özündə əks etdirir. Erməni tərəfinin iddiasından məlum olur ki, guya azərbaycanlılar bolşeviklərlə əlbir olub Anadoluya – kamalçılara köməyə getmək niyyətində idilər. Halbuki Azərbaycan Ordusunun Qarabağda həyata keçirdiyi əməliyyat ölkənin suverenliyi və vətəndaşların təhlükəsizliyinin qorunması məqsədi daşıyırdı.

"İleri" qəzeti Azərbaycan hökumətinin bolşeviklərlə sazişi barədə əsassız

iddialara münasibət bildirərək göstərir: "Azərbaycanın Müsavat partiyasına məxsus hökumətin süqutu və bəzi liderlərinin qırmızılar tərəfindən həbs edilməsi və güllələnməsi qırmızıların tatarlarla (Azərbaycanlılar – R.Q.) gizli ittifaqının hər hansı bir əsasının olmamasına dair fikirlərdə siyasi və intellektual dönüş yaratmışdır" [14]. Eyni zamanda XI ordunun Azərbaycan və Ermənistandan keçərək guya Anadolunun köməyinə gedəcəyi ilə bağlı bolşevik təbliğatının da boş vədlərdən başqa bir şey olmadığına diqqət çəkən yazıda qeyd edilir: "Lakin rus inqilablarının detallarını və təfərrüatlarını dərindən anlayanlar və xüsusən də bolşevik müdaxiləsinin erkən dövrləri ilə tanış olanlar rusların öz əsgərlərin Ermənistan sərhədindən geri çəkərək bizi tək qoyduqlarını inkar edə bilməzlər. Məhz o zaman anlaşıldı ki, bolşeviklərin kiçik xalqlar haqqındakı müqəddəs təsəvvürləri gözqamaşdırıcı boş sözlərdən ibarətdir". Çünki söz ilə iş arasında elə dərin bir uçurum vardır ki, bizim öz köhnə rollarını oynayan adamlarla iş gördüyümüz aşkar oldu" [14].

"İleri" qəzetində verilmiş bu məqalədə rus imperializminin iç üzü açılır və qeyd edilir ki, əvvəl ölkədəki xaos və tənəzzül səbəbindən qarışıq siyasət yürüdən bolşeviklər özlərinə gələn kimi işlər öz köhnə rəng və şəklini alır. Bu gün rusiyalıların siyasətinin Sazanov və Milyukovun siyasətindən heç nə ilə fəqlənmədiyini, Lenin, Trotski və Çiçerinin bolşevik olmaqla, rus olmaqdan, rus kimi düşünməkdən imtina etmədiklərini vurğulayan yazıya olduqca maraqlı yekun vurulur: "Bu vəziyyət göstərir ki, bolşeviklər böyük Rusiya xülyası bəsləyir və köhnə Rusiyadan ayrılmış əraziləri təkrar Rusiyaya ilhaq etməyə səy göstərirlər" [14].

Bolşeviklərin törətdiyi zorakılıq və özbaşınalıqlar. Aprel işğalından sonra müstəqil dövlətçiliyə son qoyan bolşeviklərin Azərbaycanda həyata keçirdikləri terror və qarət siyasətinin bəzi məqamlarını Osmanlı mətbuatının səhifələrində bu və ya digər şəkildə öz əksini tapmışdır. Bu məlumatlardan aydın olur ki, işğaldan sonra elan edilmiş Azərbaycan SSR formal cəhətdən müstəqil sayılsa da, əslində Sovet Rusiyasının müstəmləkəsi idi. Bolşeviklərin Rusiyada yürütdüyü siyasət Azərbaycanda kobud formada və amansızlıqla həyata keçirilirdi [15, s.45]. Alman tarixçisi Y.Baberovskinin qeyd etdiyi kimi, Azərbaycana işğalçı kimi gələn bolşeviklər respublikanı talan və qırğın meydanına çevirmişdilər [21, s.249].

Azərbaycanı işğal etdikdən sonra XI ordunun əsgərlərinin törətdiyi özbaşınalıqlar, o cümlədən bolşeviklərin yerli əhaliyə münasibətindən bəhs edən "İleri" qəzeti Tiflisdə nəşr edilən sosialist mətbu orqanı olan "Voltiqorç" qəzetinin məlumatlarına istinadən göstərir ki, Türküstana soxulduqdan sonra taxılı və digər ərzaq məhsullarını müsadirə edərək əhalini aclığa düçar etmiş bolşeviklər, həmçinin yüzlərlə müsəlmanı qətlə yetirərək yerliləri bütün idarəetmədən uzaqlaşdıraraq bütün hakimiyyəti öz əllərində cəmləşdirmişlər. Mətbu orqan bolşeviklərin Azərbaycanda da eyni siyasi xətti həyata keçirdiklərini qeyd edir [20]. Bu həqiqət 1920-ci il mayın 16-da Bakıya gələrək mövcud vəziyyətlə - Qırmızı ordunun özbaşınalıqları, onların törətdiyi "Talan həftəsi"nin nəticələri ilə tanış olduqdan sonra ilk istefa ərizəsini yazmış N.Nərimanov tərəfindən də təsdiq edilirdi. Bununla bağlı İ.Stalinə yazdığı məktubunda N.Nərimanov göstərirdi ki, o, Azərbaycana gələrkən bir sıra

kommunistlər onu "Azərbaycanı başdan-başa qarət edirlər, sağa və sola güllələyirlər" sözləri ilə qarşılamışdılar [16, s.12-13].

İşğaldan sonra bolşeviklərin Bakıda törətdikləri "Talan həftəsi"nin acı nəticələri "İleri" qəzetinin 1920-ci il 7 sentyabr tarixli 947-ci sayında dərc edilmiş "Bakının bolşeviklər tərəfindən idarəsi" adlı məqalədə nisbətən detallı şəkildə öz əksini tapmışdır. Yazıda bolşevik özbaşınalıqları bu şəkildə təsvir edilir: "Dövlət müəssisələri, mehmanxana və villalar müsadirə edilərək onların sahibləri digər yerlərdə yaşamağa dəvət olundu. Dükanlar da müsadirə və zəbt edildi. Əhaliyə göz dağı vermək tapşırılmış gənc adamlar qılınc və tüfənglərini yelləyərək yük maşınlarında şəhəri dolaşırdılar" [6]. Qəzetin verdiyi bu məlumatlar arxiv sənədləri, memuar nümunələri və tarixşünaslıq materialları ilə də təsdiqlənir. XI ordunun özbaşınalıqlarının dözülməz həddə çatdığını ordu komandanı M.Levandovskinin əsgərlərin qarət və soyğunçuluq hadisələrində iştirak etmələrini təsdiqləyən 8 iyun 1920-ci il tarixli 269 saylı qərarı da sübut edir [22, s.149-150]. Bundan başqa, Azərbaycanın Moskvadakı təmsilçisi B.Şahtaxtinski də RSFSR XKS-nin sədri V.Leninə ünvanlandığı 1920-ci il 20 sentyabr tarixli məktubunda XI ordunun özünü mürtəce apardığını, qadın və qızların təcavüzə məruz qalmasını, Azərbaycan kəndlilərinin nələri varsa birdəfəlik götürülməsi müqabilində onları əsgərlərin evlərinə soxulmalarından xilas etmələri barədə yalvardıqlarını vurğulayırdı [17, s.120].

Bolşevik işğalının Azərbaycanın sosial-iqtisadi vəziyyətinə təsiri ilə bağlı Osmanlı mətbuatında verilmiş bir sıra məlumatlar tarixşünaslıq baxımından xeyli maraq doğurur. Bolşevik işğalının ağır sosial-iqtisadi nəticələrə səbəb olmasına toxunan "İleri" qəzetinin 1920-ci il 26 sentyabr tarixli 966-cı sayında dərc olunmuş "Türkiyə və Azərbaycanda vəziyyət" adlı yazısında ölkədə "qıtlıq və aclığın görünməmiş həddə çatması" [20] vurğulanır. Qəzetin digər sayında isə bolşeviklərin gəlişi ilə şəhərin həyat tərzinin dəyişildiyi, dükanların bağlandığı, tramvayların dayandığı, qida məhsullarının qiymətlərinin qeyri-adi sürətlə qalxdığı qeyd edilir [6].

Aprel işğalından sonra "Talan həftəsi" təşkil edən bolşeviklərin hər şeyi – ölkənin təbii sərvətlərini, əhalinin mal-mülkünü qarət edərək aclıqdan əziyyət çəkən Sovet Rusiyasına göndərmələri və beləliklə, onların Azərbaycanın özünü belə qıtlıq və aclığa məruz qoyan fəaliyyəti barədə Osmanlı mətbuatında qiymətli məlumatlar dərc edilmişdir. Bolşeviklərin qarətçi fəaliyyətindən bəhs edən "İleri" qəzeti yazırdı: "Nəhayət, bir neçə gündən sonra xəbər gəldi ki, işləri təşkil etmək üçün Moskvadan nümayəndələr gəlmişlər. Onların birinci vəzifəsi şəhərdə olan taxılı müsadirə edərək Moskvaya göndərmək oldu. Bu andan etibarən şəhərdə aclıq başladı. Həyat elə həddən artıq bahalaşdı ki, qidalanmaq üçün ayda minimum 50 min rubl lazım idi" [6]. Digər bir məqalədə isə qeyd edilir ki, "Onlar (bolşeviklər – R.Q.) ölkədə mövcud olan hər şeydən, məsələn, neft, düyü, taxıl və hətta insanların şəxsi daşınmaz mülkiyyətindən bəhrələnməkdədirlər" [20].

Bolşeviklərin aprel işğalından sonra Azərbaycanda apardıqları talançı siyasət digər analoji mənbələrdə də öz əksini tapmışdır. M.Ə.Rəsulzadə qeyd edir ki,

bolşeviklər "Talan həftəsi"ndə qarət etdikləri qiymətli əşyalar, digər mallardan başqa 300 milyon pud nefti, 750 min pud pambığı və xeyli ipəyi Rusiyaya daşıyıb aparmışdılar [18, s.72]. Digər məlumata görə, aprel işğalından 1920-ci ilin oktyabrına qədər keçən dövr ərzində Azərbaycandan Rusiyaya aparılan neftin həcmi 145 milyon pud təşkil edirdi [23, s.148-149].

Bolşevik işğalı Azərbaycan xalqının və onun təbii sərvətlərinin talanması ilə yanaşı vətəndaşların kütləvi şəkildə güllələnmə, həbs, sürgün və s. kimi müxtəlif üsullarla – cəzalandırılması, amansız terror siyasətinə məruz qoyulması ilə də müşayiət olunurdu. Osmanlı mətbuatında təfərrüatlı olmasa da, bolşeviklər tərəfindən törədilmiş bu qəbildən olan cinayət əməlləri haqqında müəyyən məlumatlar saxlanılmışdır. "Akşam" qəzetinin 15 iyul 1920-ci tarixli 651-ci sayında "Monitor" qəzetinə istinadən Bakıda baş vermiş qanlı hadisələr oradan gəlmiş bir şəxsin dilindən bu şəkildə təsvir edilir: "Elə bir gün olmur ki, bolşeviklər əksinqilab şübhəsi ilə bir neçə nəfəri güllələməsinlər. Bizim yola çıxmağımızdan bir gün əvvəl 50 nəfər güllələndi" [3].

Bolşeviklərin həyata keçirdikləri terror siyasətinin əsas hədəflərindən biri də ziyalıları məhv edərək Azərbaycan xalqını başsız qoymaqdan ibarət idi. Aprel işğalından sonra əhalinin ziyalı hissəsinin daha çox təzyiq və təhqirlərə məruz qalması "İleri" qəzetinin verdiyi məlumatla da təsdiq edilir [6]. Dövrlə bağlı aparılmış tədqiqatlar da göstərir ki, Bakıda sovet hakimiyyəti qurulduqdan dərhal sonra bolşeviklərin "sinfi düşmən" adlandırdıqları köhnə rejim tərəfdarları və ziyalılara qarşı təqiblər başladı. Tez-tez heç bir səbəb olmadan həbslər həyata keçirilir, burjuaziya nümayəndələri küçədə döyülür və talan edilirdi, yeni hakimiyyətin real və ehtimal olunan müxalifləri isə Nargin adasına aparılır, orada güllələnirdilər [21, s.249]. Azərbaycanda müsəlman əhaliyə, xüsusilə ziyalılara qarşı çevrilmiş terror siyasəti Azərbaycan SSR Xalq Təsərrüfatı Şurasının sədri N.Solovyovun V.Leninə göndərdiyi məktubunda belə xarakterizə olunmuşdur: "Ziyalılar və burjuaziyanın nümayəndələri həbs olunur və güllələnirdi, bunlar demək olar ki, yalnız müsəlmanlar idilər" [5, s.51].

Azərbaycanın sovet Rusiyası tərəfindən işğalının mədəniyyət, xüsusilə təhsil sahəsində doğurduğu ağır nəticələri öyrənmək baxımından Osmanlı mətbuatında verilmiş bir məlumat diqqəti xüsusilə cəlb edir. Cümhuriyyətin Azərbaycan xalqına bəxş etdiyi əvəzsiz mədəni töhfələrdən biri olan Bakı Universitetinin bolşeviklər tərəfindən düçar edildiyi acınacaqlı vəziyyəti xarakterizə edən həmin məlumatda deyilir: "Bakı Universiteti bu gün bir qapıçının başçılıq etdiyi komitə tərəfindən idarə edilir. Bu komitənin üzvləri də xidmətçilərdən ibarətdir. Əlbəttə, proqramlar da dəyişdirilmişdir. Məşğələlər sərbəst formada keçirilir. Qadın və kişilər dərslərə bir yerdə davam edirlər. İmtahanlar ləğv edilmişdir. Tələbə hesab edəndə ki, onun təhsili kifayətdir, əvvəlcədən komissiyaya müraciət edir, komissiya isə dərhal ona tibbi praktikadan məzun olmasına dair şəhadətnamə verir" [6]. Məlumatdan göründüyü kimi, bolşevik işğalı Azərbaycanda həyatın bütün sahələrinə, o cümlədən mədəni sahəyə pozucu təsir göstərmiş, burada da özbaşınalığa və xaosa gətirib çıxarmışdı.

Nəticə. Aprel işğalı və onun doğurduğu nəticələrin müxtəlif Osmanlı mətbu orqanlarının fəaliyyəti əsasında öyrənilməsi göstərir ki, Osmanlı dövləti həmin dövrdə Antanta dövlətlərinin nəzarətində olmasına baxmayaraq, Azərbaycanda baş vermiş

hərbi-siyasi hadisələr ölkə mətbuatının diqqətindən kənarda qalmamışdır. Osmanlı mətbuatında verilmiş məqalələrdə əks olunmuş məlumatlar öz qərəzsizliyi və obyektivliyi qoruyub saxlamaq baxımından seçilir. Bu isə mətbuatın Antanta dövlətləri və bolşevik təbliğatının təsiri altına düşmədiyini göstərir.

Sovet Rusiyasının hərbi müdaxiləsi və əhalinin bolşevik işğalına münasibəti kimi mühüm məsələlərlə bağlı Osmanlı mətbuatında verilmiş məlumatlar obyektiv tarixi gerçəklikləri əks etdirməklə, analoji həmdövr mənbələr, tarixşünaslıq materialları, həmçinin hadisə şahidlərinin xatirələri ilə də təsdiq edilir.

Region dövlətləri olan Gürcüstan və Ermənistanın aprel işğalına münasibəti ilə bağlı Osmanlı mətbuatında əksini tapmış məlumatlar bu dövlətlərin xarici siyasətində Azərbaycan Xalq Cümhuriyyətinin tutduğu yeri öyrənmək baxımından mühüm elmi əhəmiyyət daşıyır.

Xüsusilə, XI ordunun Azərbaycanı asanlıqla işğal etməsinin səbəbləri – bolşevik-erməni ittifaqının Osmanlı mətbuatında əks olunması tarixşünaslıqda məsələ ilə bağlı əldə edilmiş analoji elmi nəticə ilə üst-üstə düşür.

XI ordunun Azərbaycanı işğalı etməsi üçün irəli sürülmüş bolşevik təbliğatının – guya Sovet Rusiyası qoşunlarının Azərbaycandan keçməklə Anadoluya köməyə getməsi mifinin araşdırılması, kamalçıların və ümumiyyətlə həmin dövrdə türk ictimai fikrinin Antanta ilə əməkdaşlıq edən Azərbaycan Xalq Cümhuriyyətinə münasibətini öyrənmək baxımından da Osmanlı mətbuatında verilmiş məlumatlar mühüm elmi əhəmiyyətə malikdir.

Osmanlı mətbuat nümunələri göstərir ki, aprel işğalından sonra bolşeviklər, XI ordu əsgərləri Bakıda, habelə Azərbaycanın digər ərazilərində ağlasığmaz, zorakılıqlar, qətl və qarətlər törətmiş, əhalinin bütün təbəqələrini, xüsusilə ziyalıları, siyasi və dövlət xadimlərini, vətənpərvərləri amansız terror siyasətinə məruz qoymuşlar.

Aprel işğalının Osmanlı mətbuat nümunələri əsasında öyrənilməsi bir daha onu deməyə əsas verir ki, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğal edilməsi ölkənin sosial-iqtisadi, hərbi-siyasi və mədəni həyatına olduqca mənfi təsir göstərmiş, milli dövlətçiliyin ləğvi və özünəməxsus sovet müstəmləkə rejiminin yaradılması ilə nəticələnmişdir.

Ədəbiyyat

1. Azerbaycan Ahvâli // İleri. – 1336, 28 Temmuz (1920, 28 iyul). – s.1.
2. Azerbaycan ve Ermenistan: Sulh Teklîfâtına Ermenistan'ın Cevâbı // Vakit. – 1336, 5 Haziran (5 iyun 1920). – s.2.
3. Azerbaycan'da Bir Kıyâm // Akşam. – 1336, 15 Temmuz (1920,15 iyul). – s.1.
4. Azərbaycan tarixi: [7 cilddə] / Məs. red: İsmayılov M., Maksvell N. – Bakı: Elm, – c.5 (1900 – 1920-ci illər). – 2008, 696 s.
5. Azərbaycan tarixi: [7 cilddə] / Məs. red: Quliyev C. – Bakı: Elm, – c.6 (aprel 1920 – iyun 1941). – 2008, 568 s.
6. Bakü'nün Bolşevikler Tarafından İdâresi // İleri. – 1336, 7 Eylül (1920, 7 sentyabr). – s.1.
7. Ermeni Başvekîli'nin Bir Nutku // Vakit. – 1336, 25 Mayıs (1920, 25 may). – s.1.

8. Əhmədova, F. Ermənilərin "Qarabağ qiyamı" Azərbaycan Cümhuriyyətini devirmək planının tərkib hissəsi idi // Xalq qəzeti. – 2010, 2 iyun. – s.5.
9. Əhmədova, F. Xalq Cümhuriyyətinin süqutu və pərdəarxası oyunlar. Lenin niyə Bakının fəthini zəruri sayırdı? // Olaylar. – 2018, 2 may. – s.8.
10. Gürcistan Reîsicumhûru'nun Nutku // İleri. – 1336, 17 Mayıs (1920, 17 may). – s.1.
11. Gürcistan Reîsicumhûrunun Nutku //Akşam. – 1336, 16 Mayıs (1920, 16 may). – s.1.
12. İsgəndərov, A.C. Azərbaycan Xalq Cümhuriyyətinin yaranması və onun tariximizdə yeri // – Bakı: Strateji təhlil, – 2018. № 1-2 (23-24), – s. 13-36.
13. Karabekir, K. İstiklal Harbimiz. [c. I-II] / K. Karabekir. – İstanbul: Yapı Kredi Yayınları, – c.1-2. – 2006. – 1341 s.
14. Kızılordu, Azerbaycan, Gürcistan, Ermenistan // İleri. – 1336, 27 Temmuz (1920, 27 iyul). s. 1.
15. Mustafazadə, T., Əliyeva, F. Rusiya Dövlət Hərb Arxivi Materialları: 1920-1922-ci illərdə Azərbaycanda hərbi siyasi durumu öyrənmək üçün mənbə kimi // – Ankara: Akademik Tarih ve Düşünce Dergisi, – 2023. c. 10. – №2, – s. 43-61
16. Nərimanov, N. Ucqarlarda inqilabımızın tarixinə dair / N. Nərimanov – Bakı: Azərnəşr, – 1992. – 80 s.
17. Rəhmanzadə, Ş. Azərbaycan-Gürcüstan münasibətlərində ərazi məsələləri: Azərbaycanın şimal-qərb bölgəsinin materialları əsasında: 1917-1930-cu illərin əvvəlləri / Ş. Rəhmanzadə – Bakı: Aspoliqraf, – 2008. – 376 s.
18. Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / M.Ə. Rəsulzadə – Bakı: Elm, – 1990. –116 s.
19. Swietochowski, T. Russia and Azerbaijan: A Borderland in Transition / T. Swietochowski – New York: Columbia University Press, – 1985. – 272 p.
20. Türkiye ve Azerbaycan'da Vaziyet // İleri. – 1336, 26 Eylül (1920, 26 sentyabr), s. 1.
21. Баберовски, Й. Враг есть везде. Сталинизм на Кавказе / Й. Баберовски – Москва: Российская политическая энциклопедия (РОССПЭН) : Фонд «Президентский центр Б. Н. Ельцина», – 2010. – 855 с.
22. Мустафазаде, Р. Две республики. Азербайджано-российские отношения в 1918-1922 гг / Р. Мустафазаде – Москва: «МИК», – 2006. – 356 с.
23. Назарли, А. XI красная армия в Северном Азербайджане: оккупация, расправы, бесчинства / А. Назарли – Баку: Elm və təhsil, – 2014. – 392 с.

Məqalənin redaksiyaya daxilolma tarixi: 31.01.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 07.02.2025
Məqalənin çapa qəbul olunma tarixi: 14.02.2025

Turizm və qonaqpərvərlik tədqigatları. İl 14, Say 1, 2025, 149-162s.
Tourism and Hospitality Studies. Volume 14. Number 1, 2025, p. 149-162.

UOT: 93
Rövşən MƏMMƏDLİ
Azərbaycan Milli Elmlər Akademiyasının
Mərkəzi Elmi Kitabxanası,
tarix üzrə fəlsəfə doktoru
rovsen-banu@mail.ru
https://orcid.org/0000-0001-9431-8084
DOI: doi.org/10.61226/12.2.2023/20251.11

RUSİYANIN ŞİMALİ AZƏRBAYCANI İŞĞAL ETMƏSİNİN İKİNCİ MƏRHƏLƏSİ (RUSİYA DÖVLƏT HƏRBİ TARİX ARXİVİ SƏNƏDLƏRİ ƏSASINDA)

Xülasə: Məqalə II Rusiya-Qacar müharibəsi çərçivəsində Azərbaycan ərazisinin işğalına həsr olunub. Arxiv materilalları əsasında yazılan məqalə bu dövrün tarixşünaslığını əhatə edir. XVIII və XIX əsr Azərbaycan tarixinin öyrənilməsində arxiv materiallarının böyük əhəmiyyəti vardır. Xüsusilə Rusiya imperiyasının arxivləri dövr haqda zəngin məlumatlara malikdir. Belə arxivlərdən biri də Rusiya dövlət hərbi tarix arxividir. Arxivin sənədləri XVIII-XIX əsrlər Azərbaycan tarixinin öyrənilməsində mühüm tarixi mənbələrdir. Arxivdə Rusiya imperiyasının Azərbaycan siyasəti və o cümlədən XIX əsrin əvvəllərindən başlayan hərbi ekspansiyasını əks etdirən sənədlər saxlanılır. Arxivin fondlarına rəsmi məktublaşma, imperatora məruzə və raportlar, komandanların döyüş gündəlikləri o, cümlədən Azərbaycan ərazisində hərbi əməliyyatların gedişini əks etdirən sənədlər daxildir. RDHTA-nin fondlarında olan sənədlərdən İkinci Rusiya-Qacarlar müharibəsinin sona çatması və Azərbaycan ərazisinin bütünlüklə istila edilməsi barədə geniş məlumat almaq mümkündür. Məqalədə Azərbaycan tarixşünaslığı üçün vacib olan sənədlər barədə tədqiqat aparılıb və elmi nəticələrə gəlinib.
Açar sözlər: işğal, xanlıq, qala, ordu, artileriya, fond, arxiv, sənəd.

Rovshan MAMEDLI
THE SECOND STAGE OF RUSSIA'S OCCUPATION OF NORTHERN AZERBAIJAN (BASED ON THE DOCUMENTS OF THE RUSSIAN STATE MILITARY HISTORY ARCHIVE)

Abstract: The article is devoted to the occupation of the territory of Azerbaijan within the framework of the II Russian-Cajar war. The article written on the basis of archival materials covers the historiography of this period. Archival materials are of great importance in the study of the history of Azerbaijan in the 18th and 19th centuries. Especially the archives of the Russian Empire have a lot of information about the period. One of such archives is the Russian state archive of

military history. The documents of the archive are important historical sources in the study of the history of Azerbaijan in the 18th-19th centuries. The archive contains documents reflecting the policy of the Russian Empire in Azerbaijan, including the military expansion that began at the beginning of the 19th century. The archive's funds include official correspondence, reports and reports to the emperor, military diaries of commanders, as well as documents reflecting the progress of military operations in the territory of Azerbaijan. It is possible to get extensive information about the end of the Second Russo-Qajar War and the complete invasion of the territory of Azerbaijan from the documents in the RSMHA's funds. In the article, research was conducted on documents important for Azerbaijani historiography and scientific conclusions were reached.
Keywords: occupation, khanate, fortress, army, artillery, fund, archive, document.

Ровшан МАМЕДЛИ

ВТОРОЙ ЭТАП ОККУПАЦИИ РОССИЕЙ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА (ПО ДОКУМЕНТАМ РОССИЙСКОГО ГОСУДАРСТВЕННОГО ВОЕННО-ИСТОРИЧЕСКОГО АРХИВА)

Абстракт: Статья посвящена оккупации территории Азербайджана в рамках Второй Русско-Каджарской войны. Статья написана на основе архивных материалов и освещает историографию этого периода. Архивные материалы имеют большое значение в изучении истории Азербайджана XVIII-XIX веков. Особенно Российские архивы хранят много информации об этом периоде. Одним из таких архивов является Российский государственный военно-исторический архив. Документы архива являются важными историческими источниками в изучении истории Азербайджана XVIII-XIX веков. В архиве хранятся документы, отражающие политику Российской империи в Азербайджане, в том числе военную экспансию, начавшуюся в начале XIX века. В фондах архива хранятся официальная переписка, рапорты и донесения императору, военные дневники командиров, а также документы, отражающие ход военных действий на территории Азербайджана. Обширную информацию об окончании Второй Русско-Каджарской войны и захвате территории Северного Азербайджана можно получить из документов, хранящихся в фондах РГВИА. В статье проведено исследование документов, имеющих важное значение для азербайджанской историографии, и сделаны научные выводы.

Ключевые слова: оккупация, ханство, крепость, армия, артиллерия, фонд, архив, документ.

Introduction

Many sources and resources are used in the study of the history of Azerbaijan in the new era. These sources are diverse, but the most reliable among them is

information obtained from archives. Archives are considered a reliable and primary source of any information. Since they are mainly under state protection, the documents there are protected with special care. Documents are considered an important source in the objective assessment of any historical process and events. Archival materials play a special role in the study of the history of Azerbaijan. The political and economic interest of the Russian Empire in the South Caucasus starting from the 18th century and the state documents compiled during the process are an important source in the study of this period of history. Russian archives are an indispensable database for Azerbaijani historiography of the 18th, 19th and 20th centuries.

In Russia, there are archives of different number and wide profile. These archives contain a collection of documents related to both the time of the Moscow Tsardom and the time of the Russian Empire. One of such archives is the Russian state archive of military history. As the name suggests, the archive has a military profile. In other words, military documents of state importance are kept here. The Russian State Military Historical Archive is the largest and oldest repository of military historical documents in the Russian Federation. It is possible to verify the South Caucasus policy of the Russian Empire from the beginning of the 18th century on the basis of the archive materials. In particular, the archives of the archive contain a large number of documents related to the military expansion of the Russian Empire against Azerbaijan at the beginning of the 19th century.

The documents in the funds of RSMHA make it possible to study in detail the military campaign of the Russian army to Azerbaijan. The documents provide valuable information for Azerbaijani historiography about the number, plans, armament, etc. of the Russian army. Also, in the archive, one can find many documents about the help of the Armenians who settled in the Azeri region to the Russians. Especially during the Second Russo-Qajar War, they spied on the Russian command during military operations in the territory of the Iravan Khanate [11, p. 347-361].

The occupation of Azerbaijan by Russia was completed during the Second Russo-Qajar War, which began in 1826. On February 10, 1828, the Russian Empire ended its occupation of Northern Azerbaijan with the Treaty of Turkmenchay, signed between the Gajar state and Russia. The occupation of Azerbaijan started at the beginning of the 19th century, in 1804 with the attack on Ganja Khanate under the command of General Pavel Sisianov. The first phase of the occupation was concluded with the Gulustan Treaty signed in 1813 [12, p. 162-163]. The second stage ended in 1827 when General Ivan Paskevich invaded the Gajar state and defeated it, forcing it to sign the Treaty of Turkmenchay [24, p 166].

It should be noted that the last stage of the process of Russian occupation of Azerbaijan was widely reflected in Azerbaijani historiography. The invasion process has been studied mainly on the basis of Russian and Iranian sources. At this time, extensive archival materials were used. In particular, the Russian State Military

History Archive is one of the main primary sources that historians always turn to, as it is rich in such materials.

Funds of the Russian state military history archive as a historical source

There are many documents on the history of the South Caucasus, as well as on the history of Azerbaijan, in the various funds and collections of the RSMHA. Documents showing the course of military operations in the Transcaucasia in the 18th-19th centuries are preserved in the 846th fund of the former Military Scientific Archive of the archive. Collection 476 of fund No. 846 of the archive contains documents reflecting the Russo-Qajar war of 1826-1828 in 17 storage folders [6, p. 256]. These documents include letters, passports, spy reports, orders, supplies, and archives of military units. The documents allow creating a complete description of the process of occupation of Azerbaijan during the war.

At the beginning of the 19th century, the first stage of the occupation of Azerbaijan was formalized on October 12, 1813 with the peace of Gulistan. According to the Gulistan Treaty, Karabakh, Ganja, Sheki, Shirvan, Baku, Lankaran, Darbend, Guba Khanates were annexed by the Russian Empire. According to the terms of the agreement, the territory of the Iravan and Nakhchivan khanates remained under the control of the Qajar state. With this, Russia invaded a large part of Northern Azerbaijan, although not completely.

With the agreement of Gulistan, the territory of Northern Azerbaijan left the sphere of influence of the Gajar state. The shah's government, which, like Russia, wanted to see the South Caucasus as its territory, considered the terms of this agreement unacceptable. In order to recapture Azerbaijan, the Qajar palace was preparing for a new war. It is clear from the documents stored in the RSMHA funds that the tsarist government was aware of these preparations. To prevent the war, in 1826 Nicholas I sent Prince Alexander Menshikov as a special envoy to the royal palace. The main goal of Menshikov's mission was to prevent the war and for this to make concessions of part of the Karabakh and Lankaran khanates to the Gajars. However, the prince's attempt to resolve controversial issues with Fatali Shah, who left Petersburg for Tehran, failed. Menshikov is forced to return to Russia [10, p. 121]. When the prince returned to St. Petersburg and reached the territory of the Iravan Khanate, he received news that Abbas Mirza had crossed the Araz River with an army of 60,000. Seeing that the representative of the enemy country was in his lands, Khan Huseyngulu Khan of Iravan arrested Prince Alexander Menshikov. The prince remained imprisoned in the Yerevan fortress until 1827.

From document No. 4303 of the 1st folder of the 476th collection, it is clear that on July 25-26, 1826, Prince Abbas Mirza invaded Russia's possessions in the South Caucasus with 60,000 troops and besieged the Shusha fortress. In turn, Iravan Khan attacks Shurayel-Pambak territory. Khan's army defeated the small Russian border detachment and the Armenian military detachment, captured Pambak and advanced towards Tiflis. These events marked the beginning of the Second Russo-Kajar war [19, p. 11-18; 7, p. 125].

On sheets 11-18 of case No. 4303 of folder No. 1 of collection No. 476 of RDHTA, General Alexei Yermolov, the commander of the Caucasian Army, reports to Nicholas I on October 19, 1826, about the situation in the South Caucasus: "I received news that the commander of Iravan is going to Shamshadil distance with his army with the intention of getting closer to Kura. Its purpose is to support the fugitive prince Alexander (son of the king of Kakheti - the author), who is hiding among the Tsar-Balakane Lezgs, and to help the latter unite with Sheki Khan to attack Kakheti. When I entered the Gazakh distance, Sardar Goycha made a decision in the mountains on the edge of the lake. When I arrived at the Hasan-su river, the cavalry sent by him to the main road to Yelizavetpol (Ganja-author) also retreated to the mountains. The movement of our troops made it possible to keep the inhabitants of the Gazakh district in obedience. So, at the insistence of their elders, they were ready to go to the side of the Iravan warlord. So, at the insistence of their elders, they were ready to go to the side of the Iravan warlord. The inhabitants of Shamshedil distance went to the side of the warlord. The people of Sheki province were not in a hurry to attack Kakheti by uniting with the Car-Balakan Lezgins. Our strengthening at the Shamshadil distance prevented them from taking a decisive step. Now there is an expectation that Abbas Mirza will not stop in the Karabakh province and that Georgia will be in danger from this side" [19, p. 11-18].

As can be seen from the document, Abbas Mirza did serious preparations before starting the war. He intended to attack the Russians with his army and use the local population against them. Abbas Mirza wanted to complete his attack by capturing the city of Tiflis. For this, the attack was planned in three directions: from the south, east and northeast. However, the readiness of the Russians for this attack and their quick action prevented his plans from being fully implemented.

It is clear from the archive documents that Abbas Mirza moved towards Shusha fortress after crossing Araz and besieged it. The first days of Abbas Mirza's campaign are described on sheet 12 of document No. 4303 in the former VUA, currently in collection 476 of fund No. 846. The document mentions that the garrison of the Shusha fortress consisting of 1700 Russian soldiers under the leadership of the city commandant Colonel Reut is involved in the defense of the city. Abbas Mirza, who was involved in the siege of Shusha with his main forces, sent a group of 12 thousand to capture Ganja [19, p. 12].

It is clear from the report of the General Command of the Russian troops that the total number of the army of the Russian Empire in the South Caucasus at that time consisted of 35 thousand people. These forces were mainly concentrated along the border from the shores of the Caspian Sea to the shores of the Black Sea. Moreover, these forces were scattered. In August 1826, the Qajar army liberated Lankaran, Sheki and Ganja from the Russians. The directions and activities of the Qajar army can be found on pages 56-58 of folder number three of collection 476 and pages 6-8 and 19 of folder number four [19, p. 56-58].

The victories of the Qajar army in the first period also played a role in the uprisings

of the local population against the Russian rule. One of the biggest such uprisings took place on July 27-28 in the city of Ganja. Abbas Mirza's army captured Ganja with the help of the townspeople who defeated the city garrison. Among the big cities, Abbas Mirza can't capture only Shusha. The siege of Shusha fortress lasts for 48 days. Despite all attempts, the city of Shusha does not surrender to the Qajar army. On September 18, Abbas Mirza takes his odu from the outskirts of the city [3, p. 26-31]

Documents reflecting the activities of Armenians at the beginning of the Second Russo-Qajar war can also be found in the funds of RSMHA. In the 51st sheet of document No. 4238 of the first folder of the 476th collection, the bishop of the Armenian Church, Nerses Ashtaraketsi, has a special appeal to the Armenian population of the South Caucasus. In the appeal, he calls on Armenians to form armed units for self-defense and to fight against the Gajars. In general, among the foundation's documents related to this period, there are a large number of letters written by Armenians to the emperor, the Russian government, and the commander of the Caucasian army [4, p. 51-64]. The contents of these letters are mainly complaints, compliments, appeals, spy letters and requests to accept them under Russian rule.

The occupation of Iravan and Nakhchivan khanates in archival documents

It is clear from the archive documents that after the attack of Abbas Mirza, General Alexei Yermolov prepared a plan to resist him and occupy the territory of the Iravan and Nakhchivan khanates. Document No. 4290 - "Report of Alexei Yermolov to Emperor Nicholas I" is kept in folder No. 5 of collection 476. Dated September 17, 1826, the report consists of two pages. In the report, General Yermolov considers it acceptable to invade the territory of the Iravan Khanate in order to improve the fighting situation. However, he is wary of taking this step as he will experience difficulties with the supply. Moreover, the presence of fortified fortresses such as Iravan and Sardarabad in the territory of the khanate makes him cautious. Yermolov declares that he does not have enough forces to capture both forts [1, p. 38].

It is clear from the documents of RSMHA that the Russian government is sending additional forces to the South Caucasus to resist the Gajar army. High and middle Chinese military personnel with war experience are especially involved in these forces. It is no coincidence that during the most active period of military operations, Emperor Nicholas I sent General Ivan Paskevich to the South Caucasus with special powers [1, p. 105]. These additional forces changed the course of the war. In a short time, Abbas Mirza's army was removed from the territories it entered, and the uprisings in the Azerbaijani khanates were ruthlessly suppressed. On September 13, 1826, the battle in Ganja ended with the defeat of Abbas Mirza's army. With the remnants of Abbas Mirza's army, he went to Khudafarin, and from there to the Qajar estates. It is possible to study all these events in detail in document No. 4303 entitled "Battle near Yelizavetpol, September 13/25, 1826" [19, p. 1-3].

The document gave detailed information about the progress of the battle, the losses of the Qajar army and the measures of General Paskevich for the upcoming military operations and preparations for the winter.

After the Russians expelled the Khajar army from the territories they occupied during the First Russo-Kajar War, they began to make plans to seize new lands. These plans are reflected in document No. 4326 in folder No. 8 of Collection No. 476. Thus, on pages 102-106 of the document there is a report dated January 1827 "Report of the commander of the Caucasian army, General Yermolov, to the chief of the general staff of the Russian army, General Ivan Dibich". In the report, General Alexei Yermolov's march to the Iravan Khanate was described in detail. Yermolov proposed in his plan that the occupation of Nakhchivan Khanate should be completed before the terrible heat of summer. After the capture of Nakhchivan, the main parts of the Russian army had to unite with the military units located in Karabakh. Thus, according to the plan, on the one hand, the only communication route between Yerevan and the Qajar state was captured, and on the other hand, there was a threat of an attack on Tabriz. According to Yermolov's plan, this step should have made Abbas Mirza focus all his attention on the defense of Tabriz. At the end of his plan, Yermolov proposed to turn all his attention to Yerevan [21, p. 1-7]. For this, he proposed to surround the fortress, after a strong artillery preparation, to attack the city by shelling it.

Having completed the preliminary preparations for the march on Yerevan, Yermolov sent written instructions to General Konstantin Benkendorff on March 27, 1827 about the expected military operations on Yerevan. Later, Yermolov's plan formed the basis of the Yerevan march led by General Ivan Paskevich. Based on the experience of previous military campaigns, Yermolov warned in his instructions to General Benkendorff that when the Khan's army retreated, it would destroy all food supplies and drive the population deep into the country. To prevent this, he separates a special group and sends it to his disposal. Because Yermolov was careful about this point, he touched on this issue several times in the instructions he sent to Benkendorf. The instruction covering pages 38-41 of document No. 4326 in the 8th folder of the archive consists of 11 items. The main point in dams is the capture of the strong fortresses of Iravan and Sardarabad [21, p. 38-41]. However, General Yermolov was not lucky enough to lead the march on Yerevan. The reason for this was his conflict with another general, Ivan Paskevich.

Information about the conflict between Yermolov and Paskevich, the generals of the Caucasus Front, is also found in the archive documents. Thus, in 1827, Nicholas I sent his favorite commander, the extremely ambitious general Ivan Paskevich, to the Caucasian Corps. Paskevich's appointment led to a conflict in the command of the Caucasian Corps. Thus, Paskevich, a supporter of more offensive tactics, changed the entire strategy of the corps. He began preparations for a new phase of offensive operations. It is clear from the documents that the disagreement between the generals was about the course of military operations. Thus, Yermolov considered the

13. https://webunwto.s3-eu-west-1.amazonaws.com/imported_images/51756/6_-_2019_year_of_education_skills_and_jobs_-_unwto_academy_report_ru.pdf

Məqalənin redaksiyaya daxilolma tarixi: 28.12.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.01.2025
Məqalənin çapa qəbul olunma tarixi: 24.01.2025

UOT:008
Minaxanım ƏSƏDOVA
Azərbaycan Turizm və Menecment Universiteti, tarix elmləri doktoru
minaxanim.asadli@mail.ru
https://orcid.org/0009-0002-1728-4188
DOI: doi.org/10.61226/12.2.2023/20251.13

XX ƏSRİN ƏVVƏLLƏRİ ELMİ ƏDƏBİYYATDA QADINLARIN MAARİFLƏNMƏSİ İLƏ ƏLAQƏDAR TƏDQİQATLAR

Xülasə: Məqalədə Azərbaycanın müasir mədəniyyət siyasətində, milli irsə, ənənələrə və intellektual inkişafına olan yüksək diqqət olması qeyd edilir. Belə münasibətin Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması və uğurlu mədəniyyət diplomatiyasının aparılması istiqamətində də faydalı olmasına diqqət çəkilir. XX əsrin əvvəlində qadınların maariflənməsi məsləsi ilə əlaqədar tədqiqatlar araşdırılır. "İrşad", "Füyuzat", "Tərəqqi" "Yeni Füyuzat" kimi dövri mətbu orqanlarda qadınların hüquqları və cəmiyyətdəki yeri ilə bağlı məqalələr tədqiq olunur. Əhməd Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" adlı əsəri, Yusif Ziya Talıbzadənin "Qadınlara hədiyyə", "Qadınların tərbiyəsi", "Erkəklər və qadınlar" əsərləri təhlil edilir. Belə bir mənəvi irsin, milli-əxlaqi dəyərlərin qorunması və gənc nəslə aşılanmasının vacib olduğu qeyd edilir.

Açar sözlər: Qadınlara hədiyyə, islami dəyərlər, erkəklər, Əhməd Ağaoğlu, Yusif Ziya.

Minakhanim ASADOVA

THE EARLY 20TH CENTURY SAW RESEARCH IN ACADEMIC LITERATURE RELATED TO THE EDUCATION AND ENLIGHTENMENT OF WOMEN

Abstract: The article highlights the high attention given to national heritage, traditions, and intellectual development in Azerbaijan's modern cultural policy. It is emphasized that such an approach also contributes to the recognition of Azerbaijani culture in the international arena and the successful conduct of cultural diplomacy. The article examines research related to the enlightenment of women at the beginning of the 20th century. Articles on women's rights and their place in society published in periodical press outlets such as "Irshad", "Füyuzat", "Tərəqqi", and "Yeni Füyuzat" are studied. Works like "Women According to Islam and in Islam" by Əhməd Ağaoğlu, and Yusif Ziya Talıbzadə's "A Gift for Women", "Women's Education", and "Men and Women" are analyzed. It is noted that the preservation of such a spiritual heritage and national-ethical values, as well as instilling them in the younger generation, is crucial.

Keywords: Gift for Women, Islamic values, men, Ahmad Aghaoğlu, Yusif Ziya.

Минаханым АСАДОВА

НАЧАЛО XX ВЕКА В НАУЧНОЙ ЛИТЕРАТУРЕ ИССЛЕДОВАНИЯ, СВЯЗАННЫЕ С ПРОСВЕЩЕНИЕМ ЖЕНЩИН

Абстракт: В статье отмечается, что в современной культурной политике Азербайджана уделяется большое внимание национальному наследию, традициям и интеллектуальному развитию. Подчеркивается, что такой подход также способствует признанию азербайджанской культуры на международной арене и успешному проведению культурной дипломатии. Исследуются работы, связанные с вопросом просвещения женщин в начале XX века. В периодических изданиях, таких как «Иршад», «Фюзат», «Тарекки», «Новый Фюзат», публиковались статьи о правах женщин и их месте в обществе. Анализируются работы Ахмеда Агаоглу «Женщина в исламе» и Юсифа Зия Талыбзаде «Подарок женщинам», «Воспитание женщин», «Мужчины и женщины». Отмечается важность сохранения такого духовного наследия, национально-нравственных ценностей и их передачи молодому поколению.

Ключевые слова: Подарок женщинам, исламские ценности, мужчины, Ахмед Агаоглу, Юсиф Зия.

Giriş Azərbaycanın müasir mədəniyyət siyasətində, milli irsə, ənənələrə və intellektual inkişafına olan diqqət yüksəkdir. Mədəniyyətin gücləndirilməsi və inteqrasiyanın bir hissəsi olaraq, gənc nəsil üçün əhəmiyyətli bir təhsil və inkişaf prosesi həyata keçirilməlidir. Bu, tarixi-kulturoloji irsin öyrənilməsi, həmçinin milli kimliyin qorunması və inkişafı baxımından vacibdir. Azərbaycanın mədəni irsi yalnız tarixi hadisələrdən ibarət deyil, eyni zamanda ölkənin zəngin folkloru, sənətkarlıq ənənələri və ədəbiyyatı ilə bağlı bir çox qiymətli bilikləri ehtiva edir. Bu biliklərin gələcək nəsillərə ötürülməsi və dünya mədəniyyətindəki mövqeyimizin daha da möhkəmlənməsi üçün təhsil və tədqiqatların inkişaf etdirilməsi əhəmiyyətlidir. Bu cür siyasət, gəncləri milli köklərə bağlı, eyni zamanda müasir dünyaya uyğun intellektual və yaradıcı düşüncəyə malik vətəndaşlar kimi yetişdirmək məqsədini güdür. Bu məsələnin daha geniş şəkildə müzakirəsi, həmçinin Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması və uğurlu mədəniyyət diplomatiyasının aparılması istiqamətində də faydalı ola bilər.

Xalqımızın tarixən formalaşmış milli mənəvi dəyərləri, genetik yaddaşı, tarixi kimliyini, milli irsini öyrənmək və təbliğ etmək lazımdır. Bu mənada XX əsrin əvvəllərində Azərbaycan ziyalıları, o cümlədən Yusif Ziya Talıbzadə bugünkü nəslə zəngin mənəvi irs qoyub getmişlər. O, Azərbaycan mədəniyyəti tarixində isamşünas alim, tərcüməçi, bədii əsərlərin müəllifi, hərbçi kimi tanınır. [1]

Əsas hissə: XX əsrin əvvəllərində Azərbaycanda qadın hüququnun qorunması ilə bağlı çoxsaylı mühüm əsərlər yazılmışdır. Bu dövrdə Azərbaycanda qadınların

hüquqları ilə bağlı yazılan əsərlər, əsasən maarifçilik və təhsil sahəsindəki islahatlarla əlaqələndirilir. Əlimərdan bəy Topçubaşov XX əsrin əvvəllərində Azərbaycanda qadınların hüquqları ilə bağlı diqqət çəkən yazılar yazmışdır. Onun "Azərbaycan qadını" məqaləsində qadınların maariflənməsinin və cəmiyyət həyatında daha fəal rol oynamalarının vacibliyi vurğulanırdı. Onun fəaliyyətləri qadınların təhsil və hüquqlarının təkmilləşdirilməsi üçün mühüm əhəmiyyət daşıyırdı. Azərbaycan qadınının hüquqları mövzusunda əsərlər müxtəlif mətbu orqanlarda dərc olunmuşdur. "İrşad", "Füyuzat", "Tərəqqi" "Yeni Füyuzat" kimi dövri mətbu orqanlar, qadınların hüquqları və cəmiyyətdəki yeri ilə bağlı məqalələr yayınlanıbdır.

XX əsrin əvvəllərində ictimai fəaliyyəti, əhəmiyyətli məqalələri, tədqiqatları ilə tanınmş Yusif Ziya Talıbzadənin də qadınlrın maariflənməsinə və hüquqlarının mühafizəsinə həsr etdiyi maraqlı əsərləri var. Onlardan biri "Hədiyyeyi nisvan" yəni qadınlara hədiyyə adlanır. Tərtib olunmuş kitabdır. 1903-cü ildə məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin mətbəəsində nəşr olunub. Kitabın adının qadınlara hədiyyə olması birbaşa məna daşıyır. Yəni bu kitab xanımlara pulsuz olaraq hədiyyə verilmişdi. Eyni zamanda kitabın məzmununu da hədiyyə adlandırmaq olar. Bu kitaba gənc xanımların məişəti, gigiyenası, ana olmağa hazırlaşan qadın özünü necə aparmalıdır, necə qidalanmalıdır, yaxud övladı dünyaya gəldikdən sonra uşağa necə qulluq etməlidir kimi mövzularda müxtəlif müəlliflərin məqalələri toplanıb. Yusif Ziya sözü gedən əsərləri rus dilindən tərcümə edərək bir yerə toplamış və risalə halında nəşr etdirmişdir və qadınlara pulsuz paylanmışdır. O dövrdə qadınların dini tərbiyəsi ilə də əlaqədar maraqlı, əhəmiyyətli əsərlər nəşr edilmişdir. Bu mənada dövrün maarifpərvər ziyalılarının məqsədi qadınların mövhumata, xurafata uymadan islamın qaydalarının öyrədilməsi idi. [5]

Azərbaycanın Əməkdar elm xadimi fəlsəfə elmləri doktoru Zümrüd Quluzadə tədqiqatlarında İslamda gender münasibətlərinə xüsusi diqqət yetirməsinin səbəblərini belə izah edir: İslam, Azərbaycan xalqının əsas dinidir; İslamın qadına münasibəti, həm keçmişdə, həm də bu gün ədəbiyyatda çox zaman yanlış və qeyri-dəqiq şəkildə izah olunur; İslamda gender problemləri ilə bağlı ədəbiyyatda tez-tez qadının fanatizm və zülmət içində olduğu, qula çevrildiyi kimi qeyri-obyektiv və populist fikirlər irəli sürülür ki, bu da fərqli dini mənşəyə malik xalqlar arasında qarşıdurmalara səbəb ola biləcək təxribatdır. Z.Quluzadə, bu məsələnin obyektiv şəkildə qiymətləndirilməsi üçün, İslamın həmin problemləri necə təqdim etdiyini yəhudi dini və xristianlıqla müqayisə etməyi uyğun hesab edir. [9]

Eyni zamanda ictimai-siyasi xadim, pedaqoq, publisisr, türkoloq, fundamental elmi əsərlərin müəllifi Əhməd Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" adlı əsərini nümunə gətirə bilərik. Əsər İslamın qadına münasibətini araşdıran və bu mövzuya dair müxtəlif təhlillər təqdim edən mühüm bir tədqiqatdır. Bu əsərdə Ağaoğlu, İslamın qadın hüquqlarına necə yanaşdığını, qadınların sosial mövqeyini və cəmiyyətdəki rolunu dərindən incələyir. Onun bu əsəri, həm İslamın özündəki qadınla bağlı təlimlərin, həm də həmin dövrün sosial və mədəni mühitindəki qadın münasibətlərinin təhlili baxımından əhəmiyyətlidir. Əhməd Ağaoğlu, bu əsərdə, İslamın qadına verdiyi hüquqları və bu hüquqların tarixən necə təhrif edildiyini, eyni zamanda, İslam cəmiyyətlərində qadınların qarşılaşdığı problemləri nəzərdən keçirir. O, qadınların

təhsil alması, iş həyatında və sosial fəaliyyətlərdə iştirak etməsi, eyni zamanda, hüquqlarının qorunması məsələlərini vurğulamışdır. Ağaoğlunun bu əsəri, həm də onun zamanında, xüsusən Osmanlı İmperiyasının son dövrlərində və Azərbaycanın XX əsrinin əvvəllərində qadınların sosial mövqeyini yüksəltmək üçün apardığı mübarizənin bir hissəsi olaraq qiymətləndirilə bilər. O, qadınların hüquqlarının təkmilləşdirilməsi və onların cəmiyyətin inkişafında daha fəal rol oynaması üçün təhsil və maarifçilik sahəsində islahatların həyata keçirilməsinin vacibliyini qeyd edir. Əhməd Ağaoğlunun "İslama görə və islamiyyətdə qadın" əsəri, bu sahədəki müasir düşüncələri və islahatçı yanaşmaları ilə o dövrün ənənəvi düşüncəsinə qarşı çıxmış, eyni zamanda qadınların İslam cəmiyyətində layiqli yerini tapması üçün özəl bir çağırış olmuşdur. [2]

Bu mənada Yusif Ziyanın fars dilindən tərcümə etdiyi "Tərbiyəti nisvan" (Qadınların tərbiyəsi) əsərinin mədəniyyət tarixində özünəməxsus yeri var. Əsərin məzmunu qadınların islamı bilməsi və övladlarını düzgün tərbiyə etməsi məsələlərini əhatə edir. Əsərdə deyilir ki, insanın tərbiyəsi üçün "Kamal, tərbiyə, bəsirtət, mərifət, fəzilət, cəmiyyət dərəcələri lazımdır". Humanizm prinsipini xüsusilə qeyd edən Y.Z.Talıbzadəyə görə "elm və təməddün təkmil olmalıdır ki, insanlar bir-birinə faydalı olsunlar".

Tərbiyə və kamal məsələsində də Y.Z.Talıbzadə bu gün üçün də doğruluğunu mühafizə edən bir pedaqoji prinsipi müdafiə edir ki, "bu hər iki qisim tərbiyə anaların öhdəsinə düşür, sonra atalar çalışmalıdırlar ki, istedadlarına uyğun xəzinələri aşkar edib tərbiyə vermək üçün müəllimlər və tərbiyəçilərin məsləhəti ilə onları yönəltsin" [4, s. 5]. Yoxsa, uşaqların uşaqlıq halında olan istedadlarını müəllim də inkişaf etdirə bilməsə istedad batıb gedər və həyatını bihudə yaşamış olar.

Hər bir mövcudatın tərbiyəsinin yeni növ insanın tərbiyəsinə bağlı olduğunu diqqətə çatdıran Y.Z.Talıbzadə bu prosesin uğurlu nəticəsini "ata ilə ananın ittihadlarına" bağlayır. O, israrla bildirir ki, uşağın tərbiyəsi anadan asılıdır, ona görə də ananın özü tərbiyəli olmalıdır: "Əcəba anaların özlərində tərbiyə olmasa mümkündürmü ki, öz tifillərini lazımınca tərbiyə edib nizami aləmə fayda yetirələr. Əvvəlinci dərəcədə lazım və zəruri olan anaların tərbiyəsidir ki, tainki, onlar öz vəzifələrini yerinə yetirməkdə bəsirətli olsunlar" [4, s. 6]. Y.Z.Talıbzadə qadınların təhsilinə və onların elmi biliklərə yiyələnməsinə mühüm əhəmiyyət verir. O, tarixdən gətirilən ibrətamiz nümunələrlə müasiri olduğu insanlara öz tövsiyələrini belə bu qənaətlə çatdırır: "O xalq ki, elmlidir, alidir qadınlarının da qiymətini bilir" [4, s. 23-24]

"XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti" adlı doktorluq dissertasiyasında mövzuya dair dəyərli araşdırmalar aparmış Gülzar İbrahimova, Ə.Ə.Babazadənin "İslamda evlənmə və ailə hüququ" əsərinə istinadən yazır ki, Azərbaycanda tanrıçılıq fəlsəfəsi çərçivəsində qadının sosial, siyasi və mədəni həyatda iştirakı məsələsinə daha çox azad, humanist və mütərəqqi bir yanaşma ilə yanaşılmışdır. Lakin, Azərbaycan gerçəkliyində İslam dininin təsiri ilə həm mədəni, həm də ictimai təşkilatlanmada müəyyən bir canlanma baş vermişdir. Bu proses qadının ictimai vəziyyətinin dəyişməsinə və mənəvi dəyərləri mənimsəmə imkanının yaranmasına şərait yaratmışdır. Bu tarixi şərait müxtəlif dövrlərdə fərqli şəkildə təzahür etsə də, cəmiyyətin inkişafı ilə əlaqədar yeni sosial-iqtisadi münasibətlər sistemində qadının ailə və ictimai həyatda mövqeyi və rolu azalmış, əksinə kişilərin ictimai mövqeyi və rolu artmışdır. [10,s.24-25].

Yusif Ziyanın 1910-1911-ci illərdə "Yeni Füyuzat" jurnalının müxtəlif saylarında nəşr etdirdiyi on məqalədən ibarət "Erkəklər və qadınlar" əsəri də böyük əhəmiyyət daşıyır. Y.Z.Talıbzadə giriş xarakterli ilk məqaləsində yazır ki, erkək və qadın məsələsi bütün bəşəriyyətə aid bir məsələdir: "Erkək və qadın deyildikdə bəşəriyyəti-cəmiyyətləri təşkil edən, təbii bir erkək ilə qadının ictimai xəyala gəlir" [6]. Müəllif belə bir dəyişməz həqiqəti oxucuların diqqətinə təqdim edir ki, kainatdakı insanlıq aləmində bir kişi ilə bir qadının əlaqəsi ən vacib məqamlardan biridir. İnsanlığın təməli də məhz bundan ibarətdir. Bütün insanlar bu yolla dünyaya gəlir, cəmiyyətlər qururlar. Bütün yaxşılıq və pislik, fayda və ziyan bu yoldan, bu mənbədən yaranır. Belə bir inkar edilməz həqiqəti rədd etmək mümkün deyil. Belə bir birliyə aid olaraq kişi ilə qadınların vəzifələrinin müəyyən edildiyi, buna dair həyat və gündəlik yaşam yollarının açıldığı və bunun vasitəsilə insanların yenidən doğulduğu həqiqətini ifadə edən Y.Z.Talıbzadə bildirir ki, bununla insan həyat mübarizəsinə başlayır, dünyada mövcud olur, kainatın həyatı ilə ölümünü müəyyən edir və bütün fikirlər, müxtəlif məsələlər bu yoldan ortaya çıxır. Bunun sayəsində insanlar millətlərə, fərqli dillərə, müxtəlif siniflərə ayrılır. Nəticə etibarilə, insan cəmiyyətində ilk əsas məsələ olaraq kişi ilə qadın məsələsi önə çıxır. "Məsələmizin çox mühüm, çox ali, son dərəcə müşkül olduğunu bilirik. Bizdən əvvəl də bu yolda yazılmış əsərlərin bir çoxunu da oxuduq, düşündük. Yaxşıca tədqiq etdik, özümüz də tədqiq etmək istədik" [6[.

Silsilə yazılarının "Məhəbbəti müqəddəsə" başlıqlı növbəti məqaləsində [7] müəllif bütün əlaqələrin əsasını təşkil edən məhəbbətin bütün digər məhəbbətləri doğurduğunu vurğulayır. Məhz bu yolla insanlar övladlarını sevər, övladlar isə ata-analarına və yaxınlarına məhəbbət bəsləyər. Bu proseslə qadın və kişilər bir-birlərinin yaxınlarına alışar, millətlərini və vətənlərini sevməyə başlayarlar. Tədricən cəmiyyətlərə və hətta bütün bəşəriyyətə bu məhəbbət təsir edər. Cəmiyyətlər elm və maarifə dəstək verər, sənət və ticarət sahələri inkişaf edər və dünyada hər növ kəşf və yeniliklər, ümumilikdə insanlıq üçün faydalı olan hər şey bu yolla həyata keçirilər. Y.Z.Talıbzadəyə görə, bütün bu çabaların səbəbi olan əlaqələrin təməli, bir kişi ilə bir qadının ailə qurmasına gətirib çıxaran məhəbbətdir ki, bu da inkaredilməz bir gerçəklikdir. Deməli, bir kişi ilə bir qadın arasında yaranan məhəbbət, insanlığın ilk səadəti və cəmiyyətin əsasını təşkil edir. Bir qadınla kişinin məhəbbəti nə qədər saf, nə qədər müqəddəs və nə qədər səmimi və ciddi olarsa, o qədər də bəşəriyyətə və bütün cəmiyyətə təbii ki, müsbət təsir göstərəcəkdir. Y.Z.Talıbzadə ailə münasibətlərində kişi ilə qadının mənəvi aləminin, onların zövqlərinin önəmindən danışır, maddi ehtiyaclarla yanaşı mənəvi ehtiyacların qarşılanmasının da vacibliyini xüsusilə qeyd edir.

Y.Z.Talıbzadə "Məhəbbəti-müqəddisənin təsviri"ndə [8] ailə münasibətlərinin hansı əsaslar üzərində qurulmalı olduğu məsələsini müzakirə edir və öz fikirlərini bildirir. O, qeyd edir ki, mənəvi və səmimi məhəbbət itdikdə, ciddiyyət yox olur və nəticədə maddiyyat və gündəlik həyatla bağlı bir sıra təhlükəli düşüncələrə yol açır.

Y.Z.Talıbzadə bu problemin həlli üçün ailə və məişət həyatında İslamın ruhi-mənəvi dəyərlərinin tətbiq olunmasının vacibliyini vurğulayır və öz tövsiyələrini təqdim edir. O, insanlıq, qarşılıqlı hörmət, sevgi və məhəbbət üzərində qurulmasını istədiyi bir cəmiyyətin hansı şərtlər və vəzifələr əsasında mövcud olacağına dair fikirlərini təqdim

edir. Bu o deməkdir ki, tarixin bütün dövrlərində ailə institutu ictimai inkişafın əsas xüsusiyyətlərini özündə əks etdirmiş və ictimai fikir bu xüsusiyyətləri müxtəlif aspektlərdən ifadə etməyə çalışmışdır. Bu baxımdan ailə institutunun nəzəri cəhətdən araşdırılması problemi Konfutsidən başlayaraq günümüzədək – təxminən iki min il yarım müddətini əhatə edir. Ailənin mövcudluğu və davamlılığı ilə bağlı fəlsəfi, etik, sosial-psixoloji, iqtisadi və digər sahələr üzrə çoxsaylı ədəbiyyat mövcuddur. Bu problemin öyrənilməsi də məhz bu ədəbiyyatlara və biliklərə əsaslanır. Silsilə məqalələrindən verdiyimiz nümunələrdən də aydın olur ki, Y.Z.Talıbzadə bu mövzu üzərində çalışarkən bu ədəbiyyatın mühüm bir hissəsi ilə tanış olmuşdur. Azərbaycan kulturoloji fikri üçün də önəmli olan ailə və qadın problemləri, tarixi inkişaf kontekstində araşdırılmalıdır. XIX əsrin milli oyanış dövrü kimi xarakterizə edilən dövrün ziyalılarının bu mövzuya dair baxışlarının və maarifçilik hərəkatının əldə etdiyi uğurların müasir meyarlar əsasında təhlil edilməsi çox əhəmiyyətlidir. Xüsusilə də, XX əsrin əvvəllərindəki milli-mədəni intibah prosesinin önündə gedən Azərbaycan ziyalılarının ailə və qadın məsələlərinə dair yazdıqları əsərlərin tədqiqi və onlara elmi-tənqidi qiymət verilməsi mühüm rol oynayır. Tarixi təcrübədən müasir gender məsələlərinin həllində və bu təcrübi dərslərdən demokratik vətəndaş cəmiyyəti qurulmasında istifadə olunması olduqca vacibdir. Bu baxımdan, digər ziyalılar, elm, mədəniyyət və din xadimləri ilə birlikdə Yusif Ziya Talıbzadənin kulturoloji irsinin tədqiqi və təbliği də zəruri sayılır.

Bu dövrdə qadın hüquqları məsələsi cəmiyyətin modernləşməsi ilə, təhsil və maarifləndirmə sahəsində həyata keçirilən islahatlarla sıx bir şəkildə əlaqələndirilirdi. Qadınların hüquqları, təhsil və iş həyatında bərabərlik prinsipinə əsaslanan və müasir dövrün ilkin əlamətlərini özündə əks etdirən bir hərəkatın təməlini qoymuşdur.

Nəticə. Yusif Ziyanın əsərlərini təhlil edərkən unutmamalıyıq ki, ümumilikdə dini mövzularda yazılmış əsərlər nə müasirləri, nə də sonrakı dövrün tənqidçiləri tərəfindən birmənalı şəkildə qəbul edilməmişdir. Bu tənqidlərin bəzi haqlı tərəfləri olsa da, həmin əsərlərin milli-əxlaqi dəyərlərin təbliği baxımından tarixi əhəmiyyəti və dəyəri də nəzərdən qaçırılmamalıdır.

Buna görə də Y. Z. Talıbzadənin həm publisistik, həm də ədəbi yaradıcılığının məhsulu olan əsərlərinin tarixi əhəmiyyəti unudulmamalıdır. Mövzuya tənqidi yanaşarkən tarixi şəraitin nəzərə alınması və elmi təhlillərdə obyektivlik prinsipinə riayət edilməsi vacibdir. Onun ayrı-ayrı əsərlərinin sənətkarlıq səviyyəsi və ideya-məzmun mündəricəsi haqqında tənqidi fikirlər irəli sürülə bilər, lakin ümumilikdə bu yaradıcılıq nümunələrinə baxıldığında, Azərbaycanın XX əsrinin əvvəllərinə aid kulturoloji fikir tarixində Y. Z. Talıbzadənin xüsusi bir yeri olduğunu əminliklə söyləmək olar. XX əsrin əvvəllərində olduğu kimi, bu gün də xalqların tarixi inkişafı və təkamülünün əsasını yalnız dövlətçilik ənənələri deyil, həm də zəngin milli-mənəvi irs və ali dəyərlər təşkil edir. Bu ənənə və dəyərlər bir-birini tamamlayaraq, xalqların məfkurə və düşüncə sisteminin, dünyagörüşünün parlaq ifadəsi kimi meydana çıxır. Dünyanın ən qədim xalqlarından biri olan azərbaycanlılar da, tarixən formalaşmış zəngin milli-mənəvi və əxlaqi dəyərlər sistemi ilə bəşər mədəniyyətinə əvəzsiz töhfələr verərək, yüksək və saf ideallara sarsılmaz bağlılıqları ilə daim özünəməxsusluqlarını qorumuşlar.

Müasir qloballaşma dövründə elmi-texniki tərəqqinin sürətli inkişafı real həyatda

yüksək nailiyyətlərə və mütərəqqi dəyişikliklərə səbəb olsa da, bu prosesin tarixi-mədəni irsə, əxlaqi və mənəvi dəyərlərə müəyyən təhlükələr yaratdığı da nəzərə çarpır. Şərq və Qərb sivilizasiyalarının bir-birinə yaxınlaşdığı, bəzən gizli və açıq mübarizələrin aparıldığı bir dövrdə soy-kökə qayıdışın və milli özünüdərk məsələlərinin böyük əhəmiyyəti vardır. Xalqın tarixən formalaşmış yüksək əxlaqi-mənəvi dəyərlərini pak və sağlam niyyətlərlə qorumaq, bütövlükdə cəmiyyətin pozitiv şəkildə inkişafına təsir göstərmək və onun genetik yaddaşını, tarixi kimliyini, milli irs və özünəməxsusluğunu gələcək nəsillərə ötürmək, çətin bir missiyanı həyata keçirmək deməkdir. Bu isə üzərimizə böyük bir məsuliyyət qoyur. Belə bir varislik ənənəsindən bəhs edərkən unutmamalıyıq ki, XX əsrin əvvəllərində Azərbaycan ziyalıları, o cümlədən Y.Z.Talıbzadə, bu günkü nəsilə zəngin mənəvi irs buraxmışlar. Azərbaycan Respublikasının müstəqillik yolu ilə inamla irəlilədiyi və demokratik, hüquqi, sivil və açıq cəmiyyət qurduğu bir dövrdə, bu mənəvi irsin və milli-əxlaqi dəyərlərin qorunması və gənc nəsilə aşılanması olduqca vacibdir.

Ədəbiyyat

1. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, qovluq 3 (Talıbzadə Yusif Ziya barədə televiziya verilişinin mətni (Tərtib edən: Aybəniz Əliyeva).
2. Ağayev Ə. İslama görə və islamiyyətdə qadın (Rus dilindən tərcümə edəni: R.Şərifov) / "Mədəniyyət dünyası", XII buraxılış, Bakı: 2006, s. 31-50.
3. Quluzadə Z. Gender Azərbaycanda. Bakı: UNFPA, BMT-nin Əhali Fondunun nəşri, 2003, 326 s.
4. Talıbzadə Y.Z. Tərbiyəti nisvan. Bakı: Əvvəlinci Şirkət mətbəəsi. 1902 (1319), 90 s. Abdulla Şaiqin Mənzil Muzeyinin arxivi, inv. № 246
5. Talıbzadə Y.Z. "Hədiyyeyi-nisvan." Bakı: Əvvəlinci Şirkət mətbəəsi. 1903 (1319), 90 s.
6. Talıbzadə A.Y. Erkəklər və qadınlar ictimai // "Yeni Füyuzat", 7 dekabr 1910-cu il, № 8, s. 5.
7. Talıbzadə A.Y. Məhəbbəti müqəddəsə // "Yeni Füyuzat", 14 dekabr 1910-cu il, № 9, s. 4.
8. Talıbzadə A.Y. Məhəbbəti-müqəddisənin təsviri // "Yeni Füyuzat", 21 dekabr 1910-cu il, № 10, s. 4.
9. Əsədli M.R. Yusif Ziya Talıbzadə (1877-1923), (Monoqrafiya) Post Yayın Dağıtım, TC İstanbul, 2019 417 səh.
10. İbrahimova G.İ. XIX-XX əsrlərdə Azərbaycanda qadın siyasəti: Siyasi elm. dok.dis. avtoref. Bakı, 2011, 56 s.

Məqalənin redaksiyaya daxilolma tarixi: 27.12.2024
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 10.01.2025
Məqalənin çapa qəbul olunma tarixi: 27.01.2025

UOT: 94 (479.24)
Əli FƏRHADOV
Milli Azərbaycan Tarixi Muzeyi,
tarix üzrə fəlsəfə doktoru, dosent
ali_farhadov@yahoo.com
https://orcid.org/0000-0002-9322-3670
DOI: doi.org/10.61226/12.2.2023/20251.14

CURCİ ZEYDANIN "İSLAM MƏDƏNİYYƏTİ TARİXİ" ƏSƏRİNDƏ TÜRK-İSLAM MƏDƏNİYYƏTİNƏ BAXIŞ

Xülasə: Curci Zeydan islam mədəniyyəti tarixinə dair mühüm əsərlər yazan ərəb yazıçısı və tarixçisidir. C.Zeydanın (1861-1914) islam mədəniyyəti ilə sıx bağlı olan bir sıra əsərləri türkcəyə, Azərbaycan dilinə tərcümə olunmuşdur. Məqalədə bu əsərlər, tərcümələri və müəllifləri haqqında məlumat verilir. Bu əsərlərin XX əsrin əvvəlində türk dillərinə tərcüməsi Osmanlı ziyalısı Zeki Mugamizə, Azərbaycan mütəfəkkirləri - Mirabbas Mirbağırova, Əliabbas Müznibə və Mirməhəmmədkərim əl-Bakuviyə məxsus olub islam tarixi və mədəniyyətinin tədqiqi, dini maarifçilik baxımından böyük əhəmiyyətə malikdir. C.Zeydanın digər əsərləri içində "İslam mədəniyyəti tarixi" əsəri mühüm yer tutur. Bu əsər islam tarixi və mədəniyyəti baxımından böyük əhəmiyyət daşıyır. Bu əsər İslam tarixində müxtəlif dövrlərdən, mədəni və ictimai inkişaflardan bəhs edir. C.Zeydan tarixi hadisələri və şəxsiyyətləri ətraflı şəkildə araşdıraraq islam mədəniyyətinin zənginliyini və dərinliyini oxuculara təqdim etməyi qarşısına məqsəd qoymuşdur. Əsər həm elmi dairələrdə, həm də geniş oxucu kütləsinin diqqətini cəlb etmişdir. C.Zeydan əsərlərində türklərə və türk tarixinə də yer verib. Xüsusilə "İslam mədəniyyəti tarixi" əsərində ərəb xilafəti dövründə türklər, türklərin islam dünyasındakı rolu, Səlcuqlu və Osmanlı İmperatorluğu kimi mühüm türk dövlətlərinin tarixinə müəyyən qədər diqqət yetirmişdir. C.Zeydan türklərin islam mədəniyyətinə verdiyi töhfələri, mədəni əlaqələri və tarixi hadisələrdəki yerini araşdıraraq türklərin islam tarixindəki əhəmiyyətini vurğulamışdır. O, əsərlərində türklərin hərbi, siyasi və mədəni təsirlərindən bəhs etməklə onların islam tarixindəki yerini daha yaxşı anlamağa kömək etmişdir. Əsərdə azərbaycanlıların islam tarixində və mədəniyyətində oynadığı rollar haqqında müəyyən məlumatlar var. Bu əsərin türk dillərinə ilk tərcüməsi Z.Mugamizə və M.Mirbağırova məxsusdur. Məqalədə C.Zeydanın həyat və yaradıcılığından bəhs edilmiş, "İslam mədəniyyəti tarixi" əsəri əsasında türklərin, o cümlədən azərbaycanlıların türk-islam tarixində və mədəniyyətində oynadıqları rol haqqında məlumat verilmişdir.

Açar sözlər: Curci Zeydan, Azərbaycan, islam mədəniyyəti, tərcümə

Ali FARHADOV

A LOOK AT TURKISH-ISLAMIC CULTURE IN JURJI ZAYDAN'S "HISTORY OF ISLAMIC CULTURE"

Abstract: Jurji Zaydan is an Arab writer and historian who wrote important works on the history of Islamic culture. A number of works by J. Zaydan (1861-1914) closely related to Islamic culture have been translated into Turkish and Azerbaijani. The article provides information about these works, their translations and authors. The translation of these works into Turkish languages at the beginning of the 20th century belongs to the Ottoman intellectual Zeki Mugamiz, Azerbaijani thinkers - Mirabbas Mirbagirov, Ali Abbas Muznib and Mirmuhammadkarim al-Bakuvi, and is of great importance in terms of the study of Islamic history and culture, and religious enlightenment. Among J. Zaydan's other works, the work "History of Islamic Culture" occupies an important place. This work is of great importance in terms of Islamic history and culture. This work deals with various periods, cultural and social developments in Islamic history. J. Zaydan aimed to present the richness and depth of Islamic culture to readers by examining historical events and personalities in detail. The work attracted the attention of both academic circles and a wide readership. J. Zaydan also included Turks and Turkish history in his works. In particular, in his work “History of Islamic Culture”, he paid some attention to the Turks during the Arab Caliphate, the role of Turks in the Islamic world, and the history of important Turkish states such as the Seljuk and Ottoman Empires. J. Zaydan emphasized the importance of Turks in Islamic history by examining the contributions of Turks to Islamic culture, cultural relations and their place in historical events. He helped to better understand their place in Islamic history by discussing the military, political and cultural influences of Turks in his works. The work contains certain information about the roles played by Azerbaijanis in Islamic history and culture. The first translation of this work into Turkish languages belongs to Z. Mugamiz and M. Mirbagirov. The article discusses the life and work of George Zaydan, and provides information on the role played by Turks, including Azerbaijanis, in Turkish-Islamic history and culture based on his work "History of Islamic Culture".

Keywords: Jurji Zaydan, Azerbaijan, Islamic culture, translation

Али ФАРХАДОВ

ВЗГЛЯД НА ТУРЕЦКО-ИСЛАМСКУЮ КУЛЬТУРУ В РАБОТЕ ДЖУРДЖИ ЗЕЙДАНА «ИСТОРИЯ ИСЛАМСКОЙ КУЛЬТУРЫ»

Абстракт: Джурджи Зейдан – арабский писатель и историк, написавший важные труды по истории исламской культуры. Ряд произведений Дж. Зейдана (1861-1914), тесно связанных с исламской культурой, переведен на турецкий и азербайджанский языки. В статье представлена информация об этих

произведениях, их переводах и авторах. Перевод этих произведений на турецкие языки в начале XX века принадлежал османскому интеллектуалу Зеки Мугамизу, азербайджанским мыслителям - Мираббасу Мирбагирову, Алиаббасу Музнибе и Мирмохаммедкариму аль-Бакуви и имеет большое значение с точки зрения изучения Исламская история и культура и религиозное просвещение. Среди других произведений Дж. Зейдана важное место занимает труд «История исламской культуры». Эта работа имеет большое значение с точки зрения исламской истории и культуры. Эта работа рассказывает о разных периодах, культурных и социальных событиях в истории ислама. Ч. Зейдан стремится представить читателям богатство и глубину исламской культуры, подробно рассматривая исторические события и личности. Работа привлекла внимание как научных кругов, так и широкой читательской аудитории. Ч. Зейдан также включал в свои произведения турок и турецкую историю. Особенно в работе «История исламской культуры» он уделил некоторое внимание истории важных турецких государств, таких как турки во времена Арабского халифата, роли турок в исламском мире, а также Сельджукской и Османской империй. Ч. Зейдан подчеркнул важность турок в исламской истории, исследуя вклад турок в исламскую культуру, их культурные связи и их место в исторических событиях. Рассказывая в своих произведениях о военном, политическом и культурном влиянии тюрков, он помог лучше понять их место в истории ислама. В работе содержатся определенные сведения о роли азербайджанцев в исламской истории и культуре. Первый перевод этого произведения на турецкие языки принадлежит З. Мугамизе и М. Мирбагирову. В статье на основе труда «История исламской культуры» рассмотрены жизнь и творчество Дж. Зейдана, дана информация о роли тюрков, в том числе азербайджанцев, в тюрко-исламской истории и культуре.

Ключевые слова: Джурджи Зейдан, Азербайджан, исламская культура, перевод

Giriş

Curci Zeydan (1861-1914) ərəb tarixi roman janrının banilərindən biri olub Beyrutda, bəzi mənbələrə görə Misir əsilli xristian bir ailədə dünyaya gəlmişdir. Beyrutda mədrəsədə, Amerikan protestant kollecində və Qahirədə Qəsrül-ayni tibb mədrəsəsində bir müddət təhsil alaraq əczaçılıq diplomu almışdır. Lakin o, ali təhsilini davam etdirmək istəsə də, maddi səbəblərdən bu, mümkün olmadı. Bundan sonra C.Zeydan hərbi tərcüməçiliyə, səyahətlər etməyə, publisistik və pedaqoji idarəçilik fəaliyyətinə, əsərlər yazmağa başladı [19, s.69]. Latınca, ingiliscə, fransızca, almanca, süryanicə, ibranicə bilən C.Zeydan tarix, ədəbiyyat, tarixi roman və sosial mövzularda bir çox əsərlərin müəllifidir. Onun əsərləri, həmçinin nəşr etdirdiyi "əl-Hilal" məcmuəsi öz dövründə geniş ictimaiyyət üzərində böyük maarifçi təsirə malik olmuş, müəllifə Misir Universitetinin islam tarixi üzrə professor elmi adı verilmiş və universitetdə dərs demişdi [19, s.69; 27].

C.Zeydan öz adını tarixdə əbədiləşdirəcək beş cildlik "Tarixu-t-təməddüni-l-islami" ("İslam mədəniyyəti tarixi"), ona əlavə olaraq yazılmış "Tarixu-l-arab qablə-l-islam" ("İslam öncəsi ərəblərin tarixi"), dörd cildlik "Tarixu ədəbi-l-lüğəti-l-ərəbiyyə" ("Ərəb ədəbiyyatı tarixi"), və s. nəhəng əsərlər, tarixi romanlar qoyub getmişdir. Dünyaca məşhur olan bu ərəb yazıçısı "İslam mədəniyyəti tarixi" adlı tədqiqat əsərində ərəblərin cahiliyyət dövrü də daxil olmaqla orta əsrlər dövrünün islami, ədəbi-mədəni, elmi-fəlsəfi, dini-ictimai həyatını qədim ərəb tarixçilərinin, filosof və səyahətçilərinin əsərlərinə istinad etməklə araşdırmış, mənbələr əsasında islam mədəniyyətinin inkişaf yolu haqqında olduqca samballı tədqiqat əsəri yazmışdır [4, s.198]. Rusiya şərqşünaslıq məktəbinin banilərindən biri olan akademik V.Bartold C.Zeydanın "İslam mədəniyyəti tarixi" əsəri haqqında müsbət fikirlər söyləmişdir. O, əsərdə bəzi mübaliğələr olsa da, onun Abbasilər sarayının əzəməti və ehtişamı, bu dəbdəbəli həyatda qeyri-ərəb bölgələrindən alınan yüksək vergilər, Abbasi sarayında həyat və Abbasi müəssisələri haqqında [18, s.158-159, 166] və qeyri-ərəblərin islam mədəniyyətində və elm tarixində oynadığı rol barədə [18, s.143] ətraflı məlumat verdiyini qeyd edir. Azərbaycan şərqşünası, t.e.d. N.Əliyeva da C.Zeydan irsinə böyük əhəmiyyət vermiş, onun - "Bir millətin həqiqi tarixi onun mədəniyyət tarixidir" fikrini vurğulamışdır [12, s.6]. XIX əsrin hindistanlı müsəlman tarixçi alimi Mövlana Şibli Numani və başqaları tərəfindən C.Zeydanın əsərlərindəki məlumatların əskik olması, zəif rəvayətlərə əsaslanması kimi tənqidlər yönəldilmişdir [19, s.70; 20, s.52; 23, s.22]. Lakin C.Zeydanın bir sıra tarixi romanlarını Azərbaycan türkcəsinə tərcümə edən əl-Bakuvi C.Zeydanın etibarlı qaynaqlara əsaslandığını göstərərək onun fikirlərinin "mötəbər kitablardan əxz" olunduğunu bildirmişdir [8, s.3]. Əsərlərində ərəb millətçiliyini tənqid edən C.Zeydan Əməvilərin timsalında ilk islam dövlətinin məhz ərəb millətçiliyi prinspinə söykəndiyini iddia edirdi [11, s.166-167; 22, s.144-145]. Məqalədə C.Zeydanın əsərlərinin əsasən M.Mirbağırov, Z.Mugamiz və M. əl-Bakuvi tərəfindən edilən tərcümələrindən istifadə edilmişdir.

1. Curci Zeydanın "İslam mədəniyyəti tarixi" əsərində türk-islam mədəniyyətinə dair

C.Zeydanın 1902-1906-cı illərdə Qahirədə ərəb dilində "İslam mədəniyyəti tarixi" əsəri islamdan əvvəlki ərəb dövlətləri və mədəniyyətindən başlayaraq Məhəmməd peyğəmbər və ilk xəlifələr dövrü, Əməvi, Abbasi xilafətləri, Əndülüs Əməviləri, Fatimilər, Əyyubilər, Səlcuqilər, monqol işğalları, Osmanlı dövrünü, ictimai-siyasi, sosial-iqtisadi, ticari, elmi-mədəni, ədəbi, dini, hərbi prosesləri ehtiva edir. Əsər XX əsrin əvvəlində Osmanlı türkcəsinə və Azərbaycan türkcəsinə tərcümə edilmişdir. Əsərin bu tərcüməsi "Medeniyet-i islamiyye tarixi" adı ilə XX əsrin əvvəllərində İstanbul "şehremaneti" (bələdiyyə) katibi olaraq çalışan və Osmanlı xristianlarından olan [13, s.223; 19, s.69] Z.Mugamizə məxsusdur. C.Zeydan iki səbəbdən bu əsəri yazdığını göstərir: 1-Orta əsr islam tarixçilərinin bitərəf olmaması,

ancaq hərbi xarakterli məlumatları nəql edib mədəni-tarixi hadisələr arasında əlaqə, elmi hökm və nəticəni göstərməmələri; 2-Qərb şərqşünaslarının islam və Qərb mədəniyyətləri arasındakı irtibat haqqında müəllifə çoxsaylı müraciətləri səbəbilə ehtiyac hiss etdiyini qeyd edir. Özünə qədərki müsəlman ərəb müəlliflərinin sadəcə hərb tarixini yazması ilə kifayətlənməsini tənqid edən [23, s.14] C.Zeydan islam mədəniyyəti tarixini yazmaq ehtiyacını hiss etmiş və belə demişdir: "Bir millətin həqiqi tarixi o millətin mədəniyyət tarixindən ibarətdir. Belə bir tarix kitabına ehtiyac isə zəruridir" [25, s.3-4]. Əsərdə orta əsr islam tarixi qaynaqları ilə yanaşı Qərb şərqşünaslarının əsərlərindən də geniş istifadə edilmiş və qaynaqlar təqdim edilmişdir [23, s.21].

Bu əsərin Azərbaycan türkcəsinə tərcüməsi XX əsrin əvvəllərində Mirabbas Mirbağırov tərəfindən edilmişdir [11]. M.Mirbağırov əsərin tərcüməsinə yazdığı müqəddimədə C.Zeydanı "fəzilətli möhtərəm", bu əsəri "islam aləmi üçün bir töhfə" adlandırmış, "indiyə qədər islamiyyətə dair bu qədər geniş məlumatlar verən, bu mərtəbədə əhəmiyyətli bir əsər görmədik, eşitmədik"deyə bildirmişdi [11, s.7]. İslam mədəniyyəti sahəsində dəyərli bir əsər olduğu üçün C.Zeydanın bu kitabı XX əsrin əvvəllərindən etibarən ingilis, rus, urdu və fars dillərinə də tərcümə edilmiş, Türkiyənin ilahiyyat fakultələrində dərs kitabı kimi oxudulmuşdur [23, s.24]. Bu əsər Z.Mugamizin osmanlıca tərcüməsi "Medeniyyet-i islamiyye tarihi" adı ilə 1909-1911-ci illərdə [25], sonra "İslam medeniyeti tarihi" adı ilə latın əlifbasına transliterasiya edilərək 1976-1978-ci illərdə [23, s.24], daha sonra isə Nejdet Gök tərəfindən müasir türkcəyə tərcümə edilərək "İslam uygarlıkları (sivilizasiyalar-Ə.F.) tarihi" adı ilə 2000-ci illərdə İstanbulda nəşr edilmişdir [23; 24].

İslam tarixini dünya tarixinin ən əhəmiyyətli səhifəsi sayan C.Zeydan əsərinin müqəddiməsində yazır ki, islam köhnə tarixi yeni tarixlə birləşdirir. Qədim sivilizasiya İslam tarixi ilə bitir [23, s.13].

C.Zeydanın bu əsərində Azərbaycan tarixinə dair də qiymətli məlumatlar var. Məsələn, Abbasi xilafətini lərzəyə salan xürrəmi üsyanı və onun rəhbəri Babək haqqında verilən məlumatda xürrəmilərin ruhun köç etməsinə inandıqları göstərilir. Həmçinin bu üsyanın Abbasilər üçün böyük təhdid olduğu, xilafətin türk sərkərdəsi Afşin ibn Kavusun yardımı sayəsində üsyançılara qalib gəldikləri qeyd olunur [24, s.493-494].

Qeyd edək ki, C.Zeydanın bu əsərinə bəzi tənqidlər də edilmişdir. Onlardan ən məşhuru XIX əsrin hindistanlı müsəlman tarixçi alimi Mövlana Şibli Numaniyə məxsusdur. Onun 1912-ci ildə yazdığı "əl-İntqad alal-təməddüni-İslam" ("İslam mədəniyyətinə tənqid") əsəri öncə Misirdə "əl-Mənar" məcmuəsində, sonra türk istiqlal şairi Mehmed Akifin türkcəyə tərcüməsilə "Səbilür-rəşad" mecmuəsində 1913-ci ildə dərc edilmişdir. Mehmed Akif tərcüməyə yazdığı müqəddimədə C.Zeydanın xristian olması səbəbilə əsərinə etimadsızlıq göstərmişdir [14]. Lakin qeyd edək ki, C.Zeydan xristian olsa da, islam öncəsi cahiliyyə ərəblərinin qız uşaqlarını öldürmək kimi vəhşi adətlərinə islam sayəsində son qoyulduğunu göstərmiş [3, s.404-405], ərəblərin müsəlmanlaşandan sonra elm və təhsilə,

mədəniyyətə əhəmiyyət verdiklərini, dünya sivilizasiyasına töhfə verdiklərini qeyd etmişdir [20, s.87].

C.Zeydanın Əməviləri islam dövləti yox, şovinist ərəb səltənəti sayaraq sərt tənqid etməsi, onların qeyri-ərəb müsəlmanlara kölə kimi rəftarını çox qınaması, M.Ş.Numani tərəfindən obyektiv sayılmamışdır [15]. Lakin M.Ş.Numani Əməvilərin ilk xəlifəsi Müaviyənin - "Mənə elə gəlir ki, bunlar (qeyri-ərəb müsəlmanlar) ərəblərin səltənətinə qarşı üsyan edəcəklər. Onun görə də onların yarısını öldürmək fikrindəyəm" [16] sözünü nəql etməklə əslində C.Zeydanın haqlılığını ortaya qoyur. Quranın "əl-Hucurat"-13-cü - "Ey insanlar! ... bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız ən çox təqvalı olandır " ayəsi və "Ərəbin əcəmə, əcəmin də ərəbə bir üstünlüyü yoxdur. Üstünlük ancaq təqvadadır" [21, s.450, 456] hədisi də C.Zeydana haqq qazandırır. Müaviyənin sərkərdəsi Amr ibnül-Asın cizyə vergisinin miqdarını soruşan birinə - "Siz bizim xəzinəmizsiniz. Ehtiyacımız çoxalsa çox, azalsa az alarıq" [13, s.242; 17] sözü də Əməvilərin ərəb şovinizminə və soyğunçuluğuna işarədir.

Əməvilər ölkədə radikal ərəb millətçiliyi siyasəti icra edərək qeyri-ərəbləri assimilyasiya edirdilər. İlk Əməvi xəlifələrindən biri olan Əbdülməlik ibn Mərvan xilafətin bütün əyalətlərində, hətta qeyri-ərəb bölgələrində divanxanalarda rəsmi dili ərəbcə etmiş, ərəb dili bütün imperiyada dövlət dilinə çevrilmişdi. Bütün dövlət məmurlarının müsəlman olması məcburiyyəti əmri verilmişdi. Bu proses ərəbcənin bütün dövlət ərazisində ümumişlək dil olmasına və qeyri-ərəblərin ərəbləşməsinə səbəb oldu. Quranın, yəni din dilinin ərəbcə olması da müsəlmanların bu dilə əhəmiyyət verməsinə təsir etdi. Bütün hökumət məmurlarının ərəb libası geyinməsi məcburiyyəti də Əbdülməlik ibn Mərvanın əmri ilə olmuşdu [11, s.166-167]. Əməvilər dövründən etibarən Suriya, Misir, İraq və Şm.Afrika əhalisi tamamilə ərəbləşmiş, İran, Türküstan və s. qeyri-ərəb bölgələrin ana dilinə ərəb dili qarışmış, yazılarını ərəb hərfləri ilə yazmağa başlamışlardır. Bu, ərəb mədəniyyətinin qeyri-ərəblərə güclü təsirini göstərirdi [22, s.144-145].

Əməvilər öz mənfəətləri üçün ərəb xalqına da zülm etmiş, peyğəmbər övladlarını şəhid etməkdən çəkinməmişdilər. Yezid ibn Müaviyənin hakimiyyəti qəsb etməsilə əlaqədar hz. Hüseynin qiyamı zamanı əhli-beyt təmsilçiləri, peyğəmbərin nəvə-nəticələri qətl edilmişdi. Abdullah ibn Zübeyrin Əməvilərə qarşı Məkkədə üsyanı zamanı xəlifə Əbdülməlik ibn Mərvanın əmri ilə Həccac ibn Yusifin komandanlıq etdiyi Əməvi ordusu tərəfindən Kəbə mancanaqlarla dağıdılmışdı [11, s.164-165]. C.Zeydanın bu hadisələrdən bəhs edən "əl-Həccac b. Yusif" adlı tarixi romanı da var. Əməvilər öz hakimiyyətləri dövründə məscidlərdə hz. Əliyə və əhli-beytə lənət oxutmuşdular. Təkcə xəlifə Ömər ibn Əbdüləziz bunda istisnadır. O, öz hakimiyyəti dövründə bu adəti islama zidd olduğu üçün aradan qaldırmışdı. Ömər ibn Əbdüləziz zahid bir şəxs olub II xəlifə Ömər ibn Xəttabın nəslindən idi və öz babası kimi xəlifə olub öz qohumlarının, Əməvilərin mal-mülk və vəzifəyə sahiblənməsinin qarşısını almışdı. Buna görə də onu istəməyən əməvilər tərəfindən zəhərlənib öldürülmüşdü [11, s.168]. Ondan sonra hakimiyyətə gələn Yəzid isə

C.Zeydanın qaynaqlar əsasında verdiyi məlumata görə hakimiyyətə gəldiyi gündən əyyaşlığa qurşanan, şəraba-içkiyə hədsiz meyilli olan bir şəxs idi, dövlət qarşısındakı məsuliyyətini dərk etmirdi. Yəzid günlərini xilafəti idarəçilikdən daha çox gənc qızlarla əyləncədə keçirirdi. Yəzidin xilafətdə nə baş verməsindən xəbəri yox idi. Təəssüf ki, bu cür ləyaqətsiz xəlifələr də islam tarixinin ilk dörd "raşidi (doğru) xəlifə"si kimi "əmir əl-müminin" (möminlərin əmiri) adlandırılmışdır [2, s.269-270].

Əməvilərin taxtdan qovulmasında və Abbasilərin hakimiyyətə gəlməsində iranlılar mühüm rol oynadılar. C.Zeydan yazır ki, Əməvilər dövləti həqiqi bir ərəb dövləti idi. Abbasilər dövlətindən fərqli olaraq Əməvilərin bütün valiləri, hökumət adamları, hətta məmurları bəzi katiblər, həkimlər və s. istisnalar olmaqla ərəb idilər. Abbasilər dövründə isə onların hökumət işləri iranlıların əlində idi. Çünki Abbasilərin hakimiyyətə keçməsində iranlılar mühüm rol oynadı. Hakimiyyətə iddialı olan Haşimilərdən olan Abbasilər Əməvilərin zəiflədiyi dövrdə iranlı Əbu Müslim Xorasanini öz tərəflərinə çəkərək öz dövlətlərini qura bildilər. Əbu Müslimin nüfuzundan qorxub onu daha sonra qətl etsələr də, vəzirlik müəssisəsi iranlıların əlində qaldı. Bu müəssisəni ərəblər İran mədəniyyətindən almışdılar. Abbasi vəzirlərinin ən məşhuru iranlı Bərməkilər idi. Bərməkilər Harun ər-Rəşidin zamanında demək olar ki bütün hökumət idarələrində əsas söz sahibi idilər və ölkəni istədikləri kimi idarə edirdilər. Buna görə də sonunda təhlükəli sayıldıqları üçün xəlifə Harun ər-Rəşid tərəfindən məhv edildilər [11, s.173-176]. Harun ər-Rəşidin dövründə Bərməkilərdən Fazil İbn Yəhya Şirvan da daxil olmaqla türk vilayətlərinin hakimi təyin edilmişdi [22, s.202]. Bərməkilərin süqutuna səbəb kimi Harun ər-Rəşidin vəziri Cəfər Bərməkinin xəlifədən artıq nüfuz sahibi olması və xəlifənin bacısı Abbasə ilə qeyri-qanuni evlilik həyatı sürərək xəlifəni təhqir etməsi göstərilir. Bu hadisələr ədəbi dillə C.Zeydanın "Ər-Rəşidin bacısı" tarixi romanında qələmə alınmışdır [5, s.17-22]. C.Zeydanın Abbasilər dövrünü əks etdirən "Əbu Müslim əl-Xorasani", "əl-Əmin və-l-Məmun" və s. tarixi romanları da vardır.

Mötəsim Billahın xəlifəliyi dövründə sarayda və ölkədə türklərin nüfuzu artdı. Mötəsim Billah ərəblərə etibar etmir, öz mühafizəsini qeyri-ərəblərdən, xüsusilə türklərdən təşkil edirdi. O, daha öncədən Türküstandan gətirilmiş türk kölələrinə, qulamlara mənsəb verməyə başladı. Bu kölələrə "məmlük – köləmən" deyirdilər [22, s.130-131]. Türklərin ən yaraşıqlılarına və ən sağlam olanlara saraylarda qulluq, vəzifə verirdilər. Daha sonra türkləri silahlandırıb onların sayca çoxluğuyla fəxr etməyə başladılar. Xəlifə Mötəsim Billahın zamanında bu türk hərbçilərin sayı 20 minə çatmışdı. Onlar islamı qəbul edib təlim-tərbiyə aldıqları üçün mühüm dövlət vəzifələrinə, xəlifənin xüsusi mühafizəsinə, hətta vilayət əmirliyinə və hərbi komandanlığa gətirildilər. Beləliklə, yuxarı dövlət vəzifələri qeyri ərəblərin, əsasən iranlıların və daha sonra türklərin əlində cəmləşdi. Xəlifə Mötəsim Billah Türküstandan gətirdiyi türk kölələrdən "Fərqanə" adlı özünə tabe hərbi mühafizə birliyi qurmuşdu [11, s.176-177].

Abbasilər zamanında orduda pulun təsiri artmışdı. Xəlifələrin gücü ordudakı hərbçilərə verilən pulun, bəxşişin miqdarından asılı idi. Abbasi ordusundakı türk

hərbçilərinin qələbələri onlara verilən pulun miqdarından asılı idi. Hər dəfə xəlifə dəyişəndə türk hərbçilər beyət haqqı və ya illik maaş tələb edirdilər [22, s.121-122]. Abbasilər dövləti zəiflədikdə bir-birlərinə rəqib olan iranlı və türk əmirlərin, hərbçilərin nüfuzu altına düşdülər. Abbasilər dövlətinin zəifləməsinin və dağılmasının səbəbi qeyri-ərəblərin, o cümlədən türklərin saraydakı nüfuzu idi [22, s.131, 135-136]. Suriya və Əndülüs Əməvilərini sırf ərəb dövlətləri kimi xarakterizə edən C.Zeydan Abbasilər dövlətinin tarixini fars və türk dövrü kimi təqdim etmişdir [24, s.293, 379, 459, 511].

Xəlifə Mötəsim Billahın zamanında türk hərbçiləri ərəbləri saymayaraq Bağdad əhalisinə zülm edirdilər. Xalqın şikayətindən sonra bu türk hərbçilərinin yerləşməsi üçün xəlifənin əmri ilə Samarra şəhəri salındı. Xəlifə də orada iqamətə başladı. Bu türk mühafizlərin və əsgərlərin sayəsində bir müddət sonra hakimiyyət ərəblərin əlindən çıxdı, bütün nüfuz türklərin əlinə keçdi [22, s.225-226]. Mötəsim Billah əmr verərək ərəb məmurları işdən çıxartdırmış, onların maaşlarını kəsmişdi. Məşhur ərəb şairi Dabel Hizai xəlifələrin artıq ərəblər tərəfindən sevilmədiyinə işarətlə o dövrdə yazırdı: "Həmd olsun, artıq heç kimin nə ölümünə kədərlənməyə, nə də yeni taxta keçənə sevinməyə ehtiyac qalmadı. Xəlifənin biri ölər, digəri gələr. Lakin heç kim nə gedənə üzülər, nə də gələnə sevinər" [22, s.238].

IX əsrin ortalarından sonra Abbasilərin zəiflədiyi dövrlərdə artıq türk əmirləri mərkəzi hakimiyyətə qarşı çıxır, müstəqilləşməyə çalışırdılar. Xəlifə Müqtədir Billahın valilərindən olan Sacilər də Azərbaycanda bu şəkildə qüvvətlənmişdi [22, s.227]. C.Zeydan yazır ki, nüfuzlu türk komandanları xəlifə tərəfindən əmir, əmir əl-üməra (əmirlər əmiri-Ə.F.) ləqəbini alırdılar. Daha sonra əmir əl-üməra ləqəbi dəyərsiz görüldüyündən islam tarixində ilk sultan ləqəbi Mahmud Qəznəviyə verilmişdir. Sonralar Səlcuqilər, Osmanlılar və digərləri sultan adını almışdır [22, s.214-215]. Qəznəvilər və Səlcuqilər müstəqillik uğrunda mübarizə edib xəlifələr üzərində nüfuz qazanmışdılar. Lakin onlar yenə də xəlifənin razılığını almağa çalışır və sultan adı ilə kifayətlənirdilər, Abbasi xəlifəsi adına xütbə oxutdururdular [22, s.159-160]. C.Zeydan türklər haqqındakı dəyərləndirmələrində çox vaxt ərəb millətçisi kimi subyektiv, elmilikdən uzaq hərəkət etmişdir [23, s.22]. Məsələn, o, ilk səlcuqilərin Abbasi xəlifələri tərəfindən vəzifə almaq üçün müsəlman olduqlarını qeyd etmiş, lakin bunun qaynağını göstərməmişdir [20, s.52]. C.Zeydanın II xəlifə Ömər ibn Xəttabın əmri ilə İsgəndəriyyə kitabxanasının guya yandırıldığı iddiası, bunu ilk müsəlman ərəblərin islamı gücləndirmək naminə etmələrini yazması və s. yanlış iddialar M.Ş. Numani, M.Akif və bir çoxları tərəfindən ilk qaynaqlara əsaslanmadığı üçün tənqid edilmişdir [14; 20, s.87].

Səlcuqilər dövründə islam mədəniyyəti, islam elmləri inkişaf etdi. Səlcuqi vəzirlərindən Nizamülmülk bir çox islahatlar həyata keçirmiş, ilk dəfə olaraq Bağdadda öz mədrəsələrini, öz adıyla məşhur olan Nizamiyyə mədrəsələrini açdırmışdı. O, iyirmi il ərzində Səlcuqi sultanı Alparslanın və Məlikşahın vəziri olmuş, əslində sultanların adından dövləti özü idarə etmişdi [22, s.235].

IX əsrin ortalarından sonra Abbasi xilafətinin zəiflədiyi dövrlərdə xəlifələrin

hərbi-siyasi nüfuzu o qədər azalmışdı ki, hakimiyyətləri ancaq İraq ərazisi ilə, daha sonralar süqut ərəfəsində isə ancaq Bağdadda dini rəhbərliklə məhdudlaşırdı. C.Zeydan türk və məğribli (Afrikadan olan bərbərlər-Ə.F.) əmirlərin nüfuzu nəticəsində Abbasi xəlifələrinin düçar olduğu durumu "zəlillik" adlandırmışdır [11, s.178-180].

C.Zeydan islam dövlətlərinin və Abbasi xilafətinin monqol-tatar hökmdarı Hülakü tərəfindən məhv edilməsini islam aləminin süqutu kimi təqdim etmişdir [20, s.52; 24, s.535]. Son Abbasi xəlifəsi Müstəsim Billahın qətliamdan qaça bilən qohumları Misirin türk məmlüklərinə sığındılar və xəlifəliyi orada davam etdirdilər [11, s.180]. C.Zeydan islam tarixinin ilk dövrünü "vəhşi və barbar" monqol-tatar hücumları və Teymurilərlə sonlandırmışdır [20, s.53, 57].

Xəlifələrin Qüreyş nəslindən olduğunu qeyd edən C.Zeydan bunun ilk istisnasının Osmanlılardan Sultan Səlim Yavuz olduğunu bildirmişdir. İslam alimləri ittifaqla onun xəlifəliyə ən layiq şəxs olduğuna qərar vermişdilər. Çünki o, öz dövrünün ən güclü müsəlman hökmdarı idi və islam alimləri də onun xəlifəliyini təsdiq etmişdilər. C.Zeydan yazır ki, dövrün ən böyük islam hökmdarı Sultan Səlim Misirin zəbtindən sonra geri dönərkən son Abbasi xəlifəsi Mütəvəkkil Aləllahı və Əzhər alimlərinin bir çoxunu İstanbula gətirtdi. Mütəvəkkil Aləllah Sultan Səlimin xeyrinə xəlifəlikdən imtina etdi və ərəb alimləri türk alimləri ilə birlikdə Sultan Səlimin xəlifəliyini təsdiq etdilər [22, s.160-162].

C.Zeydan Osmanlı dövlətinin bir islam dövləti kimi hərbi-siyasi nüfuzuna böyük əhəmiyyət vermiş, onun qurulmasını islam tarixinin ikinci dövrü adlandırmışdır [20, s.53]. O, - "Bu gün islam dünyası şərqdə şiə dövləti (Qacar dövləti-Ə.F.), qərbdə isə Osmanlı dövləti olmaq üzrə iki böyük islam dövləti tərəfindən təmsil edilir", deyərək Osmanlıya heyranlığını bildirmişdir [20, s.53]. Lakin o, Səlcuqi ve Osmanlı dövlətlərinin idari quruluşundan heç bəhs etməmiş [20, s.60], bu dövlətlərin islam mədəniyyətinə töhfələrinə çox az toxunmuşdur [20, s.113-115, 120].

2. Curci Zeydanın türk dillərinə tərcümə olunmuş digər əsərlərində islam tarixi və mədəniyyətinə baxış

Quranın Azərbaycan dilində ilk tərcümə və təfsiri olan "Kəşfül-həqayiq" əsərinin müəllifi olan Bakı qazısı M. əl-Bakuvinin C.Zeydandan etdiyi "On yeddi ramazan", "Kərbəla yanğısı", "Əzrayi-Qureyş (İslam tarixi)" kimi tərcümə əsərləri var. Əl-Bakuvi tərcümə etdiyi bu əsərlərin müqəddiməsində əksəriyyəti ərəbcə bilməyən Azərbaycan xalqının öz dini tarixlərini qaynaqlar əsasında öyrənib, maariflənməsinə xüsusi əhəmiyyət verdiyini qeyd etmişdir.

Əl-Bakuvi "Kəşfül-həqaqyiq" əsərinin müqəddiməsində dövrünün nadan və cahil din xadimlərini qınayaraq belə yazırdı: "Hər bir xəta insandan sadir olsa qaliba cəhalətdəndir. Bəlkə əvvəla elmi-dini təhsil etmək lazımdır. Ondan sonra hər bir elm ki məişəti-bəşəriyyəyə aiddir, gərək onlar təhsil olunsun. Məsələn, elmi-tarix,

həndəsə, coğrafiya, hesab, heyət, Qurani-şərifdə bu elmlərin hamısının təhsilinin lazım olmağına ayələr mövcuddur" [7]. Əl-Bakuvi əksər din xadimlərinin də tarix elmindən bixəbər olduqlarını təəssüf ilə qeyd edir və əsərin müqəddiməsində belə deyirdi: **"**Elmi-tarix bir şərif olan elmdir. Qurani-şərifin bir hissəsi elmi-tarixdən bəhs edər. Amma əhli-İslamın alim və tüllabları (tələbələr-Ə.F.) bir belə elmdən bixəbər qalıbdırlar"; "bizim islam üləmalarının əksəri elmi-tarixdən bibəhrədirlər" [1, s.7].

Əl-Bakuvinin C.Zeydandan tərcümə etdiyi bədii əsərlər islam tarixi baxımından qiymətli və dəyərlidir. C.Zeydanın əl-Bakuvi tərəfindən tərcümə edilən "Əzrayi-Qüreyş (İslam tarixi)" əsəri III xəlifə Osman ibn Əffanın qətl edilməsindən başlayaraq, hz. Əlinin hakimiyyəti dövrü, ona qarşı olan üsyanlar, iştirak etdiyi savaşlar kimi mövzuları əhatə edir. Bu əsər müəllifin əsərin müqəddiməsində bildirdiyinə görə özünün əsasını qoyduğu "əl-Hilal" məcmuəsində də silsilə şəklində nəşr edilmişdi. C.Zeydan özü bu haqda belə deyir: "Bu rəvayət islam tarixinə mənsub olan rəvayətlərin silsiləsinin üçünci həlqəsidir. Əvvəlinci həlqə "Fətati-Ğəssan"dır, iki cilddə onu nəşr edüb zühuri-dəvəti-islamiyyədən Şam və İraq fəthinə kimi tarixi-islam hadisəsini onda göstərmişik. İkinci həlqə "Armanusətul-Misriyyədir". Misir fəthini onda şərh etmişik. Amma üçünci həlqə həmin bu "Əzrayi-Qüreyş"dir. Həmin həlqə xəlifə Osmanın qətlini və imam Əli xilafətini və Osman qətlindən zühur edən fitnəni, Cəməl və Siffin vaqeələrini ta iki hakim hökmünü və Misir imam Əli xilafətindən xaric olana kimi ehtiva edir" [11, s.5].

Qeyd etmək lazımdır ki, bu kimi əsərlərin XX əsrin əvvəlində tərcümə edilib əksəriyyəti ərəbcə bilməyən Azərbaycan xalqına çatdırılması böyük əhəmiyyətə malik idi. Məhz bu cür əsərlər sayəsində müsəlmanlar öz dini tarixlərini qaynaqlar əsasında öyrənir, islamın şanlı qəhrəmanlarından nümunə alaraq islami maarifçilik sahəsində həm özlərini, həm də ətraflarını savadlandıra bilərdilər. Əl-Bakuvi tərcümə etdiyi bu kitabın müqəddiməsində özü bu məsələni belə izah edir: "Bu rəvayətlər ərəb lüğətində oldıqına görə sair lüğətlərilə danışan islam taifələri onların ləzzətindən məhrum qalublar, xüsusən bizim türki-Azərbaycan lüğətilə danışanlar. Məhz vətənə xidmət edüb bizim türki-azərbaycan dilində danışan cəmaət elmdən uzaq və tarixdən bixəbər oldıqlarından bu zəhməti özimə rahət hesab edüb onların arasında elmi rəvac verməkdə sə`y və ğeyrət etməki özimə lazım və vacib bildim" [7, s.3-4]. Qeyd etmək lazımdır ki, bu əsər Allah və ədalət yolunda zülmə qarşı haqq səsini ucaldan və bu yolda özünün və ailəsinin, qohumlarının şəhid olmasından çəkinməyən hz. Hüseynin və tərəfdarlarının tarixini ibrətamiz bir dillə anlatdığı üçün ondan nümunə götürməli olan bütün dünya müsəlmanları və xüsusilə torpaqları işğal altında olan biz azərbaycanlılar üçün böyük əhəmiyyətə malikdir.

C.Zeydanın əl-Bakuvi tərəfindən tərcümə edilmiş digər bir əsəri "On yeddi ramazan" adlı əsərdir. Əsərin "On yeddi ramazan" adlanmasının səbəbi hz. Əlinin 17 ramazan h. 40 (m. 661)-ci ildə şəhid edilməsinə əsaslanır [7, s.83].

Əsər Müaviyənin (v. 680) və xaricilərin hz. Əlinin hakimiyyətinə qarşı üsyan etməsi, hz. Əlinin xaricilər tərəfindən necə öldürülməsi və hakimiyyətin Əməvilər

tərəfindən necə qəsb edilməsi mövzularını ehtiva edir. Əsərin tərcüməsinə girişdə müəllif belə yazır: "Tarixə mənsub aşiqanə bir rəvayətdir. Bu rəvayət tarixi-islam silsiləsinin dördüncü həlqəsidir. Bu rəvayət imam Əlinin qətlini və xəvaricin əhvalatının keyfiyyətini və fitnənin tamamlanmasını və xilafət əhli-beytdən çıxıb o xilafəti bəni-Ümeyyə özlərinə götürməyini ehtiva edir" [9, s.1-2]. Mütərcim əsərin müqəddiməsində tarix elminin şərəfli bir elm olub, xüsusilə hz. Əli kimi bir şəxsiyyətin həyatından bəhs edən bir əsərin türkcəyə tərcümə edilib müsəlmanların ixtiyarına verilməsini vacib və lazım əməllərdən olduğunu göstərir və belə deyir: "İslam tarixində ən şərafətlü tarix elmi dini-islamda ədalət və haqqaniyyət üzrə rəyasət edən rəislərin əhvalatını ehtiva edən elmi-tarixdir. Onların cümləsindən rəisül-müvəhhidin əmirəl-möminin hz. Əlinin əhvalati-tarixiyyəsidir. Tərcümə edüb türk dilində danışan əbnayi-vətənə (vətən oğulları – Ə.F.) hədiyyə etməgi özimə lazım etdim" [9, s.2].

Əsərdə hz. Əlinin öldürülməsində əsas rol oynayan xaricilər haqqında geniş məlumat verilir. Onların öz rəhbərləri olan hz. Əliyə xəyanət etmələri, daha sonra da hakimiyyət ehtirasına qapılıb imam Əlini kafir elan etmələri, hz. Əli ilə onların arasında baş verən Nəhrəvan savaşı (658-ci il) əsərdə geniş təsvir edilir [9, s.3]. Əl-Bakuvi də "xəvaric" adını da şərh edərək belə deyir: "Xəvaric adını onlara demək dini-islamdan xaric olmaqlarına işarədir" [7, s.3]. Əl-Bakuvi hz. Əlini təkfir etdikləri üçün onların islamdan çıxdığına burada işarət edir. Həqiqətən də, hədislərdə müsəlmanları küfrlə ittiham edənlərin özlərinin küfr təhlükəsinə düşə biləcəyi qeyd edilir və bu hərəkət pislənilir [21, s.450, 456].

Əl-Bakuvinin C.Zeydandan tərcümə etdiyi bir digər əsər 1912-ci ildə Bakıda nəşr olunan "Armanusətul-Misriyyə" ("Misirli Armanusə" – Ə.F.) romanıdır. Əsərdə ərəb fəthlərindən öncə qibtilərin və bizanslıların adət-ənənələri, Bizans imperatoru Heraklın (v. 641) öz Misir canişini Muqavqisin qızı Armanusə ilə evlənmək istəməsi, lakin Armanusənin Misir sərkərdəsi Arkadini sevdiyindən imperatora rədd cavabı verməsi və ərəb ordusuna qatılması, ərəb sərkərdəsi Əmr ibn əl-Asın Misiri fəth edəndən sonra isə onun yardımı ilə sevdiyi gənclə evlənməsi, müsəlmanların Misirdə Fustat şəhərini qurması kimi məsələlər izah edilir [6, s.467].

Əl-Bakuvinin hz. Hüseynin qətlini ələ alan "Ğadətu-Kərbəla" əsərini "Kərbəla yanğısı" adı ilə tərcümə etməsi əhalisinin əksəriyyəti şiə məzhəbindən olan Azərbaycan müsəlmanları üçün onların öz məzhəblərini daha yaxşı tanımaları baxımından daha böyük əhəmiyyətə malik idi. C.Zeydanın bu əsəri Əməvi hökmdarlarından Yezid ibn Müaviyənin (v. 683) hakimiyyəti dövrünü və bu dövrdə onun əmri ilə hz. Hüseynin və əhli-beyt mənsublarının öldürülməsi faciəsini ehtiva edir. Əsərdə eyni zamanda Əbdürrəhman adlı bir gəncin öz qohumu Səlmanı sevməsi, lakin Əməvi xəlifəsi Yezidin də Səlma ilə evlənmək istəməsi, lakin Səlmanın buna etiraz edərək Kufədən qaçması və yolda hz. Hüseynin öldürülməsinə şahid olması, Yezid öldükdən sonra isə Əbdürrəhmana qovuşması əhvalatı nəql edilir. Əl-Bakuvi tərcümə etdiyi əsərə yazdığı müqəddiməsində tarix elminin şərəfini, xüsusilə hz. Peyğəmbər və əhli-beytin tarixini öyrənmənin şərəfli bir iş

olduğunu qeyd edir [8, s.2].

Əl-Bakuvi bu kitabı tərcümə etməsinin səbəbini qeyd edərkən göstərir ki, bu mövzuda bir çox kitab olsa da, əksəriyyəti uydurmalardan ibarətdir. Səhih olan kitablar isə ərəbcə olduğundan türk xalqı bundan istifadə etməkdən məhrumdurlar [8, s.2]. Mütərcim özü bu mövzuda müstəqil bir kitab yazmaq istəsə də, C.Zeydanın bu əsərini oxuyandan sonra fikrini dəyişmiş və öz qeydlərini də əlavə etməklə bu kitabın tərcüməsinə başlamışdı [7, s.3]. Mütərcim Kərbəla vaqeəsinin əhəmiyyətinə işarə edərək bu hadisənin bütün faciəvi xüsusiyyətlərinə baxmayaraq əslində islama fayda verdiyini, islamın nurunun daha da artaraq müsəlmanları haqq və ədalətə daha da bağladığını qeyd edir. Onun öz ifadələri ilə desək, "Ah, ah, təəssüflər olsun. Dünyada o alicənab kimi keçmiş əsrlərdə bir nəfər məzlum olmayubdır. O cənabın qətliylə dini-islamın nurini məhv eyləmək istədilərsə də "kafirlər istəməsə də Allah öz nurunu tamamlayacaqdır", dəxi də dini-islamın nuraniyyəti artdı. O cənabın din yolunda tökülən qanının təsiri qiyamətə kimi günbəgün artacaqdır. Çünki həqqaniyyətlə və həqq yolında tökülən qan əbədən məhv olmayub və olmayacaqdır. Və axirül-əmr həqq zühur edəcəkdir" [7, s.3].

C.Zeydanın Osmanlı tarixindən bəhs edən "Osmanlı inqilabı" adlı romanı görkəmli şair və yazıçı, jurnalist Əliabbas Müznib tərəfindən Azərbaycan türkcəsinə çevrilmişdir [10]. Əsər Osmanlı imperiyasının son dövrlərində konstitusiyalı idarəetmə uğrunda xalqın mübarizəsini əks etdirir. C.Zeydanın "Səlahəddin Əyyubi və İsmaililər" adlı tarixi romanı isə Z.Mugamiz tərəfindən Osmanlı türkcəsinə tərcümə edilmişdir [26].

Nəticə

Qeyd etmək lazımdır ki, uzun illər ateist dünyagörüşünün hakim olduğu Sovet ideologiyasının və rus işğalının acı nəticəsi olaraq islam tarixi, o cümlədən türk-islam mədəniyyəti olduğu kimi öyrənilməmiş, təhriflərə məruz qalmışdır. Stalinizm dövründə Azərbaycanın bir sıra görkəmli ziyalıları, din xadimləri repressiyalara məruz qalmış, sürgünlərdə çürüdülmüş, öldürülmüş, onların islam tarixi və mədəniyyətindən bəhs edən əsərləri isə ya unutdurulmuş, ya məhv edilmiş, xalqın yaddaşından silinmişdir. Bunun təbii nəticəsi olaraq Azərbaycan xalqı özünün də mənsub olduğu türk-islam mədəniyyətindən, mütərəqqi islamşünas mütəfəkkirlərin elmi fəaliyyətindən xəbərsiz qalmış, bu elmi, dini mirasdan məhrum qaldığına görə də öz mənəvi tarixinə yadlaşmışdır. Bu baxımdan din xadimlərinin, ziyalıların, o cümlədən görkəmli tarixçi C.Zeydanın islam mədəniyyəti, dini maarifçilik və tarix elmi baxımından əhəmiyyətli olan əsərləri və onların Azərbaycan və türk dillərinə edilən tərcümələri, onların tədqiqi, təbliği vacibdir. Bu məsələ Azərbaycanın tarix və şərqşünaslıq elmlərinin əsas problemlərindən biridir və öz vacib həllini gözləyir.

Ədəbiyyat

1. Əl-Bakuvi, M. Kəşfül-həqayiq [3 cilddə] / M. əl-Bakuvi. – Tiflis: "Kaspi" qəzetinin Buxariyyə mətbəəsi, – c. 1. – 1904. – 745 s.

2. İsmayılova, Ə. Curci Zeydanın ərəb xilafətinin musiqi mədəniyyəti barədə fikirləri // – Bakı: Dil və ədəbiyyat, – 2019. № 1, – s.269-270.
3. İsmayılova, Ə. Curci Zeydan cahiliyyə ərəblərinin "vad" adəti haqqında // Gənc tədqiqatçıların II beynəlxalq elmi konfransının materialları. – Bakı, 18 – 19 aprel 2014, – s.404-405.
4. İsmayılova, Ə. Curci Zeydan və onun "İslam mədəniyyəti tarixi" əsərinin qısa icmalı // Akademik Ziya Musa oğlu Bünyadovun 100 illik yubileyinə həsr olunmuş "Qədim və müasir Şərq: mənbələr, tədqiqatlar, perspektivlər" mövzusunda beynəlxalq elmi konfransın tezisləri. – Bakı, 20-21 dekabr 2023, – s.198.
5. Səmədova S. Circi Zeydanın "Harunun bacısı Abbasə" romanında dövrün ictimai-siyasi reallıqları // – Bakı: Şərq araşdırmaları, – 2022. № 1, – s.17-22.
6. Zeydan, C. Armanusətul-Misriyyə / C.Zeydan, tərc. ed. M.Mircəfərzadə. – Bakı: Orucov qardaşları mətbəəsi, – 1912. – 471 s.
7. Zeydan, C. Əzrayi-Qüreyş (İslam tarixi) / C.Zeydan, tərc. ed. M.Mircəfərzadə. – Bakı: "Kaspi" qəzetinin mətbəəsi, – 1908. – 534 s.
8. Zeydan, C. Kərbəla yanğısı / C.Zeydan, tərc. ed. M.Mircəfərzadə. – Bakı: Orucov qardaşları mətbəəsi, – 1911. – 537 s.
9. Zeydan, C. On yeddi ramazan / C.Zeydan, tərc. ed. M.Mircəfərzadə. - Bakı: Orucov qardaşları mətbəəsi, – 1911. – 374 s.
10. Zeydan, C. Osmanlı inqilabı / C.Zeydan, tərc. ed. Ə.Müznib. – Bakı: Orucov qardaşlarının mətbəəsi, – 1914. – 293 s.
11. Zeydan, C. İslamın mədəniyyət tarixi [3 cilddə] / C.Zeydan, tərc. ed. M.Mirbağırov. – Bakı: (n.y.). – c. 1. – 1913. – 256 s.
12. Aliyeva, N. Azerbaycanda türk-islam kültürü / N.Aliyeva, tərc. ed. S.Nematzade. – İstanbul: Cinius yay., – 2021. – 276 s.
13. Azimli, M. Corci Zeydanın "İslam Medeniyeti Tarihi" adlı eserine karşı yazılmış bir tenkit yazısı // – Konya: İstem. – 2005. № 5, – s. 223-243.
14. Azimli, M. Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-1, – 14 dekabr, 2014. URL: http://www.cevaplar.org/index.php?content_view=5919&ctgr_id=104
15. Azimli, M. Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-2, – 21 dekabr, 2014. URL: http://www.cevaplar.org/index.php?content_view=5930&ctgr_id=104
16. Azimli, M. Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-3, – 31 dekabr, 2014. URL: http://www.cevaplar.org/index.php?content_view=5939&ctgr_id=104
17. Azimli, M. Şibli Numani'nin Corci Zeydan'in tarihine reddiyesi-7. – 1 fevral, 2015. URL: http://www.cevaplar.org/index.php?content_view=5979&ctgr_id=104
18. Barthold, W. İslam medeniyeti tarihi / W.Barthold, tərc. ed. M.F.Köprülü. – Ankara: Diyanet İşleri Başkanlığı yay., – 1984. – 367 s.
19. Çelebi, M. Corci Zeydan // TDV İslâm Ansiklopedisi. VIII cild. – İstanbul, TDV yay., – c. 8. – 1993. – s.69-71.

20. Pekkırbızlı, Ö. Corci Zeydanın İslam medeniyeti tasavvuru ("İslam medeniyeti tarihi" kitabı bağlamında) / Ö.Pekkırbızlı. – Konya: Necmeddin Erbakan Üniversitesi yay., – 2016. – 163 s.
21. Yavuz, Y.Ş. Tekfir // TDV İslâm Ansiklopedisi. – İstanbul, TDV yay, – c. 40. – 2011. – s.450-456.
22. Zeydan, C. İslam medeniyeti tarihi [5 cildde] / C.Zeydan, tərc. ed. Z.Mugamiz. – İstanbul, Doğan Güneş yay., – c. 1. – 1971. – 368 s.
23. Zeydan, C. İslam uygarlıkları tarihi [5 cildde]/ C.Zeydan, tərc. ed. N.Gök. – İstanbul: İletişim yay., – c. 1. – 2019, – 758 s.
24. Zeydan, C. İslam uygarlıkları tarihi [5 cildde] / C.Zeydan, tərc. ed. N.Gök. – İstanbul: İletişim yay., – c. 2. – 2012, – 848 s.
25. Zeydan, C. Medeniyyet-i İslamiyye tarihi [5 cildde] / C.Zeydan, tərc. ed. Z.Mugamiz. – İstanbul: İkdam yay., – c. 1. – 1328, – 240 s.
26. Zeydan, C. Selahaddin-i Eyyubi ve İsmaililer / C.Zeydan, tərc. ed. Z.Mugamiz. – İstanbul: İqdam, – 1927, – 377 s.
27. Nervana. Roots of Egyptian Sectarianism through a 100 year old novel, – November 10, 2011. URL: https://nervana1.org/2011/11/10/roots-of-egyptian-sectarianism-through-a-100-year-old-novel/

Məqalənin redaksiyaya daxilolma tarixi: 09.02.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 14.02.2025
Məqalənin çapa qəbul olunma tarixi: 03.03.2025

Turizm və qonaqpərvərlik tədqigatları. İl 14, Say 1, 2025, 196-203s.
Tourism and Hospitality Studies. Volume 14. Number 1, 2025, p. 196-203.

UOT: 069
Zenfira SEYİDOVA
Naxçıvan Dövlət Universiteti, baş müəllim
turalmemmedov521@gmail.com
https://orcid.org/0009-0005-0135-5035
DOI: doi.org/10.61226/12.2.2023/20251.15

MUZEYLƏRİN TƏHSİL FUNKSİYALARININ YERİNƏ YETİRİLMƏSİNDƏ ROLU VƏ ƏHƏMİYYƏTİ

Xülasə: Muzeylərin təhsil funksiyalarının yerinə yetirilməsində rolu və əhəmiyyəti mövzusunda aparılan tədqiqat muzeylərin yalnız mədəni irsin qorunması və nümayiş etdirilməsi funksiyasını deyil, eyni zamanda onların maarifləndirici və pedaqoji rolunu da əhatə etdiyini göstərmişdir. Muzeylər biliklərin ötürülməsi, tarixi şüurun formalaşdırılması və ictimai təfəkkürün inkişaf etdirilməsi baxımından mühüm təhsil mərkəzləri kimi çıxış edir. Tədqiqat nəticəsində müəyyən olunmuşdur ki, muzeylər interaktiv təlim metodlarının tətbiqi, təhsil proqramları və eksponatların tədris materialı kimi istifadə olunması vasitəsilə müxtəlif yaş qruplarına uyğun maarifləndirmə funksiyasını həyata keçirir. Muzey pedaqogikası yanaşması çərçivəsində aparılan araşdırmalar göstərir ki, muzey mühiti ziyarətçilərin təcrübə əsaslı öyrənməsini dəstəkləyir, vizual və praktiki materiallar vasitəsilə informasiyanın daha effektiv mənimsənilməsinə şərait yaradır. Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, muzeylərin təhsil sahəsindəki rolu təkcə tarixi və bədii eksponatların təqdimatı ilə məhdudlaşmır, həm də onların müasir texnologiyaların tətbiqi ilə daha dinamik və interaktiv tədris məkanlarına çevrilməsi məsələsi tədqiq olunmuşdur. Bu kontekstdə muzeylərin tədris prosesinə inteqrasiyası, xüsusi kurikulumların hazırlanması və məktəb-muzey əməkdaşlığının inkişaf etdirilməsi kimi məsələlər araşdırılmışdır. Tədqiqat həmçinin muzeylərin qeyri-formal təhsil məkanı kimi əhəmiyyətini vurğulayaraq, onların innovativ təhsil modelləri ilə sintez edilməsi istiqamətində yeni yanaşmalar təklif etmişdir. İşin tətbiqi əhəmiyyəti ondan ibarətdir ki, muzeylərin təhsil funksiyalarının təkmilləşdirilməsi və tədris prosesində onların fəal istifadəsi, məktəblərdə və universitetlərdə tədris keyfiyyətinin yüksəldilməsinə töhfə verə bilər. Bu araşdırma muzeylərin sosial və mədəni inkişafdakı rolunu daha geniş miqyasda dəyərləndirməyə imkan yaradır, eyni zamanda muzeylərdə təhsil proqramlarının effektivliyinin artırılması üçün tövsiyələr təqdim edir. Nəticə etibarilə, muzeylərin maarifləndirmə funksiyasının gücləndirilməsi təhsilin keyfiyyətinin artırılmasına xidmət edir və cəmiyyətin intellektual inkişafına mühüm təsir göstərir.

Açar sözlər: Muzey, təhsil, maarifləndirmə, muzey pedaqogikası, interaktiv öyrənmə, eksponat.

Zenfira SEYİDOVA

THE ROLE AND IMPORTANCE OF MUSEUMS IN FULFILLING EDUCATIONAL FUNCTIONS

Abstract: The research conducted on the role and importance of museums in fulfilling educational functions has demonstrated that museums not only serve as institutions for preserving and exhibiting cultural heritage but also play a significant educational and pedagogical role. Museums act as crucial educational centers for knowledge transmission, the formation of historical consciousness, and the development of public thinking. The study has determined that museums fulfill their educational function for different age groups through the application of interactive teaching methods, educational programs, and the use of exhibits as teaching materials. Research within the framework of museum pedagogy shows that the museum environment supports experience-based learning and facilitates the effective assimilation of information through visual and practical materials. The scientific novelty of the study lies in the fact that the role of museums in education is not limited to the presentation of historical and artistic exhibits but also includes their transformation into more dynamic and interactive learning spaces through the application of modern technologies. In this context, issues such as the integration of museums into the teaching process, the development of specialized curricula, and the enhancement of school-museum cooperation have been explored. The study also emphasizes the importance of museums as informal educational spaces and proposes new approaches to their synthesis with innovative educational models. The practical significance of this research is that improving the educational functions of museums and actively using them in the teaching process can contribute to enhancing the quality of education in schools and universities. This study allows for a broader assessment of the role of museums in social and cultural development while also providing recommendations for increasing the effectiveness of educational programs in museums. Ultimately, strengthening the educational function of museums serves to improve the quality of education and has a significant impact on the intellectual development of society.

Keywords: Museum, education, enlightenment, museum pedagogy, interactive learning, exhibit.

Зенфира СЕЙИДОВА

РОЛЬ И ЗНАЧЕНИЕ МУЗЕЕВ В ОСУЩЕСТВЛЕНИИ ОБРАЗОВАТЕЛЬНЫХ ФУНКЦИЙ

Абстракт: Проведенное исследование роли и значения музеев в осуществлении образовательных функций показало, что музеи служат не только учреждениями для сохранения и демонстрации культурного наследия, но и играют важную образовательную и педагогическую роль. Музеи

выступают в качестве ключевых образовательных центров для передачи знаний, формирования исторического сознания и развития общественного мышления. В ходе исследования было установлено, что музеи выполняют свою образовательную функцию для различных возрастных групп посредством применения интерактивных методов обучения, образовательных программ и использования экспонатов в качестве учебного материала. Исследования в рамках музейной педагогики показывают, что музейная среда поддерживает обучение на основе опыта и способствует более эффективному усвоению информации с помощью визуальных и практических материалов. Научная новизна исследования заключается в том, что роль музеев в сфере образования не ограничивается только презентацией исторических и художественных экспонатов, но также включает их трансформацию в более динамичные и интерактивные образовательные пространства за счет применения современных технологий. В этом контексте были изучены такие вопросы, как интеграция музеев в учебный процесс, разработка специализированных учебных программ и развитие сотрудничества между школами и музеями. Исследование также подчеркивает важность музеев как неформальных образовательных площадок и предлагает новые подходы к их синтезу с инновационными образовательными моделями. Практическая значимость данной работы заключается в том, что совершенствование образовательных функций музеев и их активное использование в учебном процессе может способствовать повышению качества образования в школах и университетах. Это исследование позволяет более широко оценить роль музеев в социальном и культурном развитии, а также предлагает рекомендации по повышению эффективности образовательных программ в музеях. В конечном счете, укрепление образовательной функции музеев способствует повышению качества образования и оказывает значительное влияние на интеллектуальное развитие общества.

Ключевые слова: музей, образование, просвещение, музейная педагогика, интерактивное обучение, экспонат.

1. Giriş

Muzeylər insanlığın mədəni və tarixi yaddaşının qorunması, tədqiqi və ictimaiyyətə təqdim edilməsi missiyasını yerinə yetirən mühüm elmi-tədris müəssisələridir. Onların əsas məqsədlərindən biri cəmiyyətin maarifləndirilməsi və biliklərin nəsildən-nəslə ötürülməsini təmin etməkdir. Tarixi və mədəni irsin qorunması ilə yanaşı, muzeylər müxtəlif yaş kateqoriyasına mənsub insanların intellektual inkişafına töhfə verməklə, onların biliklərini artırmaq və dünyagörüşünü zənginləşdirmək üçün əlverişli şərait yaradır. Muzeylər öz kolleksiyaları və sərgiləri vasitəsilə ziyarətçilərə tarix, incəsənət, etnoqrafiya, arxeologiya, təbiət elmləri və digər sahələrə dair fundamental biliklər təqdim edir. Muzeylərin təhsil funksiyası onların əsas fəaliyyət istiqamətlərindən biri olmaqla, maarifləndirmə prosesinin

müxtəlif vasitələrlə həyata keçirilməsini nəzərdə tutur. Bu baxımdan, ekspozisiyalar, elmi seminarlar, interaktiv sərgilər, ustad dərsləri və digər tədris metodları geniş tətbiq olunur. Muzeylərin məktəblərlə və universitetlərlə əməkdaşlığı gənc nəslin elmi dünyagörüşünün formalaşmasına, onların praktik bilik və bacarıqlarının inkişafına mühüm töhfə verir. Xüsusilə, muzey-pedaqogika anlayışı çərçivəsində təşkil olunan dərslər və ekskursiyalar tədris prosesinin daha effektiv və yadda qalan formada keçirilməsinə imkan yaradır.

Muzeylərin təhsil funksiyalarını yerinə yetirməsi müxtəlif faktorlarla bağlıdır. İlk növbədə, muzey ekspozisiyalarının elmi-nəzəri əsaslandırılması və onların cəmiyyət üçün əlçatan olması mühüm əhəmiyyət kəsb edir. Bununla yanaşı, müasir dövrün tələblərinə uyğun olaraq, muzeylərdə informasiya texnologiyalarından istifadənin genişləndirilməsi ziyarətçilərin biliklərə daha asan və əhatəli şəkildə yiyələnməsinə imkan yaradır. Virtual muzey turları, rəqəmsal ekspozisiyalar və multimedia resursları tədris prosesinə yeni yanaşmalar gətirməklə, muzeylərin maarifləndirici funksiyasını daha da gücləndirir. Muzeylərdə təşkil olunan elmi maarifləndirmə tədbirləri və mühazirələr təkcə şagird və tələbələr üçün deyil, eyni zamanda geniş ictimaiyyət üçün də nəzərdə tutulur. Muzeylərin interaktiv proqramları və tematik sərgiləri hər yaşdan olan ziyarətçilərin marağını artıraraq, onların təhsil və tədqiqat fəaliyyətinə daha aktiv cəlb olunmasına şərait yaradır. Bundan başqa, inklüziv təhsil prinsiplərinə əsaslanan layihələr vasitəsilə muzeylər fiziki məhdudiyyətli insanlara da bilik və informasiya əldə etmək imkanı təqdim edirlər. Müasir dövrdə muzeylərin təhsil funksiyasının yerinə yetirilməsi onların fəaliyyətinin strateji prioritetlərindən birinə çevrilmişdir. İnnovativ yanaşmaların tətbiqi, interaktiv metodların inkişafı və texnoloji imkanların genişləndirilməsi nəticəsində muzeylər cəmiyyətin elmi və mədəni səviyyəsinin yüksəldilməsində mühüm rol oynamaqdadır. Beləliklə, muzeylərin təhsil funksiyasının gücləndirilməsi təkcə tarixi və mədəni irsin qorunmasına deyil, eyni zamanda insan kapitalının inkişafına da əhəmiyyətli töhfə verir.

XX əsrdə muzeylər və onların təhsil funksiyaları daha ətraflı və intensiv şəkildə araşdırılmışdır. Aparılan tədqiqatlardan əldə olunan nəticələr və tövsiyələrdən bəziləri həyata keçirilmiş, digərləri isə mövcud şəraitin qeyri-kafi olması səbəbindən tətbiq edilə bilməmişdir. Muzey-təhsil əlaqəsi, muzey-məktəb əməkdaşlığı ilə bağlı müxtəlif metod və tövsiyələr mövcuddur. Muzeylərin təhsil funksiyalarının əhatə dairəsi isə hər keçən gün genişlənməkdədir. Bununla da muzeylərin fərdlərə təsiri və töhfəsi artan şəkildə nəzərə çarpmaqdadır. Bu araşdırmalar və əsaslandırmalar sayəsində muzeylər təhsil həyatında öz yerlərini almağa başlamışdır. Demək olar ki, hər bir dərsə uyğun tətbiq sahəsi təqdim edən muzeylər, tədris-təhsil prosesinə daha fəal şəkildə cəlb edilməlidir. Müasir dövrdə tədris metodlarının inkişaf etdiyi və müxtəlifləşdiyi nəzərə alınarsa, muzeylər də bu metodlarla bağlı alternativ seçimlər təklif etməkdədir.

Bu məqalədə muzeylərin təhsil funksiyalarının yerinə yetirilməsindəki rolu və əhəmiyyəti geniş şəkildə təhlil ediləcək, onların cəmiyyətin maarifləndirilməsi

prosesinə təsiri və bu sahədə tətbiq edilən müasir yanaşmalar araşdırılacaqdır. Muzeylərin təhsil müəssisələri ilə əməkdaşlıq imkanları, interaktiv sərgilərin əhəmiyyəti və müasir texnologiyaların bu sahəyə inteqrasiyası kimi məsələlərə xüsusi diqqət yetiriləcəkdir.

2. Muzeylərin təhsil funksiyaların dair fikirlər

Muzey, Allan tərəfindən kolleksiyaların tədqiqat, araşdırma və zövq məqsədilə yerləşdirildiyi bina kimi tərif edilmişdir [2, s.5]. Sözen və Tanyeli isə muzeyi, bədii, mədəni, tarixi və ya elmi əsərlərin davamlı olaraq nümayiş etdirilməsi üçün inşa edilmiş və ya bu xüsusiyyətlərə malik olduğu üçün ictimaiyyətə açıq tutulan qurum kimi xarakterizə etmişlər. Müasir mənada muzeylər, "cəmiyyətin və inkişafının xidmətində olan, ictimaiyyətə açıq, insanın və yaşadığı mühitin şahidlik etdiyi materiallar üzərində araşdırma aparan, toplayan, qoruyan, məlumat paylaşan və nəhayət tədqiqat, təhsil və estetik zövq məqsədilə sərgiləyən, mənfəət düşüncəsindən uzaq və davamlı fəaliyyət göstərən qurum" kimi müəyyənləşdirilmişdir [12, s.6].

Atagöyün muzeylərin təhsil funksiyalarına dair tərifində isə muzeylər, yaradıcılıq, məntiq, müşahidə, təxəyyül və estetik zövq hissinin formalaşmasına və inkişafına töhfə verə bilən geniş yayılmış təhsil müəssisələri kimi ifadə edilmişdir [3, s.29]. Riviyer-ə görə, muzey "Mədəni dəyərlərə malik bütöv bir kolleksiyanı müxtəlif vasitələrlə qorumaq, araşdırmaq, qiymətləndirmək və xüsusilə xalqın estetik zövqünü artırmaq və təhsil üçün nümayiş etdirmək məqsədilə ictimai maraq üçün çalışan, incəsənət, elm, tarix, səhiyyə və texnologiyaya aid kolleksiyaları olan daimi qurumlardır" [8, s.23-24].

Muzey təhsili insanları düşüncə və hissləri birləşdirən mənalı təcrübələr vasitəsilə öyrənməyə motivasiya edir. Məsələn, bir incəsənət muzeyində öyrənmə prosesi, orijinal əsərlərlə əlaqə qurmaq baxımından həm stimullaşdırıcı, həm də həyəcanverici bir yoldur. Bununla yanaşı, orijinal əsərlərlə ünsiyyət qurmaq yalnız ziyarətçilərin yeni məlumatlar əldə etməsinə deyil, həm də onları əhatə edən dünyaya qarşı vizual fərqindəliklərini inkişaf etdirməsinə xidmət edir (Sternberg, 1989:154).

XIX əsrin ortalarından etibarən bəzi muzeylərin "təhsil muzeyləri" olaraq qurulduğu məlumdur. Uşaq muzeyləri ilə uşaq və təhsil muzeyləri arasında fərq mövcuddur. Uşaq muzeylərinin məqsədi uşaqların maraqları və öyrənmə üsulları ilə yaxından əlaqəli olmaqdır. Təhsil muzeyləri və ya uşaq muzeyləri isə ya təhsil, ya da uşaq tarixi ilə bağlı sənədləri qorumaq məqsədini daşıyır. İlk uşaq muzeylərinin qurulduğu Amerika Birləşmiş Ştatlarında bu muzeylər uzun bir tarixə malikdir [10, s.195-197].

İlk tədris muzeyi olan Haslemere Muzeyi 1894-1895-ci illərdə İngiltərədə açılmışdır. Andrew isə dünyada ilk təhsil muzeyi olaraq 1845-ci ildə təsis edilən Ontario Əyalət Təhsil Departamentinin Təhsil Muzeyini göstərir [7, s.85].

Muzeylər vasitəsilə incəsənət təhsili Qərbdə XIX əsrdə ortaya çıxmışdır. İnkişaf etmiş ölkələrdə həm sinif, həm də incəsənət müəllimlərinin tez-tez müraciət

etdiyi və böyük faydalar əldə etdiyi muzeylər və qalereyalar tələbələr və ictimaiyyət üçün xüsusi tədris proqramları həyata keçirir. Eyni şəkildə Avropa muzeyləri də öz regionları haqqında məlumat toplayan, ətraf mühiti qoruyan, hər cür sosial və mədəni fəaliyyətlərin aparıldığı mərkəzlərə çevrilmişdir [4, s.20].

Avropa və Amerika muzeyləri öz əsas funksiyalarına əlavə olaraq təhsil məsələsini də ciddi şəkildə öhdələrinə götürmüşdürlər. Bu muzeylərin çoxunda xüsusi sinif otaqları və emalatxanalar mövcuddur. Bu emalatxanalarda, məsələn, məktəbəqədər yaşlı uşaqlara arxeoloji obyektlərə bənzər əşyalar təqdim olunur və onlardan gil və ya xəmir vasitəsilə həmin obyektlərin oxşarını hazırlamaları tələb edilir. Beləliklə, müəllimlərin nəzarəti altında olan məktəbəqədər yaş qrupuna aid şagirdlər erkən yaşlarından arxeologiya və incəsənət tarixi ilə tanış olurlar. Orta təhsil səviyyəsində isə tarix dərsləri tez-tez muzeylərdə keçirilir. Bu muzeylərin başqa bir təhsil funksiyası keçmiş həyat tərzlərini aydın şəkildə təqdim etməsidir. Məsələn, Bonn şəhərində yerləşən bir muzeydə bütün dünya muzeylərində yer alan arxaik, klassik və helenistik dövrlərə aid heykəllərin nüsxələri saxlanılır ki, bu da ali təhsil tələbələri üçün olduqca əhəmiyyətlidir [13, s.90].

Dünyanın müxtəlif bölgələrində fəaliyyət göstərən muzeylər, aid olduqları cəmiyyətlərə xidmət etmək məqsədilə, müxtəlif siniflər üçün dərs proqramlarının daha canlı və təsirli şəkildə həyata keçirilməsi üçün şəhər daxilində və ya kənarında təhsil sahəsində çalışan şəxslərlə əməkdaşlıq edərək xüsusi proqramlar hazırlamaq sahəsində çalışırlar [9, s.8].

3. Muzeylərin pedaqoji funksiyaları

"Muzey" termininin ilk dəfə istifadə edildiyi illərdə bu anlayış sadəcə "əsar-ı atiqa", yəni qədim əsərlər anlayışı ilə məhdudlaşmışdır. Pedoqoji yanaşma ilə "məktəb muzeyi" anlayışını təhsil prosesinə daxil edən Satı bəy, şagirdlərin yalnız məktəbdaxili təhsil ilə kifayətlənməməli olduğunu vurğulamış və onlara cəmiyyətin və tarixi mühitin araşdırılmasına yönəlmiş ekskursiyalar təşkil etməyi öyrətmə metodu kimi irəli sürmüşdür. Satı bəyin 1909-cu ildə Maarif Nazirliyinə təqdim etdiyi hesabatda muzeylərin əhəmiyyətinə diqqət yetirilməsi xüsusi vurğulanmışdır [1, s.74-75].

Həyat boyu təhsil prosesində muzeylər çoxşaxəli öyrənmə və həyat sahələri kimi əhəmiyyətli rol oynayır. Muzey təhsili, təcrübələrə əsaslanan fəal istifadəni ön planda saxlayan və tarix, mədəni zənginlikləri ilə yeni və ehtiyac duyulan bir sahədir. Bu təhsil modeli, muzeyin əsas təhsil nəzəriyyələri və prinsipləri çərçivəsində fəal öyrənmə və inkişaf sahəsi kimi istifadəsini nəzərdə tutur. Muzey təhsili aşağıdakı öyrənmə prinsiplərinə əsaslanır:

1. Öyrənmə aktiv bir prosesdir.
2. İnsanlar müşahidə edərkən öyrənirlər.
3. Mənalı öyrənmə idrakla bağlı bir prosesi tələb edir.
4. Öyrənmə dilin istifadəsini zəruri edir.
5. Öyrənmə sosial fəaliyyət xarakteri daşıyır.
6. Öyrənmə mühitlə əlaqəlidir.

7. Öyrənmək üçün həm zamana, həm də biliklərə ehtiyac var.

8. Motivasiya öyrənmənin əsas elementidir.

Muzeylər, mədəniyyət və incəsənət əsərlərinin passiv yığıcıları olmaqdan əlavə, tez-tez birləşdirici kimi görülən mədəniyyətlərin aktiv qoruyucuları rolunu oynayır. Bu funksiyalar Hindistanda keçirilən CECA toplantısında və 1994-cü ildə Ekvadorda baş tutan müzakirələrdə geniş şəkildə araşdırılmışdır. Sənaye cəmiyyətlərində fərqli mədəni qrupların bir araya gəldiyi bir şəraitdə muzeylərin bu funksiyası, onların rolunun genişlənməsini və kolleksiyaların necə idarə ediləcəyinə dair qərarların verilməsini tələb edir.

Hazırda muzeylər və qalereyalar ziyarətçiləri ilə yeni əlaqələr qurmağa çalışır. İnsanları əvvəllər ziyarət etmədikləri muzeylərə cəlb etmək məqsədilə yeni iş və düşüncə metodları tətbiq olunur. Əvvəlcə muzeylərin ilkin vəzifəsi kolleksiyaların yığılması və qorunması hesab edilirdi, təhsil isə ikinci dərəcəli bir vəzifə kimi görülürdü. Uzun müddət bu fikir dəyişməmiş qalsa da, Dewey, Pestalozzi və Montessori kimi pedaqoqların irəliləyişçi təhsil metodlarının inkişafı və real təcrübələrə yönəlməsi muzeyləri ideal öyrənmə mühitlərinə çevirmişdir [7, s.133,137].

Müasir cəmiyyətdə texnoloji inkişaflar böyük dəyişikliklər yaradır. İnsanlar arasındakı əlaqələr zəifləyir, dəyərlər dəyişir və ənənəvi mədəniyyətlə formalaşmaqda olan mədəniyyət arasındakı əlaqə qırılır. Muzeylər, bir cəmiyyətin inkişafını göstərən sübutları toplayan təhsil ocaqları kimi, insanların keçmişdəki zəhmətin bugünkü nəticələrini anlamağa və gündəlik həyatımızla digər cəmiyyətlərin tarixləri arasında əlaqə qurmağa kömək edir. Müasir muzeylər artıq yalnız tarixi əşyaların saxlandığı anbar olmaqdan çıxmışdır. Onlar indi düşüncəyə təsir edən, öyrədici və ilhamverici rol oynayır [4, s.20].

Keçmişi anlama, tarixə hörmətlə yanaşma və itməkdə olan mədəni dəyərlərə əhəmiyyət vermək təhsilçilər üçün vacib bir reallıqdır. Gələcək nəsillər bu vəzifəni muzeylər vasitəsilə daha sağlam və təsirli şəkildə yerinə yetirə biləcəklər. Bu, onlara obyektiv yanaşaraq görmə və duyğular əsasında dəyərləndirmə imkanı verəcəkdir. Ancaq bəzi inkişafların, xüsusilə də öz ölkəmiz baxımından, arzu edilən sürətlə irəliləmədiyini müşahidə edirik. Məsələn, İsveçdə 1890-cı illərdə Artur Hazelius tərəfindən yaradılmış ilk açıq hava muzeyi, keçmişdə insanların necə yaşadığına dair bir mənzərəni açıq havada bərpa etməklə yanaşı, insanlara həmin mühitdə yaşamaq imkanı da yaratmışdır [6, s.35].

Tarixi mühitlərə edilən tədris səfərlərinin bir çox faydası var: bu səfərlər şagirdlərin müşahidə, dəyərləndirmə və təsnifat bacarıqlarını inkişaf etdirir, anlayışları daha yaxşı qavramağa kömək edir, vizual sübutların təhlilini asanlaşdırır, dəyişiklik və davamlılıq anlayışını gücləndirir və tarixi mühitlə empati qurmağı təmin edir [11, s.91].

4. Nəticə

Cəmiyyətdə baş verən bəzi dəyişikliklər ənənəvi mədəniyyətlə formalaşmaqda olan yeni mədəniyyət arasında normalda olması lazım olan bağların qırılma təhlükəsini yarada bilər. Bu halda muzeylər mühüm bir rol oynayır və yeni mədəniyyətə keçiddə vasitəçi funksiyasını yerinə yetirir. Muzeylər keçmişin elementlərini nümayiş etdirərək, ziyarətçilərə keçmişlə bu gün arasındakı keçidin şüurunda olmağa kömək edir.

Bu kontekstdə tətbiqi muzeyşünaslığın funksiyası xüsusi əhəmiyyət daşıyır.

Muzeyşünaslıq, "insanların yeni dəyərləri mənimsəyərək öz həyatlarına inteqrasiya etmələrinə yardım etmək məqsədilə muzey və sərgilərin istifadəsi" kimi müəyyən edilir [5, s.104]. Coremans bununla bağlı maraqlı bir nümunə təqdim edir: məsələn, dəyərlər sistemi praktiklik üzərində qurulmayan bir cəmiyyətdə böyük sürülərə sahib olmaq böyük nüfuz gətirir, halbuki bu sürülər otlaqları məhv edir və nəticədə torpağın eroziyasına, daşqınlara və yeraltı sularının yox olmasına səbəb olur. Bu vəziyyətdə ən yaxşı yanaşma, həmin problemləri və onların həlli yollarını səbəblərlə birlikdə əyani şəkildə izah edən tədris proqramları və sərgilər təşkil etməkdir.

Belə proqramlar həm insanların problemləri daha yaxşı qavramasına, həm də təklif olunan həll yollarını başa düşməsinə kömək edəcəkdir. Eyni zamanda, bu yanaşma insanları müasir elmin əsas elementlərindən biri olan hadisələri dəyərləndirmə metodlarına alışdıracaq və onların baxışlarını dəyişdirəcəkdir. Bu baxımdan muzeylər yalnız tarixi biliklər və mədəni irs haqqında məlumat ötürməklə kifayətlənmir, eyni zamanda insanların zehni fəaliyyətini canlandıran qaynaqlardır.

Ədəbiyyat

1. Adıgüzel, H. və Öztürk, F. (1999). Türk Eğitim Düşüncesinde Okul Müzesinden Müze Pedagojisine Değişim. Eğitim ve Bilim, 14(114), 73-81.
2. Allan, A. D. (1963). Müzelerin Teşkilatlanması-Pratik Öğütler. UNESCO, ICOM Türkiye Millî Komitesi Yayınları, 5-19.
3. Atagök, T. (1999). Yaşayan Müze ve Eğitim. Sanat Dünyamız, 71, 223-227.
4. Atasoy, S. (1999). Müzecilikten Yansımalar. İstanbul: Anka Yayınları.
5. Coremans, P. (1963). Laboratuar ve Görevi. Müzelerin Teşkilatlanması, Ankara: Türk Tarih Kurumu.
6. Eliot, I. (1996). Welcome to The Garbage Museum. Teaching PreK-8, 26(7), 42-45.
7. Hooper-Greenhill, E. (1994). Museum Education: Past, Present and Future. Towards The Museum of The Future, R. Milles, L. Zavala (Eds.), London and New York: Routledge.
8. Riviere, G. H. (1962). Müzelerin Eğitimdeki Rolü Hakkında. Unesco Bölge Semineri, (Çev. Selma İnal), İstanbul: Icom Millî Komitesi Yayınları
9. Rose, T. H. (1958). Müzeler ve Öğretmen. Ankara: Maarif Basımevi, 7-13.
10. Sternberg, S. (1989). The Art of Participation. Museum Education History, Theory and Practice, N. Berry, S. Mayer (Eds.), Virginia: Reston.
11. Safran, M. ve Ata, B. (1998). Okul Dışı Tarih Öğretimi. G.Ü. Gazi Eğitim Fakültesi Dergisi, 18(1), 87-94.
12. Madran, B. (1999). Müze Türleri. Yeniden Müzeciliği Düşünmek, Der. Tomu Atagök, İstanbul: Yıldız Teknik Üniversitesi Basım Yayın Merkezi, 3-20.
13. Yücel, E. (1999). Türkiye'de Müzecilik. İstanbul: Arkeoloji ve Sanat Yayınları.

Məqalənin redaksiyaya daxilolma tarixi: 13.02.2025
Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 20.02.2025
Məqalənin çapa qəbul olunma tarixi: 27.02.2025

Məqalə yazma qaydaları

1. Jurnala təqdim edilən məqalələr Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının dövri elmi nəşrlərin qarşısında qoyduğu tələblərə və Azərbaycan Turizm Menecment Universitetinin qaydalarına cavab verməlidir;
2. Jurnalda çap olunan hər bir məqaləyə Rəqəmsal Obyekt İdentifikatoru (DOI – Digital Object Identifier) təyin olunur ;
3. Hər bir məqalədə UOT indekslər və ya PACS tipli kodlar göstərilməlidir;
4. Müəllif ORCİD kodunu qeyd etməlidir;
5. Məqalə müəllifinin adı, soyadı, iş yeri, e-mail adresi yuxarıda sağda yazılmalıdır;
6. Azərbayacan dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində, rus dilində olan məqalələrin xülasəsi rus, azərbaycan və ingilis dillərində verilməlidir, ingilis dilində olan məqalələrin xülasəsi azərbaycan, ingilis və rus dillərində verilməlidir (minimum 200 söz);
7. Xülasələrin yazıldığı dillərdə açar sözlər verilməlidir;
8. Hər bir xülasədə məqalənin adı, müəllif(lər)in tam adı göstərilməlidir;
9. Məqalə "Giriş", "Mətn" (yarımbaşlıqlara bölmək şərtilə), "Nəticə" və "İstifadə edilmiş ədəbiyyat siyahısı"ndan ibarət olmalıdır;
10. Məqalə "Times New Roman"-da, 12 şriftilə yazılmalı, mətn Microsoft Word proqramında (2003/2007) və A4 kağız formatına görə tərtib edilməlidir;
11. Yuxarıdakı şərtlər nəzərə alınmaqla məqalələr 7-12 səhifə həcmində olmalıdır;
12. Məqalənin yazılışı zamanı iddiaçı istifadə etdiyi materialların mənbələrinə və müəlliflərinə mütləq istinad etməlidir. Mətndəki istinaddan sonra kvadrat mötərizədə əsərin ədəbiyyat siyahısındakı nömrəsi, cild (çoxcildli əsərlər üçün) və müvafiq səhifə(lər) verilir. Məsələn, [54, s.162], [155, c.2, s.82-83], [54, s.162; s.23], və s. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının "Dissertasiyaların tərtibi qaydaları" barədə qüvvədə olan təlimatının "İstifadə edilmiş ədəbiyyat" bölməsinin tələbləri əsas götürülməlidir. "İstifadə edilmiş ədəbiyyat" siyahısında qeyd edilənlər aşağıdakı nümunələrdə göstərilən qaydada verilməlidir:

Kitabın təsviri: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

Jurnal məqaləsi: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

Konfrans, simpozium və digərləri: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE

Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

Dissertasiyalar və avtoreferatlar: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Arxiv mənbələri: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond № 1061, siyahı №1, iş № 95, vərəq – 1.

Qəzet mənbələri: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Müəlliflik şəhadətnamələri və patentlər: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

İnternet mənbələri: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Mənbə: https://aak.gov.az/single/492

13. Ədəbiyyatlara istinad edərkən son 10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir. Mətndə istifadə edilməyən mənbələr "İstifadə edilmiş ədəbiyyat" hissəsində göstərilməməlidir;
14. Əvvəllər çap olunmuş əlyazmaların jurnala tədqim edilməsi yolverilməzdir;
15. Elmi dərəcəsi olan müəlliflər istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi təqdim edilməlidir;
16. Məqalələr redaksiyanın aşağıdakı elektron ünvanına (th.journal@atmu.edu.az) göndərilməlidir;
17. Jurnala məqalə il ərzində mütəmadi olaraq 4 dildə -Azərbaycan, Türk, İngilis və Rus dillərində qəbul edilir.
18. Jurnal ildə 4 dəfə olmaqla- **aprel, iyul, oktyabr və dekabr** aylarında çap olunur. Jurnalın elektron versiyasını(http://atmu.edu.az/az/arxiv) universitetin saytından əldə etmək olar.

Guidelines for articles

1 The articles submitted to the journal must meet the requirements set by the Higher Attestation Commission under the President of the Republic of Azerbaijan for periodical scientific publications and the rules of Azerbaijan Tourism Management University;
2 Digital Object Identifier (DOI - Digital Object Identifier) is assigned to each article published in the journal;
3 UOT indexes or PACS type codes must be indicated on each article;
4 The author must record the ORCID code;
5 The name, surname, workplace, e-mail address of the author of the article should be written on the upper right;
6 Abstracts of articles in Azerbaijani language should be given in Azerbaijani, English and Russian languages, abstracts of articles in Russian language should be given in Russian, Azerbaijani and English languages, abstracts of articles in English should be given in Azerbaijani, English and Russian languages (minimum 200 words);
7 Key words should be given in the languages in which summaries are written;
8 Each abstract must include the title of the article, the full name of the author(s);
9 The article should consist of "Introduction", "Text" (provided it is divided into sub-headings), "Conclusion" and "Reference list";
10 The article should be written in "Times New Roman", 12 font, the text should be compiled in Microsoft Word program (2003/2007) and A4 paper format;
11 Taking into account the above conditions, articles should be 7-12 pages long;
12 When writing the article, the claimant must refer to the sources and authors of the materials used. The reference in the text is followed by the number in the bibliography of the work, the volume (for multivolume works), and the corresponding page(s) in square brackets. For example, [54, p.162], [155, c.2, p.82-83], [54, p.162; p. 23], etc. When providing a bibliographic description of the cited source, the requirements of the "Referenced literature" section of the current instruction of the High Attestation Commission under the President of the Republic of Azerbaijan on the "Rules of Dissertations" should be taken as a basis. What is mentioned in the list of "used literature" should be given in the order shown in the following examples:

Book: Əliyev, H.Ə. Müstəqilliyimiz əbədidir: [46 cilddə] / H.Əliyev. – Bakı: Azərnəşr, – c. 45. – 2013. – 384 s.

Journal: Həbibbəyli, İ.Ə. Maarifçilik və realizm // – Bakı: Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, Humanitar elmlər seriyası, – 2018. №1, – s. 3-10.

Conference, symposium and others: Gatys, L.A., Ecker, A.S., Bethge, M. Image style transfer using convolutional neural networks // IEEE Conference on Computer Vision and Pattern Recognition. Las Vegas, Nevada, USA, – 2016, – p. 2414-2423.

Dissertations and abstracts: Səfərov, E.S. Xəzər dənizinin səviyyə tərəddüdlərinin məsafədən zondlama üsulları ilə tədqiqi: / coğrafiya üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2018. – 151 s.

Archival sources: Xarici İşlər naziri Məhəmməd Həsən Hacınskinin məruzəsi (Gəncə: 15 iyul 1918-ci il) // Azərbaycan Respublikası Dövlət Arxivi, Fond №

1061, siyahı №1, iş № 95, vərəq – 1.

Newspaper sources: Abdullayev, F. Azərbaycanı Respublikası Konstitusiyasının qəbul edilməsindən 24 il keçir // Respublika. – 2019, 9 noyabr. – s. 2.

Copyright certificates and patents: Səfərov, A.R., 1,4 – Butandiolun alınma üsulu, İxtira i2017 0005, Azərbaycan Respublikası / Əliyev A.M., Əliyev F.V., Mətiyev K.İ. [və b.].

Internet sources: Azərbaycan etnik musiqisi: [Elektron resurs] / tərt. ed. T.Məmmədov və b.; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi. – Bakı, 2006. – DVD+; 13 sm.

Source: https://aak.gov.az/single/492

13 When citing literature, scientific articles, monographs and other reliable sources of the last 10 years should be preferred. Sources not used in the text should not be indicated in the "Literature used" section;

14 Submission of previously published manuscripts to the journal is not allowed;

15 Except for authors with a scientific degree, the opinion of a doctor of science in the relevant field of science must be submitted for each article;

16 Articles should be sent to the following e-mail address of the editorial office (th.journal@atmu.edu.az);

17 Articles to the journal are regularly accepted throughout the year in 4 languages - Azerbaijani, Turkish, English and Russian.

18 The journal is published 4 times a year - in April, July, October and December. The electronic version of the journal (http://atmu.edu.az/az/arxiv) can be obtained from the university's website.

“BİROL GROUP” MMC
Çapa imzalanmışdır: 21.04.2025-ci il
Kağız formatı 70x100 1/16

Tiraj: 100.